# Dünya Azərbaycanlılarının III Qurultayı

- **Bakıda Dünya Azərbaycanlılarının III Qurultayı öz işinə başlamışdır** (*5 iyul 2011-ci il*)
- **Dünya Azərbaycanlılarının III Qurultayı** (*Heydər Əliyev Sarayı, 5 iyun 2011-ci il*)
- **Dünya Azərbaycanlılarının III Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi** (*5 iyun 2011-ci il*)
- **Azərbaycan Prezidenti İlham Əliyev bir qrup ictimai xadimə "Dostluq" ordenini və "Tərəqqi" medalını təqdim etmişdir** (*Heydər Əliyev Sarayı, 5 iyun 2011-ci il*)
- **Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun çıxışı** (*5 iyul 2011-ci il*)
- **Qırğızıstan Respublikası Parlamentinin sədri Axmatbek Keldibekovun çıxışı** (*5 iyul 2011-ci il*)
- **Gürcüstan Prezidenti Mixael Saakaşvilinin qurultay iştirakçılarına təbrik məktubu** (*5 iyul 2011-ci il*)
- **Türkiyə Respublikasının Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Qohum Topluluqlarla İş üzrə Başqanlığın sədri Kamal Yurtnaçın çıxışı** (*5 iyul 2011-ci il*)
- **Rostov Dövlət Dəmiryolu İnstitutunun rektoru, Rusiya Elmlər Akademiyasının akademiki Vladimir Kolesnikovun çıxışı** (*5 iyul 2011-ci il*)
- **Moldova Respublikasının Qaqauz Yeri (muxtar ərazi vahidi) Başqanı Mixail Formuzalın çıxışı** (*5 iyul 2011-ci il*)
- **Belçika Senatının fəxri prezidenti Ann Mari Lizinin çıxışı** (*5 iyul 2011-ci il*)
- **"Azİz" Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının prezidenti İosif Şaqalın çıxışı** (*5 iyul 2011-ci il*)
- **Türkiyənin Mərmərə qrupu Strateji və Sosial Araşdırmalar Fondunun sədri Akkan Suverin çıxışı**
  (*5 iyul 2011-ci il*)
- **Şimali Kipr Yaxın Doğu Universitetinin rektoru Suat Günselin çıxışı** (*5 iyul 2011-ci il*)
- **Latviya Seyminin deputatı Aleksandr Sakovskinin çıxışı** (*5 iyul 2011-ci il*)
- **Lüksemburq parlamentinin deputatı Jak-iv Henkesin çıxışı** (*5 iyul 2011-ci il*)
- **Fransanın Brazzavil Universitetinin rektoru, beynəlxalq hüquq məsələləri üzrə vəkil Emmanuel Koliyenin çıxışı** (*5 iyul 2011-ci il*)
- **Niderlandın Əyalət Parlamentinin deputatı, Əmək Uğrunda Partiyanın üzvü Songül Akkayanın çıxışı** (*5 iyul 2011-ci il*)
- **Ümumrusiya Azərbaycan Konqresinin prezidenti Məmmədbağır Əliyevin çıxışı** (*5 iyul 2011-ci il*)
- **Rumıniya parlamentinin üzvü Aledin Ametin çıxışı** (*5 iyul 2011-ci il*)

- **Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan Dərnəyinin sədri Sinan Oğanın çıxışı** (*5 iyul 2011-ci il*)
- **Amerika Azərbaycanlıları Şəbəkəsinin İcraçı direktoru Adil Bağırovun çıxışı** (*5 iyul 2011-ci il*)
- **Avropa Azərbaycanlıları Konqresinin prezidenti Başar Kömürün çıxışı** (*5 iyul 2011-ci il*)
- **Türkiyənin keçmiş turizm naziri, Azərbaycan-Türkiyə Həmrəylik və İnkişaf Fondunun İdarə Heyətinin üzvü İlhan Aküzümün çıxışı** (*5 iyul 2011-ci il*)
- **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri, Dünya azərbaycanlılarının III qurultayı Redaksiya Komissiyasının sədri Əli Həsənovun çıxışı** (*5 iyul 2011-ci il*)
- **Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini, Dünya azərbaycanlılarının III qurultayı Mandat Komissiyasının sədri Ziyafət Əsgərovun məruzəsi** (*5 iyul 2011-ci il*)
- **Dünya Azərbaycanlılarının III Qurultayının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə Müraciəti** (*5 iyun 2011-ci il*)
- **Dünya Azərbaycanlılarının III Qurultayının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına Müraciəti** (*5 iyun 2011-ci il*)
- **Dünya Azərbaycanlılarının III Qurultayının Dünya Azərbaycanlılarına Müraciəti** (*5 iyun 2011-ci il*)
- **Dünya Azərbaycanlılarının III Qurultayının Qətnaməsi** (*5 iyun 2011-ci il*)
- **Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının Dünya Azərbaycanlılarının III Qurultayında seçilmiş tərkibi**
- **Dünya azərbaycanlıları III Qurultayı Redaksiya Komissiyasının tərkibi**
- **Dünya azərbaycanlıları III Qurultayı Katibliyinin tərkibi**
- **Dünya azərbaycanlıları III Qurultayı Mandat Komissiyasının tərkibi**
- **Dünya Azərbaycanlılarının III Qurultayında iştirak etmək üçün Bakıya gəlmiş Azərbaycan diasporunun nümayəndələri ilə dövlət və hökumət qurumlarının rəhbərləri arasında görüş** (*6 iyul 2011-ci il*)
- **Azərbaycan Respublikasının İqtisadi inkişaf naziri Şahin Mustafayevin məruzəsi** (*6 iyul 2011-ci il*)
- **Azərbaycan Respublikasının Mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin məruzəsi** (*6 iyul 2011-ci il*)
- **Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılovun məruzəsi** (*6 iyul 2011-ci il*)

## BAKIDA DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYI ÖZ İŞİNƏ BAŞLAMIŞDIR

*5 iyul 2011-ci il*

İyulun 5-də Bakıda, Heydər Əliyev Sarayında Dünya azərbaycanlılarının III qurultayı öz işinə başlamışdır.

AzərTAc xəbər verir ki, qurultay açıq elan edildikdən sonra Azərbaycanın dövlət himni səsləndirilmişdir.

Sonra Azərbaycanın dirçəlişi və inkişafı, dünya azərbaycanlılarının təşkilatlanmasında, ümumi məqsəd və vahid azərbaycançılıq ideyası ətrafında birləşməsində misilsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Bildirilmişdir ki, Dünya azərbaycanlılarının III qurultayının Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə təsadüf etməsi bu möhtəşəm tədbirin ictimai-siyasi məzmununu daha da zənginləşdirir. Dünya azərbaycanlılarının I qurultayı 2001-ci il noyabrın 9-10-da ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə keçirilmişdir. Məhz bu qurultay xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşərək təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etmiş, milli diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2006-cı il martın 16-da Bakıda keçirilmiş Dünya azərbaycanlılarının II qurultayı ilə milli diasporumuz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Qurultaydan keçən 5 il ərzində 100-dən çox yeni diaspor təşkilatı yaradılmış, bir sıra regionlarda azərbaycanlı icmaların fəaliyyətini əlaqələndirən yeni qurumlar təsis edilmişdir.

III qurultayda 42 ölkədən seçilmiş 600 nümayəndədən 579 nəfəri, habelə dünyanın 30 ölkəsindən 211 nəfər qonaq qismində iştirak edir. Ən çox nümayəndə və qonaqlarla təmsil olunan ölkələr sırasında Rusiya Federasiyası 155, Türkiyə 101, Ukrayna 49, Almaniya 43, Gürcüstan 41, ABŞ 28, İsveç Krallığı 23, Niderland Krallığı 21, İsrail 17, Özbəkistan 13, Fransa 12, Böyük Britaniya və Şimali İrlandiya Krallığı 11, Kanada 10 nəfərlə təmsil olunmuşlar. Ümumilikdə qurultayda 1872 nəfər iştirak edir.

Qurultay nümayəndələrinin 182 nəfəri xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin rəhbərləridir.

Qurultayda Azərbaycan Respublikasının bütün bölgələrindən olan nümayəndələr də iştirak edir. Azərbaycan Respublikasının dövlət və hökumət strukturları, qeyri-hökumət təşkilatları, elm, təhsil, mədəniyyət və digər yaradıcı qurumlar və siyasi partiyalardan 677 nümayəndə və 405 qonaq qurultayda iştirak edir.

Qurultaya ümumilikdə 13 ölkənin parlamentindən 37 deputat qatılmışdır.

Azərbaycan xalqının tarixində mühüm əhəmiyyətə malik olan bu qurultayın işini 21 xarici ölkədən 37 nəfər, eyni zamanda, respublikamızda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin 163 nümayəndəsi işıqlandırır. Bu gün bu mötəbər tədbirdə xarici ölkələrdən nümayəndə və qonaq qismində 102 nəfər gənc iştirak edir.

Dünya azərbaycanlılarının III qurultayının iştirakçıları arasında vaxtilə Azərbaycanda yaşamış yəhudi, rus, ukraynalı, bolqar, ahıska türkü və digər xalqların xarici ölkələrə miqrasiya etmiş təmsilçiləri də vardır.

Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləmiş, nümayəndələrin çıxışları dinlənilmişdir.

Qurultay öz işini davam etdirir.

**DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYI**

*Heydər Əliyev Sarayı,*
*5 iyun 2011-ci il*

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ötən dövr ərzində milli dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə etmiş, özünün hüquqi-siyasi, sosial-iqtisadi dayaqlarını möhkəmləndirmiş, iqtisadi potensialına, demokratik inkişaf səviyyəsinə, beynəlxalq aləmdə tutduğu mövqeyə görə regionun şəksiz lider dövlətinə çevrilmişdir. Əldə edilmiş nailiyyətlər ölkə daxilində milli birliyin möhkəmlənməsinə, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə səbəb olmuş, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı daha da ruhlandırmış, ölkəmizin milli maraqları ətrafında sıx birləşmələri üçün zəmin yaratmışdır.

Azərbaycan Respublikasının hər bir uğuru, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, bütün həmvətənlərimizin də qəlblərində böyük qürur və iftixar hissi doğurur. Bunu iyulun 5-də Bakıda öz işinə başlayan Dünya azərbaycanlılarının III qurultayında iştirak etmək üçün paytaxta gələn qonaqların hamısı etiraf edirlər.

Dünya azərbaycanlılarının I qurultayı 2001-ci il noyabrın 9-10-da ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə keçirilmişdir. Məhz bu qurultay xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşərək təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etmiş, milli diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur.

Qurultay müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyi və fəallığının artmasına ciddi təsir göstərmişdir. Həmin qurultayda ulu öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı dillər əzbəri olmuşdur.

Azərbaycan Prezidentinin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması həmin il dekabrın 27-də "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da gücləndirmişdir.

Ulu öndərimiz xaricə səfərləri zamanı iş cədvəlinin zənginliyinə və gərginliyinə baxmayaraq mütləq həmin ölkələrdə yaşayan həmvətənlərimizlə görüşlər keçirmiş, onların problem və qayğıları ilə yaxından maraqlanmış, tövsiyələrini vermişdir.

Ümummilli liderimizin ideya və prinsiplərinə sadiq qalan Azərbaycan Prezidenti İlham Əliyev də ulu öndərin bu siyasətini uğurla davam etdirir. Dövlətimizin başçısının Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələri müzakirə etmək məqsədi ilə 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq həmin il

martın 16-da Bakıda Dünya azərbaycanlılarının II qurultayı keçirilmişdir. Bu mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olmuşdur.

Bir il sonra - 2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilmiş, Azərbaycan Prezidentinin türk dünyasının birliyinə verdiyi önəmin parlaq təzahürü kimi tarixə düşmüşdür.

Prezident İlham Əliyev 2008-ci il noyabrın 19-da Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərman imzalamışdır. Həmin il dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının toplantısında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmişdir.

Beləliklə, dövlətimizin diaspor siyasəti xaricdəki həmvətənlərimizin daha mütəşəkkil formada təşkilatlanması prosesi ilə özünün yeni mərhələsinə qədəm qoymuşdur. İndi soydaşlarımız yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, zəngin mədəni irsimizin təbliği, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında da qətiyyət nümayiş etdirirlər.

Hazırda dünyanın əksər ölkələrində Azərbaycan icmaları üçrəngli bayrağımız altında fəaliyyət göstərir. Azərbaycanlı gənclərin xarici ölkələrdə təşkilatlanması, onların diaspor hərəkatındakı iştirakı da uğurla gedir. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı isə özünün çoxşaxəli fəaliyyəti ilə əsl nümunə nümayiş etdirir. Qurumun sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan layihələr, həyata keçirilən tədbirlər Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır. Bu meyil Avropa ölkələrində də özünü yüksək səviyyədə göstərir. 2010-cu ilin noyabrında Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərinin I Konqresi keçirilmişdir. Prezident İlham Əliyevin təsdiq etdiyi Azərbaycan gəncliyi Dövlət Proqramına uyğun olaraq Diasporla İş üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyinin keçirdiyi bu tədbirdə 25 ölkədən azərbaycanlı gənclər, 41 diaspor təşkilatının rəhbərləri iştirak etmişlər. Konqres xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuq işinə cəlb olunması, onların ictimai-siyasi fəallığının artırılması yönündə daha bir mühüm addım olmuşdur.

Bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bu gücün təməlində təkcə iqtisadi və hərbi qüdrətimiz deyil, həm də sıx birliyimiz dayanır. Ona görə də harada yaşadığımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları soydaşlarımızı birləşdirən əsas dəyərlər kimi hər birimizin düşüncəsinə hakim kəsilməlidir. İndi sürətlə inkişaf edən ölkəmiz bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzidir. Dünyanın hər yerindən səsi gələn həmvətənlərimiz isə azərbaycançılıq amalı ətrafında milli birlik və həmrəylik nümayiş etdirir, bütün qüvvə və bacarıqlarını ümummilli məqsəd naminə səfərbər edirlər.

Prezident İlham Əliyevin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü haqqında bu il yanvarın 21-də imzaladığı Sərəncama uyğun olaraq keçirilən Dünya azərbaycanlılarının III qurultayında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, iş adamları Bakıya gəlmişlər.

İyulun 5-də Heydər Əliyev Sarayında Dünya azərbaycanlılarının III qurultayı öz işinə başladı. Qurultaydan əvvəl çoxsaylı nümayəndələr səhər tezdən Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etdilər. Onlar ulu öndərin xatirəsini dərin ehtiramla anaraq, abidəsi önünə əklil qoydular, gül-çiçək dəstələri düzdülər.

Sonra qonaqlar görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə tər güllər qoydular.

Daha sonra qurultay nümayəndələri Şəhidlər xiyabanına gələrək Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini böyük ehtiramla yad etdilər. Onlar şəhid məzarları üzərinə güllər düzdülər, "Əbədi məşəl" abidəsi önünə tər çiçəklərdən hörülmüş əklil qoydular.

Qurultay nümayəndələri şəhid türk əsgərlərinin xatirə abidəsini də ziyarət etdilər və əklil qoydular. Heydər Əliyev Sarayının foyesində Azərbaycan diasporuna dövlət qayğısını əks etdirən fotosərgi təşkil edilmişdir. Stendlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin ötən qurultaylarda və müxtəlif dövrlərdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlərində çəkilmiş fotoşəkillər, milli diasporumuzun inkişafı ilə bağlı imzalanmış fərman, sərəncam və qanunların nüsxələri, diaspor quruculuğundan, respublikamızın sosial-iqtisadi inkişafından, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətdən bəhs edən kitablar və jurnallar, milli adət-ənənələrimizi, mədəniyyətimizi təbliğ edən videomateriallar nümayiş etdirilirdi. Foyedə Ermənistanın Azərbaycana hərbi təcavüzündən, xalqımıza qarşı törətdiyi soyqırımı siyasətindən, həmçinin Milli Təhlükəsizlik Nazirliyinin, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının hazırladığı materiallardan ibarət fotosərgi də təşkil olunmuşdu. İştirakçıların hər birinə III qurultaya aid materiallar, Azərbaycan haqqında məlumatlar paylandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qurultayda iştirak etmək üçün saraya gəldilər.

Qurultay nümayəndələri və qonaqlar dövlətimizin başçısını və xanımını hərarətlə, sürəkli alqışlarla qarşıladılar.

Salonda ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycan diasporu ilə bağlı müdrik kəlamları yazılmış transparantlar asılmışdı.

Məlumat verildi ki, aparılmış qeydiyyatın nəticələrinə görə qurultayın işində dünyanın 42 ölkəsindən seçilmiş 600 nümayəndədən 579 nəfəri, habelə dünyanın 30 ölkəsindən 211 nəfər qonaq qismində iştirak edir. Qurultayda Azərbaycan Respublikası 677 nümayəndə və 405 nəfər qonaqla təmsil olunur. Ümumilikdə 1872 nəfər qeydiyyatdan keçmişdir. Yetərsay vardır. Qurultay öz işinə başlaya bilər.

Dünya azərbaycanlılarının III qurultayı açıq elan edildi.

Azərbaycan Respublikasının dövlət himni əzəmətlə səsləndi.

Qurultay iştirakçıları dünya azərbaycanlılarının təşkilatlanması, ümumi məqsəd və vahid azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi üçün tarixi xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin xatirəsini birdəqiqəlik sükutla yad etdilər.

Sonra "Gücümüz birliyimizdədir!" sənədli filmi nümayiş etdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev qurultayda geniş nitq söylədi

**X X X**

Dünya azərbaycanlılarının III qurultayının proqramı və reqlamenti təsdiq edildi, işçi orqanları yaradıldı.

Fasilədən sonra qurultay öz işini davam etdirdi.

**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İBRAHİMOV** ötən qurultaydan sonra görülmüş işlərin hesabatına dair məlumat verdi. Bildirdi ki, ulu öndər Heydər Əliyevin xidmətləri sayəsində Azərbaycanın maraq və mənafeləri naminə xaricdə yaşayan həmvətənlərimizin birliyini təmin edən azərbaycançılıq məfkurəsi yaranmışdır. Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirərək, mütəşəkkil diasporun və güclü lobbinin formalaşması məsələsinin daim diqqətdə saxladığını vurğulayan komitə sədri dövlətimizin başçısının verdiyi tövsiyə və tapşırıqların Azərbaycan diasporunun yeni dövrdəki fəaliyyətinin ideoloji təməlini təşkil etdiyini bildirdi.

N.İbrahimov ikinci qurultaydan ötən dövrdə xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması prosesinin daha da sürətləndiyini deyərək, hazırda dünyanın müxtəlif ölkələrində azərbaycanlıların 416 diaspor təşkilatının fəaliyyət göstərdiyini dedi. Komitə sədri, həmçinin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun müstəsna rol oynadığını xüsusi vurğuladı.

**Qırğız Respublikası Parlamentinin sədri Axmatbek KELDİBEKOV** Dünya azərbaycanlılarının III qurultayına dəvət edildiyi üçün minnətdarlıq etdi. Hər iki türk xalqının qədim tarixi ənənələrə və əlaqələrə malik olduğunu deyən A.Keldibekov hazırda Qırğız Respublikasında 20 mindən çox azərbaycanlının yaşadığını və onların bu ölkənin ictimai-siyasi və sosial həyatında yaxından iştirak etdiklərini bildirdi. O, Azərbaycanda həyata keçirilən uğurlu islahatları dünya səviyyəsində nümunəvi model adlandırdı. Qırğız Respublikası Parlamentinin sədri ölkəsinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etdi.

**Gürcüstanın Kvemo Kartli-Borçalı bölgəsinin qubernatoru David KİRKİTADZE** Prezident Mixeil Saakaşvilinin qurultay iştirakçılarına ünvanlanan məktubunu oxudu. Məktubda ölkələrimiz arasında mövcud əlaqələrin inkişafında Gürcüstandakı Azərbaycan diasporunun mühüm rol oynadığı vurğulanır.

Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın qurultay iştirakçılarına salamlarını çatdıran **Türkiyə Respublikası Nazirlər Kabineti yanında xaricdə yaşayan türklər və qohum topluluqlarla iş üzrə başqanlığın sədri Kamal YURTNAC** hər iki qardaş ölkənin diaspor təşkilatlarının birgə və qarşılıqlı fəaliyyət göstərdiyini vurğuladı, Avropa və Amerikadakı təşkilatlarımızın erməni lobbisinin uydurma və əsassız iddialarına qarşı uğurla çalışdıqlarını dedi.

**Rusiya Elmlər Akademiyasının akademiki Vladimir KOLESNİKOV** tarixi dostluq münasibətlərinə malik olan Azərbaycan-Rusiya əlaqələrinin daimi inkişafda olduğunu bildirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin bu əlaqələrin inkişafına xüsusi diqqət yetirdiyini xüsusi qeyd etdi.

Azərbaycan və qaqauz xalqları arasındakı əlaqələrin tarixinin qədim olduğunu deyən **Moldovanın Qaqauz Yeri Başqanı Mixail FORMUZAL** bütün türk dünyasının birləşməsinin əhəmiyyətini vurğuladı.

Sonra qurultayın **Mandat Komissiyasının sədri, Milli Məclis sədrinin birinci müavini Ziyafət ƏSGƏROVUN** hesabatı dinlənildi.

"Ümummilli lider Heydər Əliyevin qurduğu Azərbaycan dövləti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir, dünya birliyinə inteqrasiya edir", - deyən Z.Əsgərov bildirdi ki, Dünya azərbaycanlılarının III qurultayına 1272 nümayəndə seçilmişdir. Bu mötəbər mərasimdə 42 ölkədən 579 nümayəndə iştirak edir. Rusiya, Türkiyə, Ukrayna, Almaniya, Gürcüstan, ABŞ, İsveç Krallığı, Niderland, İsrail, Özbəkistan, Fransa, Böyük Britaniya, Kanada daha çox nümayəndə ilə təmsil olunur. Bundan əlavə, qurultaya xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin 182 rəhbəri də qatılmışdır. Ölkəmizin bölgələrindən olan nümayəndələrin də iştirak etdiyi qurultayın işini 21 xarici ölkədən 37 media işçisi işıqlandırır.

Qurultayın Azərbaycan diasporu üçün mühüm əhəmiyyət kəsb etdiyini deyən **Belçika parlamentinin senatoru xanım Ann Mari LİZİN** ölkəmizdəki hərtərəfli inkişafdan danışdı. Azərbaycan ilə Avropa İttifaqı arasındakı əlaqələrin inkişafından bəhs edən senator dedi ki, təmsil etdiyi ölkə hesab edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli vacibdir.

Azərbaycanda bütün millətlərin nümayəndələrinin, o cümlədən yəhudilərin təhlükəsiz şəraitdə yaşadığını deyən **"Azİz" Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının prezidenti İosif ŞAQAL** isə bildirdi ki, bu gün İsraildə Azərbaycana çox böyük maraq vardır. "İsraildə ermənilərin qondarma "soyqırımı" tanınmır və yəhudi diasporu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ həqiqətlərini bütün dünyaya olduğu kimi çatdırır", - deyən İosif Şaqal ulu öndər Heydər Əliyevin Azərbaycan-İsrail münasibətlərinin inkişafındakı rolunu xüsusi qeyd etdi.

**Türkiyənin Mərmərə qrupu Strateji və Sosial Araşdırmalar Fondunun sədri Akkan SUVER** də ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan məqsədyönlü siyasətin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyini söylədi.

Bu qurultay yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün çox mühüm əhəmiyyət kəsb edir, - deyən A.Suver bildirdi ki, qurultay dünya azərbaycanlılarını bir araya yığmaqla yanaşı, həm də milli şüurun qorunub saxlanılmasında xüsusi rol oynayır.

**Şimali Kipr Yaxın Doğu Universitetinin rektoru Suat GÜNSEL** dedi ki, Azərbaycanı zamana bənzədirəm. Bu ölkə zaman kimi yalnız irəliyə gedir. Bu qurultayın Azərbaycan diasporunun daha da fəallaşmasına, dəqiq və praqmatik addımlar atmasına zəmin yaradacağına əminəm.

**Latviya Seyminin deputatı Aleksandr SAKOVSKİ** təmsil etdiyi ölkə və ali qanunverici orqan nümayəndələri adından qurultay iştirakçılarını salamladı, Latviya-Azərbaycan əlaqələrinin genişlənməsində Prezident İlham Əliyevin xidmətlərini xatırladı.

**Lüksemburq parlamentinin deputatı Jacques–Yves FLENCKES** ölkəsində azərbaycanlıların da yaşadığını bildirərək onların Lüksemburqun ictimai-siyasi həyatında mühüm rol oynadığını dedi. O, Azərbaycanda gedən inkişafın və ölkəmizdə müşahidə etdiyi müsbət dinamikanın Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi kimi qiymətləndirdi.

**Fransanın Brazzavil Universitetinin rektoru, beynəlxalq məsələlər üzrə vəkil Emmanuel KOLİYE** Azərbaycan ilə Fransa arasındakı dostluq münasibətlərinin tarixindən danışdı. O, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin Azərbaycan-Fransa əlaqələrinin inkişafında mühüm rol oynadığını deyərək, xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan Fondun sivilizasiyalararası dialoqa mühüm töhfələr verdiyini bildirdi.

**Niderlandın Əyalət Parlamentinin deputatı, Əmək Uğrunda Partiyanın üzvü Songül AKKAYA** Benilüks-Azərbaycan Cəmiyyətinin fəaliyyətindən danışdı. O, bu qurumun Niderlandın ictimai-siyasi həyatında mühüm rol oynadığını dedi.

**Ümumrusiya Azərbaycan Konqresinin prezidenti Məmmədbağır ƏLİYEV** isə II qurultaydan keçən beş ildə görülən işlərdən danışdı. Bildirdi ki, bu dövrdə rəhbərlik etdiyi qurumun 80-dən çox regional, 23 yerli təşkilatı yaradılmış, Rusiyada işıq üzü görən ilk həftəlik diaspor mətbu orqanı fəaliyyətə başlamışdır.

Rumıniyada yaşayan 40 minə yaxın **Krım türklərinin adından danışan Rumıniya parlamentinin üzvü Aledin AMET** Azərbaycan diasporunun fəaliyyətinin ildən-ilə genişlənməsindən məmnun olduğunu dedi.

**Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan Dərnəyinin sədri Sinan OĞAN** isə qurultayı Azərbaycan tarixində mühüm hadisə adlandırdı.

Türkiyədə yaşayan üç milyon azərbaycanlıdan biri olduğunu və bununla hər zaman fəxr etdiyini deyən Sinan Oğan Azərbaycan-Türkiyə birliyinin türk dünyası həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əhəmiyyətli rol oynadığını bildirdi.

**Amerika Azərbaycanlıları Şəbəkəsinin icraçı direktoru Adil BAĞIROV** Amerikadakı Azərbaycan diasporunun fəaliyyətindən danışdı. Bu gün Amerikadakı diaspor təşkilatlarımızın erməni lobbisinin məkrli addımlarına qarşı türk diasporu ilə birgə mübarizə apardığını deyən A. Bağırov Azərbaycan həqiqətləri ilə bağlı Birləşmiş Ştatların siyasi dairələrinə 200 mindən çox məktub göndərildiyini, Qarabağ Fondunun yaradıldığını diqqətə çatdırdı.

**Avropa Azərbaycanlıları Konqresinin prezidenti Başar KÖMÜR** Azərbaycan dövləti tərəfindən daim diasporumuza lazımi diqqət və qayğının göstərilməsinə görə Prezident İlham Əliyevə təşəkkürlərini çatdırdı. Başar Kömür ölkəmizlə bağlı reallıqların və Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti ilə əlaqədar həqiqətlərin Avropa ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərdən danışdı.

**Türkiyənin keçmiş turizm naziri İlhan AKÜZÜM** xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan diasporunun yaradılması və formalaşması istiqamətində gördüyü işləri yüksək qiymətləndirdi.

Türkiyə ilə Azərbaycan arasında daimi dostluq və qardaşlıq əlaqələrinin olduğunu xatırladan qonaq bunu diaspor təşkilatlarının fəaliyyətində də özünü büruzə verdiyini dedi.

Prezident İlham Əliyevin qurultaydakı nitqinin proqram xarakterli olduğunu deyən **Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri, redaksiya komissiyasının sədri Əli HƏSƏNOV** tədbirin əhəmiyyətini vurğulayaraq ümumilikdə, qurultayda 20 çıxışın dinlənildiyini, bu çıxışlarda 35-ə yaxın müxtəlif təklifin səsləndiyini bildirdi.

Sonra həmin təkliflər də nəzərə alınmaqla qurultayın yekun sənədləri qəbul olundu.

İştirakçılar qurultayın qətnaməsini, qurultay nümayəndələri adından Prezident İlham Əliyevə müraciəti, dünya azərbaycanlılarına ünvanlanan müraciəti və qurultay nümayəndələri adından Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatlara, xarici ölkə parlamentlərinə, dövlət və hökumət başçılarına müraciəti yekdilliklə qəbul etdilər.

Qurultayda, həmçinin 2001-ci ildə yaradılan Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının fəaliyyətinin davam etməsi və şuranın icra katibliyinin yaradılması qərara alındı.

Qurultay iştirakçıları Prezident İlham Əliyevi yekdilliklə Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasına sədr seçdilər.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovu isə şuranın icra katibi vəzifəsinə seçdilər. Qurultayda qərara alındı ki, Əlaqələndirmə Şurasının tərkibi 107 nəfərdən 115 nəfərə çatdırılsın. Əli Həsənov qeyd etdi ki, iyulun 6-da dövlət və hökumət nümayəndələri qurultay iştirakçıları ilə görüşəcək, burada səslənən təkliflərlə bağlı müzakirələr aparacaqlar.

Bununla da Dünya azərbaycanlılarının III qurultayı bağlı elan edildi.

**DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYINDA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ**

*5 iyun 2011-ci il*

-Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Dünya azərbaycanlılarının III qurultayının açılışı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər birinizə cansağlığı, uğurlar arzulayıram.

Bu qurultay çox əlamətdar bir hadisədir. Azərbaycanda Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi artıq gözəl ənənəyə çevrilmişdir. Bu ənənənin təməlini 2001-ci ildə ulu öndər Heydər Əliyev qoymuşdur. Onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq dünya azərbaycanlıları bir araya gəldilər, çox gözəl qurultay keçirildi. Ondan sonra dünyada yaşayan azərbaycanlıların təşkilatlanması üçün yeni şərait yaradılmışdır.

2002-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. İndi onun adı Diasporla İş üzrə Komitədir. Bütün qitələrdə yaşayan soydaşlarımız komitənin fəaliyyəti nəticəsində öz təşkilatlarını yaratmışlar. Bu təşkilatlar bu gün artıq bütün qitələrdə, bütün ölkələrdə uğurla fəaliyyət göstərirlər.

Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü kimi elan edilmişdir. Bu gün 31 dekabr bizim milli bayramımızdır.

Bu gün nümayiş olunan filmdə ölkəmizin inkişafının müxtəlif istiqamətləri göstərilmişdir. Azərbaycan bu il müstəqilliyinin 20 illik yubileyini qeyd edir. Bu 20 il ərzində biz böyük və şərəfli yol keçmişik. İyirmiillik yubileyi qeyd edərkən ölkəmiz, xalqımız üçün ulu öndər Heydər Əliyevin verdiyi töhfələri bir daha yada salırıq. Müstəqil Azərbaycan üçün ən həlledici anlarda Azərbaycan xalqının tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev ölkəmizi bəladan, faciədən, vətəndaş müharibəsindən qurtara bilmişdir.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan müstəqilliyə qovuşmuşdur. Ancaq o vaxt ölkədə gedən proseslər və mövcud olan ağır vəziyyət müstəqilliyimizi sual altına qoymuşdu. Ölkədə xaos, anarxiya, kütləvi itaətsizlik hökm sürürdü. İqtisadi və siyasi tənəzzül faktiki olaraq ölkəmizi uçuruma aparırdı. Bundan əlavə, Ermənistanın Azərbaycana qarşı təcavüzü və təcavüz nəticəsində torpaqlarımızın işğal altına düşməsi, daxili çəkişmələr, qarşıdurmalar və vətəndaş müharibəsinin başlanması – bütün bunlar müstəqilliyimizin ilk illərinin hadisələri idi.

1993-cü ildə Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində bütün xoşagəlməz hallara son qoyuldu. Ölkəmizdə sabitlik yarandı və Azərbaycanda inkişaf dövrü başlandı. Ona görə biz tam əminliklə və qətiyyətlə deyirik: Heydər Əliyev müstəqil Azərbaycanın banisidir, müstəqil Azərbaycanın qurucusudur. Bu gün Azərbaycan onun qoyduğu yolla gedərək inkişaf edir.

Azərbaycanın inkişaf istiqamətləri 1993-cü ildə və dövlətçiliyimizin formalaşmasının ilk illərində müəyyən edilmişdir. O dövr üçün bu təşəbbüslər həlledici məna daşıyırdı. Çünki bu gün Azərbaycanın reallıqları məhz o dövrdə müəyyən edilmiş və seçilmiş istiqamətlər üzərində qurulmuşdur. Düzgün istiqamət seçilmişdir: Azərbaycan dünya birliyinə inteqrasiya etməli, açıq qapılar siyasəti aparmalı, xarici investisiyaları cəlb etməli idi. Biz bütün bunlara nail ola bilmişik. Azərbaycanda demokratik, dünyəvi dövlətin qurulması da məhz Heydər Əliyevin siyasətinin nəticəsidir. Bu gün Azərbaycan sürətlə və uğurla inkişaf edən ölkədir. Ölkəmizdə siyasi proseslər çox müsbət istiqamətdə gedir. Siyasi sistem təkmilləşir. Ölkəmiz demokratik əsaslarla idarə olunur. Söz, vicdan, mətbuat azadlığı, insan hüquqlarının qorunması məsələləri bizim üçün prioritetdir. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Biz bütün beynəlxalq qurumlarla, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq aparırıq.

Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. Bizim Əsas Qanunumuz imkan verir ki, ölkəmiz uğurla və sürətlə inkişaf etsin.

Ölkə qarşısında duran vəzifələr icra edilir. Bir daha demək istəyirəm ki, 1990-cı illərdə düzgün müəyyən edilmiş istiqamət bugünkü reallıqlara gətirib çıxarmışdır. Bu gün Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir və yeni formalarla zənginləşdirilir.

Azərbaycanda müasir dövlət quruculuğu prosesi uğurla gedir. Eyni zamanda, biz milli mənəvi dəyərlərimizə də çox sadiqik, onları qoruyuruq. Azərbaycan dəyərləri bizim üçün müstəsna əhəmiyyət daşıyır. Əsrlər boyu Azərbaycan xalqı milli mənəvi dəyərlərini, ana dilini – Azərbaycan dilini qoruya bilmişdir. Bu gün müasir Azərbaycan dövləti bu möhkəm təməl üzərində yaranır, güclənir və bölgədə, regionda artıq çox mühüm amilə çevrilibdir.

Bizim milli dəyərlərə bağlılığımız Azərbaycan xalqının iradəsinin əlamətidir. Bununla bərabər, dünyada mövcud olan və bizim üçün məqbul sayılan ən mütərəqqi təcrübə Azərbaycanda tətbiq olunur. Azərbaycanda geniş modernləşmə siyasəti aparılır. Həyatımızın bütün istiqamətlərində modernləşmə əlamətlərini görə bilirik. Biz bundan sonrakı dövrdə də bu siyasətə sadiq qalacağıq.

Azərbaycanda, eyni zamanda, güclü iqtisadi potensial yaradılmışdır. Son illər ərzində aparılan iqtisadi islahatlar nəticəsində ölkə tam şəkildə özünü təmin edə bilir və hətta dünya üçün çox böyük problemlər yaratmış maliyyə və iqtisadi böhran Azərbaycana çox az təsir etmişdir. Ən böhranlı illərdə - 2008-ci, 2009-cu, 2010-cu illərdə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir, iqtisadiyyatımız artmışdır.

Azərbaycanda siyasi və iqtisadi islahatlar bir-birini tamamlayır. Məqsədimiz ondan ibarətdir ki, bu islahatların dərinləşməsi nəticəsində güclü, müasir dövlət yaradılsın. Biz artıq bu istiqamətdə çox böyük nailiyyətlərə çata bilmişik.

Son 7 il ərzində ölkə iqtisadiyyatı üç dəfə artmışdır. Yəni, ümumi daxili məhsul 300 faiz artmışdır. Bu da dünya praktikasında analoqu olmayan bir təcrübədir. Sənaye istehsalı da təxminən üç dəfə artmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı beş dəfə azalmışdır. Bu, onu göstərir ki, bizim tərəfimizdən aparılan islahatlar sosialyönümlü islahatlardır. Siyasətimizin təməlində insan amili dayanıbdır və bir neçə il əvvəl elan edilmiş "Biz neft kapitalını insan kapitalına çevirməliyik" şüarı bu gün reallaşır. Bunun nəticəsində iqtisadiyyatımızın bütün istiqamətlərində bir canlanma və inkişaf görürük. Maliyyə imkanlarımız genişlənir. Azərbaycanda çox böyük quruculuq işləri aparılır. Azərbaycana xarici və daxili investisiyalar qoyulur. Təkcə keçən il ölkəmizə 16 milyard dollar sərmayə qoyulmuşdur. Ümid edirəm ki, bu il bu rəqəm daha da böyük olacaqdır. Yenə də deyirəm, aparılan islahatlar nəticəsində ən ağır, ən böhranlı aylarda, illərdə biz iqtisadi və makroiqtisadi sabitliyi qoruya bilmişik. Ondan əlavə, atılan addımlar və irəli sürülən təşəbbüslər nəticəsində insanların maddi rifahı artıb, sosial proqramlar icra edilib, sosial ödəmələr, maaşlar, pensiyalar artırılır.

İqtisadi müstəqillik, əlbəttə, imkan verir ki, biz beynəlxalq məsələlərlə də bağlı fikrimizi açıq-aydın ifadə edək. Bölgədə gedən proseslərə Azərbaycanın təsir imkanları artır. Bu da təbiidir. Çünki Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 75 faizini təşkil edir. Onu da qeyd etməliyəm ki, ümumi daxili məhsulun 80 faizi özəl sektorda formalaşır. O da öz növbəsində göstərir ki, Azərbaycanda liberal islahatlar uğurla aparılır.

Regional əməkdaşlıq təşəbbüslərinin irəli sürülməsi nəticəsində regionda çox gözəl əməkdaşlıq iqlimi yaranmışdır. Ulu öndər Heydər Əliyevin neft strategiyası çərçivəsində irəli sürdüyümüz təşəbbüslər gözəl nəticələrini verməkdədir. Azərbaycan çox uğurlu enerji siyasəti aparır. Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, son aylar daha çox Azərbaycanın adı çəkilir və bu da təbiidir. Çünki Azərbaycanda görülən işlər və infrastruktura qoyulan vəsait bu gün yeni vəziyyətin yaranmasına gətirib çıxarmışdır. Biz bundan sonra da bu siyasətə sadiq qalacağıq. Azərbaycanın inkişafı təkcə iqtisadi addımlarla məhdudlaşmamalıdır. Yenə də deyirəm, biz istəyirik ki, bütün istiqamətlərdə ən qabaqcıl texnologiyalar, ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq olunsun və insanların yaşayış səviyyəsi ildən-ilə artsın. Buna nail olmaq üçün bütün imkanlar vardır. Bizim düşünülmüş strategiyamız vardır və taktiki addımlarımız da çox uğurludur. Azərbaycan nə xarici, nə daxili siyasətdə, nə də icra etdiyi proqramlarda bir dəfə də olsun səhv etməmişdir. Hesab edirəm ki, bunun nəticəsində bu gün ölkəmizin dünyadakı hörməti böyük dərəcədə artmışdır.

Azərbaycan etibarlı tərəfdaş kimi tanınır, bizim sözümüzə inanırlar. Bizimlə əməkdaşlıq və dostluq etmək istəyən ölkələrin sayı artmaqdadır. Müstəqillik ən böyük sərvətdir, ən böyük uğurumuzdur. Azərbaycan 20 ildir ki, müstəqil yaşayır, Azərbaycan xalqı azad yaşayır. Azərbaycan xalqı öz taleyinin sahibidir, Azərbaycan xalqının iradəsi bizim üçün ən vacib amildir. Ölkə qarşısında duran sosial –iqtisadi məsələlərin həlli əminəm ki, bundan sonra da uğurla icra ediləcəkdir. Çünki bunu deməyə əsas verən bizim təcrübəmiz, artıq əldə edilmiş maliyyə potensialımız və iqtisadi imkanlarımızdır.

Ölkə qarşısında duran ən ağrılı problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, uzun illər danışıqların aparılmasına baxmayaraq, bu məsələ həllini tapmır. Torpaqlarımız işğal altındadır, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü müdafiə edir, dəstəkləyir. Birləşmiş

Millətlər Təşkilatı, ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, digər təşkilatlar müvafiq qərar və qətnamələr qəbul etmişdir ki, Azərbaycanın ərazi bütövlüyü orada müdafiə edilir və işğalçı qüvvələrin işğal edilmiş torpaqlardan çıxarılması da orada nəzərdə tutulur. Ancaq əfsuslar olsun ki, məsələ həllini tapmır. Bunun yeganə səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi və sülhə hazır olmamasıdır. Ancaq biz yaxşı bilirik ki, gec-tez Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir.

Biz istəyirik ki, bunu sülh yolu ilə və tezliklə həll edək. Ermənistan tərəfi də anlamalıdır ki, artıq Azərbaycanda yaradılmış potensial Ermənistanın potensialı ilə müqayisə edilə bilməz. Bizim iqtisadi imkanlarımız və iqtisadi potensialımız Ermənistandakından 10 dəfə artıqdır. Vaxt keçdikcə bu fərq daha da çoxalacaq, iki ölkə arasındakı uçurum daha da genişlənəcəkdir. Ona görə Ermənistanın marağında olmalıdır ki, bu məsələ tezliklə öz həllini tapsın. Çünki Azərbaycanla rəqabət aparmaq indi onların gücündə deyildir. Bizim təkcə hərbi xərclərimiz Ermənistanın bütün dövlət büdcəsindən 50 faiz artıqdır. Bu, hələ bizim gördüyümüz işlərin birinci nəticələridir. Biz çox yaxşı başa düşürük və görürük ki, bizi nələr gözləyir. Azərbaycan dünya miqyasında zəngin ölkələrin arasında olacaqdır. Artıq beynəlxalq təşkilatların reytinqlərində Azərbaycanın mövqeləri istənilən istiqamətdə çox yüksəkdir. İqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinə görə biz MDB məkanında birinci yerdəyik. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi və hazırlığına görə biz MDB məkanında birinci yerdəyik. İnsan inkişafı indeksinə görə də ən böyük sıçrayışı Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə Azərbaycan etmişdir.

Yəni biz çox yaxşı bilirik ki, 5 il, 10 il sonra Azərbaycanın potensialı nədən ibarət olacaqdır. Çünki bir daha demək istəyirəm ki, bunu proqnozlaşdırmaq üçün əsas verən gördüyümüz işlərdir və icra edilən layihələrdir. Ona görə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunması həm Azərbaycanın, həm də Ermənistanın maraqlarına cavab verir. Beynəlxalq birlik də bunu istəyir, Beynəlxalq birlik də istəyir ki, bu münaqişəyə son qoyulsun. Son aylar ərzində bizi ruhlandıran vacib amillərdən biri də odur ki, bu məsələ ilə bağlı vasitəçilər və onların dövlət başçıları birmənalı şəkildə bildirirlər ki, status–kvo qəbuledilməzdir. Status-kvo dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi təbii ki, torpaqlarımızın işğal altından çıxmasını tələb edir.

Biz ümid edirik ki, danışıqların nəticəsi olacaqdır. Hər halda Azərbaycan danışıqlarda bütün dövr ərzində konstruktivlik nümayiş etdirmişdir. Çalışacağıq ki, bütün imkanlardan istifadə edib tezliklə öz ərazi bütövlüyümüzü bərpa edək.

Siz, dünyada yaşayan azərbaycanlılar yaxşı bilirsiniz ki, Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız o ərazilərdə yaşamışdır, yaratmışdır. Ermənilər o əraziyə qonaq kimi gəlmişlər. Biz onların Dağlıq Qarabağa gəlməyinin tarixçəsini də yaxşı bilirik. Vaxtilə 1978-ci ildə ermənilər tərəfindən Dağlıq Qarabağda onların Dağlıq Qarabağa köçürülməsini əks etdirən abidə ucaldılmışdır. Müharibənin ilk illərində ermənilər o abidəni dağıtmışlar. Ancaq tarixi dəyişdirmək mümkün deyildir.

Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik

ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi iddia etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin. Halbuki hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır. Məsələnin həlli üçün, əlbəttə, bütün amillər nəzərdən keçirilməlidir. Tarix bəllidir. Bu bizim torpağımızdır, nəinki Dağlıq Qarabağ və digər bölgələr. Beynəlxalq hüquq normaları tam şəkildə bizim mövqeyimizi müdafiə edir. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının verdiyi bəyanatda da Helsinki Yekun Aktına istinad edilir. Helsinki Yekun Aktında açıq-aydın göstərilir ki, ərazi bütövlüyü prinsipləri xalqların öz müqəddəratını müəyyən etmək prinsipləri ilə ziddiyyət təşkil etməməlidir. Beləliklə, hüquqi cəhətdən də mövqeyimiz güclüdür. İqtisadi cəhətdən indi Ermənistan ilə Azərbaycan müqayisə edilə bilməz. Bu tam başqa, necə deyərlər, çəki dərəcələridir. Siyasi proseslərə təsir imkanları baxımından da Azərbaycan daha əlverişli mövqedədir. Çünki həm coğrafi baxımdan, həm gördüyümüz işlər, infrastruktur, enerji siyasəti, bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və Azərbaycanın rolu əlbəttə ki, siyasi cəhətdən də çəkimizi daha da artırır. Mən şübhə etmirəm ki, bütün bu amillər, üstəgəl Azərbaycan Ordusunun güclənməsi nəticəsində biz Dağlıq Qarabağ münaqişəsini həll edə biləcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bərpa ediləcəkdir.

Əziz dostlar, əziz həmvətənlər, bir daha sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Mən əminəm ki, Vətənə gəlməyiniz sizin üçün çox xoşdur. Bakının müasir görkəmi də əminəm ki, sizə çox xoş təəssürat bağışlayır. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakı bizim paytaxtımızdır, sevimli şəhərimizdir. Şəhərimizin gələcək inkişaf planları da vardır. Əminəm ki, hər dəfə Bakıya gələndə siz şəhərimizin yeni, gözəl guşələri ilə tanış olacaqsınız. Bu fürsətdən istifadə edərək istərdim ki, Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti ilə bağlı fikirlərimi sizinlə bölüşüm.

Birinci növbədə qeyd etməliyəm və çox şadam ki, dünyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları artıq tam formalaşıb. Birinci qurultaydan keçən dövrdə, yəni 10 il ərzində böyük işlər görülübdür, təşkilatların sayı artıbdır. Beş il əvvəl 336 diaspor təşkilatımız var idisə, hazırda onların sayı 416-ya çatıbdır. Bu, çox vacibdir. Ancaq eyni zamanda, kəmiyyət bu məsələ ilə əlaqədar bəlkə də həlledici rol oynamır. Mən çox şadam ki, diaspor təşkilatlarımız keyfiyyət baxımından da güclənir, onların fəaliyyəti daha da məqsədyönlüdür, daha da təsirlidir. Müxtəlif ölkələrdə bizim diaspor təşkilatları tərəfindən keçirilmiş aksiyalar onu göstərir ki, istənilən yerdə təşkilatlarımız öz fikrini, öz etirazını, yaxud da ki, öz dəstəyini göstərə bilərlər. Bu, çox mühüm amildir. Mən çox şadam ki, bu gün dünyada fəaliyyət göstərən diaspor təşkilatları yeni səviyyəyə qalxıbdır. Bu təşkilatlar arasında koordinasiya işlərinin aparılması əlbəttə ki, onların fəaliyyətini daha da gücləndirir. Mən hesab edirəm ki, diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə bütün Azərbaycan icmasını birləşdirməlidir. İdeal variant ondan ibarət ola bilər ki, hər bir azərbaycanlı diaspor təşkilatlarına üzv olsun, onların tədbirlərində iştirak etsin, öz dəstəyini versin, öz köməyini göstərsin və eyni zamanda, diaspor təşkilatları tərəfindən də lazım olanda kömək görsün. Bunu etmək üçün bu təşkilatlar daha da güclü olmalıdır. Mən hesab edirəm ki, ən vacib amillərdən biri diaspor təşkilatlarının birliyidir. Bəzi hallarda bir ölkədə bir neçə diaspor təşkilatı fəaliyyət göstərir, böyük ölkələrdə əlbəttə ki, onların sayı onlarladır. Əksər hallarda cəmiyyətlər

arasında əlaqələr sağlamdır. Ancaq elə hallar var ki, orada müəyyən ziddiyyətlər, müəyyən problemlər, anlaşılmazlıq ortaya çıxır. Mən çox xahiş edirəm ki, əgər belə bir hal varsa, buna son qoyulsun. Çünki biz ölkə daxilində də, xaricdə də bir yerdə olmalıyıq. Birlik bizi gücləndirir. Birlik olmasa, biz güclü ola bilmərik. Bu aksiomadır. Ona görə hesab edirəm ki, diaspor təşkilatlarının fəaliyyətinin inkişafı üçün biz birliyi tam şəkildə təmin etməliyik. Eyni zamanda, hazırda Azərbaycanın dünyadakı daimi və diplomatik nümayəndəliklərinin sayı da artmaqdadır. Keçən qurultay zamanı bizim 46 səfirliyimiz və konsulluğumuz var idi. Hazırda onların sayı 65-ə çatmışdır. Yaxın zamanlarda 8 ölkədə yeni səfirlik və konsulluğun açılışı nəzərdə tutulur. Bu, əlbəttə ki, ilk növbədə Azərbaycan dövlətinin qüdrətini göstərir. Yəni, onu göstərir ki, biz bütün dünya ilə əməkdaşlıq edirik və hazırda 65-dir və 73-ə çatanda əlbəttə ki, dünya miqyasında elə vacib ölkə qalmayacaq ki, orada səfirliyimiz olmasın.

Səfirliklərlə diaspor təşkilatları arasındakı əməkdaşlıq daha da güclü, daha da məqsədyönlü olmalıdır. Mən bu alqışları eşidirəm və görürəm ki, nə demək istədiyimi siz də yaxşı başa düşürsünüz. Mən çox dərinə getmək istəməzdim, amma bəzi hallarda səfirliklərlə diaspor təşkilatları arasında olan ziddiyyətlər məni çox incidir. Biz buna yol verməməliyik. Səfirlik Azərbaycan dövlətinin bir parçasıdır, Azərbaycan dövlətinin rəsmi nümayəndəliyidir, Azərbaycan dövlətinin xarici ölkələrdə simvoludur. Biz elə etməliyik ki, səfirliklərlə diaspor təşkilatları arasında daim mehriban münasibətlər olsun. Əgər hər hansı bir problem, anlaşılmazlıq, yaxud da ki, narazılıq varsa, o, dərhal öz həllini tapmalıdır. Yəni, hərə bir tərəfə, öz küncünə çəkilməməlidir ki, biz sonra müdaxilə edək və vəziyyəti normallaşdırmağa çalışaq. Onlar özləri bir-birinə hörmətlə yanaşmalıdırlar, bir-birinin fəaliyyətini dəstəkləməlidirlər, çünki bizim bir Vətənimiz var - Azərbaycan dövləti. Hər bir Azərbaycan vətəndaşı çalışmalıdır ki, onun dövləti haqqında müsbət imic formalaşsın, xalqı haqqında reallığı əks etdirən bir təəssürat yaransın. Əgər xarici ölkə vətəndaşları görsə ki, azərbaycanlılar xaricdə bir-biri ilə yola getmirlər, yaxud da ki, bir-birinin əleyhinə iş aparırlar, istər-istəməz onlarda ölkə haqqında, xalqımız haqqında düzgün olmayan təəssürat yarana bilər. Ona görə də mən sizdən xahiş edirəm ki, əgər bu vaxta qədər, indi kimin səhvindən nə olub olub, onu gərək qoyaq kənara, o səhifəni bağlayaq. Bundan sonra diaspor təşkilatları və səfirliklər bir komanda şəklində, bir yumruq kimi işləməlidirlər və Azərbaycanın nə qədər gözəl ölkə olduğunu yaşadıqları ölkənin vətəndaşlarına birgə çatdırmalıdırlar.

Yenə də demək istəyirəm ki, əksər hallarda biz səfirliklərlə diaspor təşkilatları arasında çox gözəl əməkdaşlıq edirik. Ancaq dediyim kimi, elə hallar da var və əminəm ki, bu qurultaydan sonra bu məsələlər də yoluna qoyulacaqdır.

Diaspor təşkilatlarının fəaliyyəti, eyni zamanda, erməni lobbisinin Azərbaycan əleyhinə apardığı çirkin kampaniyaya qarşı tutarlı bir cavabdır. Sirr deyil ki, müstəqilliyimizin ilk illərində bizim nə böyük maliyyə imkanlarımız var idi, xaricdə yaşayan azərbaycanlılar da o vaxt hələ təşkilatlanmamışdılar. Ancaq hazırda bütün ölkələrdə diaspor təşkilatlarımız erməni təbliğatına qarşı Azərbaycan reallıqlarını ortaya qoyurlar. Mən bu hərəkətləri, bu siyasəti alqışlayıram və bizim diaspor təşkilatlarının üzvlərinə bu fədakar və çox gözəl missiyaya görə minnətdarlığımı bildirmək istəyirəm. Biz çalışmalıyıq ki, Azərbaycan haqqında reallıqları bütün dünyaya bildirək. Bizə qarşı dünyada erməni lobbisi fəaliyyət göstərir. Bizə qarşı mübarizə aparır. Onların təsir

dairəsində olan bəzi siyasətçilər, bəzi mətbu orqanlar, bəzi ictimai qurumlar Azərbaycana qarşı kampaniya aparırlar - ləkələmə kampaniyası, Azərbaycan reallıqlarını təhrif etmək üçün uydurmalar, düzgün olmayan faktlar yayırlar, yalanlar, böhtanlar yağdırırlar.

Azərbaycan dövləti özünü qoruyur və qoruyacaqdır. Ancaq mən çox şadam ki, diaspor təşkilatlarımız da nəinki erməni lobbi təşkilatlarına tutarlı cavab verir, eyni zamanda, onlar özləri orada Ermənistana qarşı çox ciddi və real faktlar əsasında qurulmuş təbliğat işləri aparırlar. Mən xaricdə çalışan səfirlərimizlə görüşlərdə həmişə demişəm və bu gün də demək istəyirəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır. Bizim diplomatiyamız müdafiə, özünümüdafiə xarakteri daşımamalıdır. Hücum diplomatiyamız nəticə verir. Xüsusilə nəzərə alsaq ki, Ermənistan-Azərbaycan münaqişəsində haqlı tərəf və zərər çəkən tərəf bizik, əlbəttə, arqumentlərimiz daha da ciddidir və daha da tutarlıdır. Hesab edirəm ki, növbəti dövrdə də erməni lobbisinə qarşı bütün dünyada mübarizəmizi davam etdirməliyik, onların yalanlarını ifşa etməliyik, Azərbaycan həqiqətlərini təbliğ etməliyik və Azərbaycan reallıqlarını olduğu kimi təqdim etməliyik. Müxtəlif konfranslar, simpoziumlar, “dəyirmi masa”lar keçirilir. Mən bunu alqışlayıram. Qəzetlər buraxılır. Hesab edirəm ki, qəzetlərin sayı daha da çox olmalıdır və mütəmadi qaydada xaricdə Azərbaycan dilində qəzetlər buraxılmalıdır. O ölkələrin dillərində qəzetlər, jurnallar buraxılmalı, təbliğat xarakterli materiallar nümayiş etdirilməlidir. Biz indi internet dövründə yaşayırıq və Azərbaycanda internet azaddır. Bu da çox vacib bir məsələdir. Heç bir məhdudiyyət yoxdur. Azərbaycanda internet istifadəçilərinin sayı 50 faizə çatmışdır. Bəzi hallarda yenə də erməni təbliğatı nəticəsində, yaxud da ki, erməni lobbisinin təsiri altında olan bəzi riyakar siyasətçilər tərəfindən Azərbaycanda guya mətbuat azadlığının olmaması haqqında fikirlər eşidirik. Necə ola bilər ki, azad internet olan ölkədə, internet istifadəçilərinin sayı 50 faiz olduğu təqdirdə, bütün azad mətbuat mövcud olduğu təqdirdə bizə desinlər ki, burada mətbuat azad deyil. Yəni, internet dövründə biz bu imkanlardan da istifadə etməliyik. İnternet saytları açılmalıdır. Azərbaycan xalqının tarixini, mədəniyyətini, Azərbaycanın bugünkü reallıqlarını, siyasətini əks etdirən çoxsaylı saytlar yaradılmalıdır və Azərbaycanın dövlət qurumları bu işlərdə də öz köməyini göstərməlidirlər. Mən artıq müvafiq göstərişlər vermişəm. Yəni, bir sözlə, biz çalışmalıyıq ki, xaricdə özümüzü olduğu kimi təqdim edək. Bu işdə daha da böyük uğurlar əldə etmək mümkündür. Bununla bərabər, mən hesab edirəm, - bəzi hallarda biz artıq bunu görürük, - xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız o ölkələrin daxili siyasətinin amilinə çevrilməlidir. Artıq bunun vaxtı gəlib çatıb. Həm ölkəmizin inkişafı, həm diaspor təşkilatlarımızın güclənməsi qarşımızda indi belə imkanlar açır. Soydaşlarımız - azərbaycanlılar yaşadıqları ölkələrdə dövlət, hökumət qurumlarında təmsil olunmalıdırlar. Onların sayı da bəzi hallarda buna imkan verir. Qanunvericilik orqanlarında təmsil olunmalıdırlar. Bunu etmək üçün azərbaycanlılar arasında qarşılıqlı dəstək və birlik daha da güclü olmalıdır. Mən hesab edirəm ki, bu, realdır. Ümid edirəm ki, biz növbəti qurultaya qədər artıq bu barədə də yaxşı xəbərlər eşidəcəyik. Bu həm orada yaşayan azərbaycanlılar üçün bir dəstək olacaq, dayaq olacaq, həm ölkəmiz üçün. Çünki xaricdə azərbaycanlılar nə qədər güclü olsa, dövlətimizin maraqları da o qədər müdafiə olunacaqdır. Nə qədər Azərbaycan güclü olsa, soydaşlarımız özlərini o qədər də əmin, rahat hiss edəcəklər. Ona görə də hesab edirəm ki, diaspor təşkilatlarının bütövlükdə və onların

üzvlərinin fərdi qaydada real siyasətə, real işlərə daha da fəal cəlb edilməsi çox arzuolunan bir məsələdir. Əlbəttə, siz daim Azərbaycan dövlətinin dəstəyinə arxalana bilərsiniz.

Bizim xaricdə yaşayan soydaşlarımızın müəyyən hissəsi kommersiya strukturlarında işləyir. Daha çox bizneslə məşğul olurlar. Onların kifayət qədər möhkəm iqtisadi dayaqları vardır. Biz bunu alqışlayırıq. Biz istəyirik ki, hər bir azərbaycanlı yaşadığı yerdən asılı olmayaraq, yaxşı yaşasın, zəngin olsun, imkanları geniş olsun. Mən çox şadam ki, xaricdə yaşayan soydaşlarımızın mütləq əksəriyyəti yaxşı yaşayır. Azərbaycandan xarici ölkələrə işləmək üçün gedən, yaxud da ki, uzun illər orada yaşayan soydaşlarımız aşağı səviyyəli işlərdə işləmirlər. Onlar ya biznes strukturlarında, ya da ali məktəblərdə elmlə məşğul olurlar. Biznes strukturları da kifayət qədər möhkəmdir. Bizim onlardan yeganə arzumuz ondan ibarətdir ki, ətrafda olan soydaşlara da kömək göstərsinlər.

Bununla bərabər, bu gün Azərbaycanın da, bayaq qeyd etdiyim kimi, iqtisadi imkanları genişlənir. Bizim investisiyalarımız indi nəinki Azərbaycanda, eyni zamanda, xarici ölkələrə də qoyulmağa başlamışdır. Bu da bizim strateji iqtisadi və siyasi addımlarımızdan biridir. İndi Azərbaycanın həm dövlət, həm də ki, özəl şirkətləri xarici ölkələrdə işləyirlər, kontraktları icra edirlər, investisiya qoyurlar. Bu investisiyalar bəzi hallarda yüz milyon, bəzi hallarda milyard dollarla ölçülür.

Azərbaycanın müvafiq dövlət strukturlarına, dövlət şirkətlərinə göstəriş verilmişdir və özəl şirkətlərə tövsiyə edilmişdir ki, çalışdığı ölkələrdə azərbaycanlıları daha da çox işlərə cəlb etsinlər. Bu proses başlanmışdır. Hesab edirəm ki, şirkətlərimiz xaricdə güclənən zaman orada yaşayan azərbaycanlılar bu işlərə daha da çox cəlb ediləcəklər. Burada söhbət təkcə azərbaycanlıları işə götürüb hansısa vəzifə verməkdən getmir. Xaricdə fəaliyyət göstərən şirkətlər Azərbaycan şirkətləri, dövlət şirkətləri tərəfindən icra edilən layihələrdə iştirak etməlidirlər. Podratçı, müqaviləçi kimi iştirak etməlidirlər. Onlar daha da çox pul qazanmalıdırlar. İstəyirəm, siz biləsiniz ki, dövlət və özəl şirkətlərə bu məsələnin diqqətdən kənarda qalmaması barədə göstəriş və tövsiyələr verilmişdir. Hesab edirəm ki, bu gün və sabah sizin hələ çoxlu görüşləriniz olacaqdır. Dövlət nümayəndələri ilə görüşləriniz olacaqdır. Bu məsələ daha da geniş müzakirə edilə bilər və müzakirə edilməlidir. Eyni zamanda, biz indi xaricdə Azərbaycan mədəniyyət evlərinin yaradılmasına başlamışıq. Bu yeni təşəbbüsdür. Aparıcı ölkələrin mərkəzi şəhərlərində Azərbaycan dövləti mülkiyyət almaq niyyətindədir. Orada həm Azərbaycan mədəniyyət evlərinin fəaliyyəti təşkil edilməlidir, eyni zamanda, Azərbaycan ticarət evləri də yaradılmalıdır. Göstəriş verilmişdir ki, paytaxt şəhərlərinin mərkəzi yerlərində, mərkəzi küçələrində Azərbaycan mərkəzləri yaradılmalıdır. Orada Azərbaycan məhsulları təqdim edilməlidir, satılmalıdır, digər təbliğat xarakterli materiallar yayılmalıdır. Yəni, bu, bizim planlarımızda var və bu ildən başlayaraq artıq bu proses icra edilməyə başlanmışdır.

Hesab edirəm ki, mütləq Azərbaycan diaspor təşkilatlarının imkanları da bu işlərdə öz rolunu oynamalıdır. Bu məsələ ilə bağlı Xarici İşlər Nazirliyinə, İqtisadi İnkişaf Nazirliyinə göstərişlər verilmişdir. Hesab edirəm ki, Diasporla İş üzrə Dövlət Komitəsi də bu işlərə qoşulmalıdır ki, biz bu işi maksimum səmərə və xaricdə yaşayan azərbaycanlıların maraqlarını təmin etmək şərti ilə həll edək. Bunun da həm orada yaşayan azərbaycanlılar, həm də bizim üçün böyük faydası olacaqdır.

Əziz dostlar, mənim sizə deyiləsi sözlərim çoxdur. Ancaq vaxt keçir. Mən istəmirəm ki, qurultayın cədvəlinə düzəlişlər edək. İstəyirəm öz çıxışımı yekunlaşdırım. Mən bir daha demək istəyirəm ki, xaricdə yaşayan azərbaycanlıların üçüncü qurultayı çox əlamətdar hadisədir. İlk növbədə, ona görə ki, yenə də biz bir yerə yığışdıq. Yenə də həm Azərbaycan xalqına, həm bütün dünyaya göstərdik ki, biz bir yerdəyik. Biz bir xalqıq, biz böyük xalqıq. Bu gün güclənən Azərbaycan bizim qürur mənbəyimizdir.

Mən əminəm ki, siz də Azərbaycanda gedən proseslərə yaxından bələd olan adamlar kimi, haqlı olaraq qürur hissi keçirirsiniz. Azərbaycan müstəqil ölkə kimi iyirmi il ərzində böyük yol keçmişdir - tam şəkildə azad, müstəqil, gözəl iqtisadi imkanlarla. Azərbaycanda insanlar təhlükəsiz şəraitdə yaşayırlar. Əmniyyət, təhlükəsizlik, ictimai-siyasi asayiş qorunur, bütün azadlıqlar vardır. Siyasi və iqtisadi aləmdə heç bir məhdudiyyət yoxdur. Regionda mövqelərimiz kifayət qədər möhkəmdir və tam əminəm ki, getdikcə bizim təsir imkanlarımız daha da artacaqdır. Bizim xaricdə yaşayan böyük ailəmiz vardır, bu, azərbaycanlılardır. Onlar öz doğma Vətəninə bağlı olan adamlardır. Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq. Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var - Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər.

Çıxışımı ulu öndər Heydər Əliyevin unudulmaz sözləri ilə yekunlaşdırmaq istəyirəm: “Biz hamımız fəxr edirik ki, biz azərbaycanlıyıq”.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİR QRUP İCTİMAİ XADİMƏ "DOSTLUQ" ORDENİNİ VƏ "TƏRƏQQİ" MEDALINI TƏQDİM ETMİŞDİR

*Heydər Əliyev Sarayı,*

*5 iyun 2011-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə təltif olunmuş bir qrup ictimai xadimə iyulun 5-də Heydər Əliyev Sarayında, Dünya azərbaycanlılarının III qurultayında fasilə zamanı "Dostluq" ordenini və "Tərəqqi" medalını təqdim etmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təltif barədə 2011-ci il 4 iyul tarixli Sərəncamı oxundu. Dövlətimizin başçısı Avropa Azərbaycanlıları Konqresinin prezidenti Başar Kömürə, Azərbaycan Universitetinin fəxri doktoru Ertan Demirtaşa, "Azİs" Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının prezidenti İosif Şaqala, Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Fondunun sədri Mehmet Akkan Suverə, Şimali Kipr Yaxın Doğu Universitetinin qurucu rektoru Suat Günselə, Rusiya Elmlər Akademiyasının akademiki Vladimir Kolesnikova "Dostluq" ordenini, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevaya isə "Tərəqqi" medalını təqdim etdi.

Rusiya Azərbaycanlı Gənclər Təşkilatının sədri, İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisi Leyla Əliyeva bu mükafata xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində göstərdiyi xidmətlərə görə layiq görülmüşdür. Mükafat alanlar Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinin yüksək qiymətləndirilməsi Prezident İlham Əliyevin diaspor quruculuğuna diqqət və qayğısının əyani göstəricisidir. Bu mükafat onları daha fəal olmağa, Azərbaycan həqiqətlərinin təbliği işinə yeni töhfələr verməyə ruhlandırır. Sonda xatirə şəkli çəkdirildi.

**DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ
NAZİM İBRAHİMOVUN
ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli qurultay nümayəndələri!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

İlk növbədə hər birinizi salamlayır və Azərbaycan xalqının tarixində əlamətdar hadisə olan Dünya azərbaycanlılarının III qurultayı münasibətilə təbrik edirəm.

Ulu öndər Heydər Əliyevin xidmətləri sayəsində doğma Azərbaycanın maraq və mənafeləri naminə xaricdə yaşayan həmvətənlərimizin birliyini təmin edən Azərbaycançılıq məfkurəsi yaranmışdır. Azərbaycançılıq milli özünüdərki sürətləndirmiş, yeni və müasir cəmiyyət quruculuğu prosesini stimullaşdırmış, müstəqil dövlətçilik ənənələri və həmrəylik ideyalarının milli şüurda öz yerini möhkəmləndirməsini təmin etmişdir.

On il bundan öncə bu möhtəşəm sarayda ümummilli liderin iştirakı ilə Dünya azərbaycanlılarının I qurultayı keçirilmişdir. Qurultay tarixi vətəndən kənarda məskunlaşmış azərbaycanlıların həyatında yeni bir mərhələnin əsasını qoymuş, soydaşlarımızın təşkilatlanmasını, yaşadıqları ölkələrin iqtisadi, mədəni və siyasi həyatında fəal iştirakını təmin etmiş, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm dəyişikliklərə səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirərək, mütəşəkkil diasporun və güclü lobbinin formalaşması məsələsini daim diqqət mərkəzində saxlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2006-cı il mart ayının 16-da keçirilmiş Dünya azərbaycanlılarının II qurultayında diaspor quruculuğu sahəsində qarşıda duran yeni vəzifələr müəyyən olunmuşdur. Azərbaycan Prezidentinin nitqindəki tövsiyə və tapşırıqlar Azərbaycan diasporunun yeni dövrdəki fəaliyyətinin ideoloji təməlini təşkil etmişdir.

Hörmətli həmvətənlər!

Dünya azərbaycanlılarının II qurultayından keçən dövr ərzində diaspor quruculuğu sahəsində görülən işlərin yekununu əks etdirən məruzənin tam mətni xüsusi kitab şəklində qurultay iştirakçılarına paylanılmışdır. Ona görə də icazənizlə, ötən müddət ərzində həyata keçirilmiş tədbirlər və fəaliyyətimiz haqqında ümumi məlumat verim.

Ötən dövr ərzində xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması prosesi daha da sürətlənmişdir. Hazırda dünyanın müxtəlif ölkələrində azərbaycanlıların 416 diaspor təşkilatı fəaliyyət göstərir. Həmin təşkilatların bir çoxu məhz II qurultaydan sonra təsis edilmişdir.

Təqdirəlayiq haldır ki, diaspor quruculuğuna xaricdə yaşayan azərbaycanlı ziyalılar, elm adamları, mədəniyyət və incəsənət xadimləri daha fəal qoşulmuşlar. Müxtəlif ölkələrdə yeni Azərbaycan icmaları təsis edilmiş, ayrı-ayrı cəmiyyətlərin vahid mərkəz ətrafında birləşdirilməsi istiqamətində tədbirlər görülmüşdür.

2008-ci ilin dekabrında Bakıda keçirilmiş Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantısında dünya azərbaycanlılarının birliyinin ideoloji, sosial-fəlsəfi, siyasi və mənəvi aspektlərini müəyyənləşdirən konseptual sənəd - “Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası” qəbul edilmişdir.

Əziz dostlar!

Ötən dövrdə soydaşlarımız tərəfindən yaradılmış internet saytları, müxtəlif sosial şəbəkələr, kütləvi informasiya vasitələrində xalqımızın məruz qaldığı haqsızlıqlar, terror və soyqırımı aktları, eləcə də ölkəmizdə gedən inkişaf prosesləri haqqında məlumatlar dünya ictimaiyyətinə çatdırılmışdır. Diasporun təbliğat sahəsində fəaliyyəti daha da təkmilləşdirilmiş və müasir dünyanın tələblərinə uyğunlaşdırılmışdır.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu müstəsna rol oynamışdır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Fondun həyata keçirdiyi layihələr Azərbaycan xalqının qədim tarixi, zəngin maddi-mədəni irsi haqqında məlumatların yayılmasında böyük əhəmiyyətə malik olmuşdur.

Azərbaycan icmaları fəaliyyət göstərdikləri ölkələrin ictimai- siyasi həyatında daha yaxından iştirak etmiş, dövlət orqanları, siyasi partiya və təşkilatlar, kütləvi informasiya vasitələri ilə əlaqələr qurmuşlar. Xarici ölkələrin nüfuzlu siyasət adamları, ictimai xadim və ziyalıları milli maraqlarımızın müdafiəsi işinə cəlb olunmuş, güclü Azərbaycan lobbisinin formalaşdırılması istiqamətində fəal iş aparılmışdır.

Azərbaycan diaspor təşkilatları türkdilli xalqların diasporları ilə əməkdaşlığını daha da genişləndirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2007-ci ilin mart ayında Bakı şəhərində keçirilmiş Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin 1 forumunda Azərbaycan və türk icmalarının birgə fəaliyyət strategiyası qəbul edilmişdir.

2007-ci ilin noyabrında Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkəmiz ikinci böyük beynəlxalq tədbirə - Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayına ev sahibliyi etmişdir. Bu tədbirlər Azərbaycan Respublikası Prezidentinin Türk dünyasının birliyinə verdiyi önəmin parlaq təzahürü kimi tarixə düşmüşdür.

Hörmətli qurultay iştirakçıları!

Fəaliyyətimizin əsas istiqamətlərindən biri də xaricdə yaşayan və təhsil alan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb edilməsi olmuşdur. Təqdirəlayiq haldır ki, gənclərimiz Azərbaycan həqiqətlərinin və zəngin mədəni irsimizin təbliği, milli- mənəvi dəyərlərimizin qorunması işinə layiqli töhfələrini vermişlər. “Azərbaycan Gəncliyi Dövlət Proqramı”na uyğun olaraq, 2010-cu il noyabr ayında Almaniyanın Frankfurt şəhərində keçirilən Dünya Azərbaycanlı Gənclərinin I Konqresi bu baxımdan xüsusilə mühüm əhəmiyyətə malik olmuşdur.

Ötən müddətdə Azərbaycan icmaları tərəfindən təşkil olunmuş müxtəlif mədəni-kütləvi tədbirlər xalqımızın zəngin mədəniyyətini tanıtmaq məqsədinə xidmət etmişdir. 2011-ci ildə Almaniyanın Düsseldorf

şəhərində keçirilən 56-cı "Avroviziya" Mahnı Müsabiqəsində Azərbaycan təmsilçilərinin qələbə qazanmasında xaricdə yaşayan soydaşlarımızın fəallığı da mühüm rol oynamışdır.

Əziz soydaşlar!

Bu gün diasporumuzun fəaliyyəti hücum taktikasına əsaslanır. İndi informasiya müharibəsində Azərbaycan işğalçı Ermənistandan daha güclü, çevik və sistemli fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev diasporumuzun fəaliyyətinə yüksək qiymət verərək demişdir: "Dünyanın istənilən yerində bizim nümayəndələrimiz istənilən aksiyanı keçirə bilərlər və keçirirlər. Biz hücum diplomatiyası aparırıq və resurslarımız da var - həm intellektual, həm də maddi resurslarımız. Ona görə təsadüfi deyil ki, son illərdə biz artıq erməni lobbisi ilə mübarizədə qalib gəlirik".

Hörmətli qurultay nümayəndələri!

Cənab Prezidentin də qeyd etdiyi kimi, diaspor işində bəzi nöqsanlar var. Biz cənab Prezidentin göstərdiyi istiqamətlər üzrə

fəaliyyətimizi davam etdirəcəyik. Söz veririk ki, Azərbaycan Prezidentinin tövsiyələrini yerinə yetirəcək, qeyd etdiyi nöqsanları aradan qaldıracağıq.

Dünya azərbaycanlılarının III qurultayı tamamilə yeni bir tarixi mərhələyə təsadüf edir. Azərbaycan dövlət müstəqilliyini daha da möhkəmləndirmiş, iqtisadiyyatın inkişafı, demokratik cəmiyyət quruculuğu, dünya birliyinə inteqrasiya sahəsində ciddi nailiyyətlərə imza atmışdır. Bu baxımdan, bizim bugünkü qurultayı iqtisadi və siyasi baxımdan daha qüdrətli Azərbaycan Respublikasında keçirilməsindən qürur duymağa əsasımız var.

Əminik ki, bu qurultay dünya azərbaycanlılarının daha sıx birləşməsini təmin edən mühüm qərarlar qəbul edəcək, Azərbaycan diasporumuzun tarixində yeni bir səhifə açacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

Sağ olun!

**QIRĞIZISTAN RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ AXMATBEK KELDİBEKOVUN ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli Prezident İlham Heydər oğlu!

Dünya azərbaycanlılarının qurultayının hörmətli nümayəndələri!

Sizə - Azərbaycan xalqına qırğız xalqından böyük salam gətirmişəm!

ilk növbədə, icazə verin, Dünya azərbaycanlılarının qurultayında iştirak etməyə dəvət olunduğum üçün minnətdarlığımı bildirim və Sizə, bu nüfuzlu forumun iştirakçılarına uğurlu iş, bütün qardaş Azərbaycan xalqına isə firavanlıq və sülh diləyim.

Bizim xalqlarımız böyük türk dünyasına mənsubdur və coğrafi baxımdan bir-birimizdən uzaq olmağımıza baxmayaraq, münasibətlərimizin tarixi zəngindir. Hələ 1924-cü ildə qırğız xalqının görkəmli oğulları K.Tınıstanov, İ.Arabayev, O.Bolobalayev və başqalarının daxil olduğu nümayəndə heyəti Şərqin türkdilli xalqlarının birinci qurultayında iştirak etmişdir. Sonrakı illərdə Azərbaycanın görkəmli oğul və qızları - Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Rəşid Behbudov, Sara Qədimova, Polad Bülbüloğlu dəfələrlə bizim ölkəmizdə olmuşlar.

Faciəli İkinci dünya müharibəsi illərində azərbaycanlıların xeyli hissəsi Qırğızıstana köçürülmüşdür. Qırğızıstanlılar onlara əllərindən gələn köməyi edirdilər: axırıncı bir tikə çörəyini, paltarını, evlərini fəlakətə düşmüş insanlara kömək etmək üçün onlarla bölüşürdülər. Bu kömək çox insanın həyatını qoruyub saxlamağa, o çətin illərdə köçkünlərin salamat qalmasına kömək etmişdir. İndi də 20 mindən çox azərbaycanlı bizim respublikanın tamhüquqlu vətəndaşı olaraq öz fədakar əməkləri ilə ölkənin inkişafına sanballı töhfə verirlər. Qırğızıstandakı “Azəri” İctimai Birliyinin prezidenti Akif Allahverdiyev, Qırğızıstan Respublikasının əməkdar həkimi Əzizağa Əliyev, Bişkek şəhərinin prokurorunun birinci müavini, Qırğızıstan Respublikasının əməkdar hüquqşünası Mirkazım Bəşirov, Bişkek şəhərinin baş stomatoloqu, əməkdar həkim Tahir Quliyev, əməkdar nəqliyyat işçisi Əli İskəndərov, milis polkovniki Qiyas Xəlilov və bu gün bu zalda nümayəndə kimi iştirak edən başqaları buna nümunə ola bilər.

Bir məsələni qeyd etməyə bilmərəm ki, 1995-ci ildə qırğız xalqının “Manas” eposunun min illiyi bayram edilərkən görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev başda olmaqla böyük nümayəndə heyəti bizə gəlmişdi. Heydər Əliyev çox məşğul olmasına baxmayaraq qırğız xalqına hörmət əlaməti kimi və iki türkdilli xalq arasında qardaşcasına dostluğun möhkəmlənməsi məqsədilə üç gün bizim dağlıq diyarda oldu, əfsanəvi “Manas”ın adı ilə bağlı bütün tarixi yerləri gəzdi. Qırğız xalqı bunu xatırlayır və Azərbaycan xalqının bu görkəmli oğlunu hörmətlə yad edir.

Bu da yaxşı yadımızdadır ki, 2008-ci ilin baharında bizim böyük mütəfəkkir və yazıçı Çingiz Torekuloviç Aytmatov postsovet məkanında birincilər sırasında Azərbaycanın yüksək mükafatı “Dostluq” ordeni ilə təltif edilmişdir. Bu mükafatı ona Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Heydər oğlu təqdim etmişdir.

Ölkələrimiz arasında indiki münasibətlərə gəldikdə, deyə bilərəm ki, bu münasibətlər sabit və səmimi xarakter daşıyır, bizim aramızda heç bir ciddi problem yoxdur. Biz beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq edirik, bir-birimizlə məsləhətləşir, bir-birimizi dəstəkləyirik.

Əlbəttə, ölkələrimizin mövcud potensialından heç də tam istifadə edilmir. Bu baxımdan hələ çox şey etmək olar və etmək lazımdır. Bizim parlament nümayəndə heyətinin Azərbaycana rəsmi səfərinin əsas məqsədi bundan ibarətdir. Biz möhtərəm Prezident İlham Heydər oğlu ilə, mənim həmkarım, Milli Məclisin sədri hörmətli Oqtay Əsədov və Baş nazir Artur Rasizadə ilə, xarici işlər naziri Elmar Məmmədyarovla səmimi görüşlər keçirdik. Bu görüşlərdə biz belə bir ümumi fikrə gəldik ki, ən yaxın perspektivdə ölkələrimiz arasında ticari-iqtisadi və mədəni- humanitar əməkdaşlığı kəskin şəkildə fəallaşdırmaq lazımdır.

Onda, heç şübhəsiz, bizim münasibətlər yeni və daha yüksək səviyyəyə çatacaqdır.

Bizim nümayəndə heyəti bərəkətli və firavan Bakıda rəsmi səfərdə olduğu dövrdə əyani şəkildə yəqin edə bilmişdir ki, Azərbaycan Respublikası sosial-iqtisadi inkişafda sanballı uğurlarını bütün dünyaya nümayiş etdirir. Fürsətdən istifadə edib, biz, qardaş Azərbaycan xalqına yeni uğurlar və firavanlıq, habelə xalqlarımız arasında dostluq və qarşılıqlı kömək münasibətlərinin daha da möhkəmlənməsini arzu etmək istərdik!

Diqqətinizə görə təşəkkür edirəm.

## GÜRCÜSTAN PREZİDENTİ MİXAEL SAAKAŞVİLİNİN QURULTAY İŞTİRAKÇILARINA TƏBRİK MƏKTUBU

*5 iyul 2011-ci il*

Kvemo-Kartli bölgəsinin qubernatoru David Kirkitadze Gürcüstan Prezidenti Mixael Saakaşvilinin qurultay iştirakçdarına təbrik məktubunu oxumuşdur:

Möhtərəm cənab Prezident!

Hörmətli Dünya azərbaycanlıları qurultayının iştirakçıları! Əziz dostlar!

Bütün gürcü millətinin, Gürcüstanın çoxetnik əhalisinin, Gürcüstan hökumətinin və şəxsən öz adımdan, Dünya azərbaycanlıları qurultayının iştirakçılarını salamlayıram və fəxr edirəm ki, mənim azərbaycanlı həmvətənlərim dünya azərbaycanlılarının qurultayında layiqincə təmsil olunublar.

Gürcü-Azərbaycan qardaşlıq ənənəsi əsrlərin sınağından keçmişdir. Bu qardaşlıq ənənələrinin inkişafında Gürcüstanda yaşayan azərbaycanlılar böyük rol oynamışlar və bu gün müasir gürcü dövlətinin etibarlı dayağı hesab olunurlar. Onların Gürcüstanın ən yeni tarixində və müasir siyasi proseslərdə, iqtisadiyyat və mədəniyyətdəki xidmətlərini xüsusi vurğulamaq istərdim.

Azərbaycan və Gürcüstan arasında mövcud olan böyük dostluq münasibətləri dünya siyasi arenasında strateji tərəfdaşlığın ən bariz nümunəsidir. Əminəm ki, Dünya azərbaycanlılarının III qurultayı ölkələrimiz arasında mövcud olan dostluq əlaqələrinin daha da dərinləşməsində önəmli rol oynayacaqdır.

Əziz dostum İlham!

Dünya azərbaycanlılarının III qurultayı münasibətilə ən səmimi təbriklərimi çatdırıram. İnanıram ki, Sizin bilavasitə rəhbərliyiniz altında Azərbaycan Respublikası və Azərbaycan xalqı daha da böyük nailiyyətlər əldə edəcək, ölkələrimiz arasında mövcud olan əlaqələr isə hər iki millətin firavanlığı naminə daha da dərinləşəcəkdir.

**Dərin hörmətlə,**

**Mixael Saakaşvili, Gürcüstan Prezidenti**

**TÜRKİYƏ RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA XARİCDƏ YAŞAYAN TÜRKLƏR VƏ QOHUM TOPLULUQLARLA İŞ ÜZRƏ BAŞQANLIĞIN SƏDRİ KAMAL YURTNAÇIN ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Dəyərli mətbuat nümayəndələri!

Bu gün burada, bizlərin də vətən olaraq qəbul etdiyi Azərbaycan torpağında sizlərlə bir yerdə olmaq və bu qurultayda iştirak etməkdən böyük bir sevinc hissi duyduğumuzu ifadə etmək istəyirəm.

Bu münasibətlə xüsusilə qardaş Azərbaycanın Prezidenti hörmətli İlham Əliyevə və bizləri bu qurultaya dəvət edən dəyərli Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimova və komitə əməkdaşlarına təşəkkür edirəm. Bütün iştirakçıları Türkiyə Dövləti və Türk milləti adından hörmətlə salamlayır və qurultayın işinə uğurlar arzulayıram.

Bu toplantının Azərbaycan diasporunu təmsil edən, dünyanın hər tərəfindən təşrif buyuran nümayəndələri tanımaq, onlarla fikir mübadiləsi aparmaq və birgə iş imkanlarını müzakirə etmək üçün mühüm bir fürsət təşkil edəcəyinə inanıram. 2010-cu ildə fəaliyyətə başlayan Türkiyə Nazirlər Kabineti yanında Xaricdə yaşayan Türklər və Qohum Topluluqlar üzrə qurumun Azərbaycan Diaspor Komitəsi ilə qarşılıqlı əməkdaşlığının bu toplantıdan sonra daha da genişlənəcəyinə səmimi qəlbdən inanıram.

2010-cu ilin fevralında İstanbulda hörmətli Baş nazirimiz Rəcəb Tayyib Ərdoğanın rəhbərliyində keçirdiyimiz və xaricdən 2500 qonağın iştirak etdiyi toplantı soydaş və qohum topluluqlarımızın görüşməsi üçün bir başlanğıc olmuşdur.

Dünya siyasətində eyni dili, eyni ortaq mədəniyyəti paylaşan ölkələrin bir-birini dəstəkləməsi, xalqların bir-birinə dəstək verməsi, qarşılıqlı anlayış və əməkdaşlığın davam etməsi bizim hədəfimizdir. Ortaq tarix, ortaq dil və mədəniyyət dəyərlərindən bəslənən ölkələrimiz arasındakı əlaqələr dünyada bənzəri olmayan birlik və bərabərliyi nümayiş etdirməyə imkan verir. Dövlətlərimizin rəhbərləri siyasi, iqtisadi, ictimai və mədəni əlaqələrimizin inkişafı üçün bu günə qədər bütün səyləri göstərmiş və heç şübhəsiz, gələcəkdə də göstərməyə davam edəcəklər.

Hamımızın müşahidə etdiyi kimi, dünyamızın dəyişən şərtləri, ölkələr arasındakı əlaqələrdə yeni bəzi ehtiyacları doğurmuşdur. Bu ehtiyacların təməlində diplomatik və təşkilatlararası əməkdaşlıqla yanaşı, vətəndaş cəmiyyəti təşkilatlarının və diaspor təşkilatlarının da bu əməkdaşlıq çərçivəsində hərəkət etmələri və ortaq hədəflər istiqamətində fəaliyyət göstərmələri durmaqdadır. Bu çərçivədə, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatları arasındakı əməkdaşlığın inkişaf etdirilməsinin də böyük əhəmiyyət kəsb etdiyinə inanıram.

Biz, dünyanın müxtəlif ölkələrində yaşayan vətəndaşlarımız kimi azərbaycanlı qardaşlarımızı da onların yaşadıqları ölkələr ilə bizim aramızda sülh və dialoq körpüləri olaraq görürük. Onların yaşadıqları ölkələrdə güclənmələri, ictimai, siyasi və iqtisadi cəhətdən daha effektiv vəziyyətə gətirilmələri həm Türkiyə, həm də Azərbaycana böyük fayda verəcəkdir.

Burada olan diaspor nümayəndələrinin qarşısında xüsusilə bəzi məqamlara toxunmaq istəyirəm. Bu məqamların təməlində, şübhəsiz, ölkələrimizə qarşı beynəlxalq sahədə davam etdirilən bəzi mənfi kampaniyalar durmaqdadır. Uzun illərdir sistemli şəkildə davam edən bu kampaniyaların öhdəsindən gəlməyin tək yolu bütün dünyanın həqiqətləri bilməsini təmin edəcək işlərin görülməsidir. Amerika Birləşmiş Ştatları və Avropada yaşayan Azərbaycan və Türkiyə diasporlarının ölkələrimiz əleyhinə işləyən mərkəzlərin iddialarına qarşı daha yaxın bir əməkdaşlıq etmələri lazımdır. Bu işlərin təməlində "qondarma" erməni iddialarına qarşı birgə işlər görmək və işğal altındakı doğma torpaqlarından didərgin düşmüş bir milyondan çox azərbaycanlının problemlərinə dünyanın diqqətini cəlb etmək olmalıdır.

Türkiyə Nazirlər Kabineti yanında Xaricdə yaşayan Türklər və Qohum Topluluqlar üzrə qurum kimi biz, Azərbaycanlı qardaşlarımızla əməkdaşlıq çərçivəsində birgə işlərdə iştirak etməkdən böyük məmnuniyyət hissi duyacağıq. Bu əməkdaşlığın qardaşlıq bağlarımızı daha da gücləndirəcəyinə və əleyhimizə fəaliyyət göstərənlərin səylərinin boşa çıxmasına dəstək olacağına inanıram.

Nitqimin sonunda başda Azərbaycan Prezidenti hörmətli İlham Əliyev olmaqla bu tədbirin ən gözəl şəkildə keçirilməsini təmin edən hər kəsə təşəkkür edir, qurultayın işinə uğurlar arzulayıram.

Sağ olun.

**ROSTOV DÖVLƏT DƏMİRYOLU İNSTİTUTUNUN REKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ AKADEMİKİ VLADİMİR KOLESNİKOVUN ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Möhtərəm Prezident!

Hörmətli qurultay iştirakçıları!

Hörmətli dostlarım!

Belə bir möhtəşəm qurultayda iştirak etmək mənim üçün böyük fəxrdir. Dəvətinizə və burada iştirak etdiyimə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin hörmət və təşəkkürümü bildirirəm. Qeyd etmək istəyirəm ki, əsl dostluq, qohumluğa bənzəyən bir məfhumdur və həyat artıq bunu sübuta yetirmişdir. Eyni zamanda müxtəlif xalqlar arasında çoxəsrlik dostluq əlaqələri bunu sübuta yetirir. Belə dostluq əlaqələri Azərbaycan və Rusiya xalqları arasında da mövcuddur. Mən özümə belə bir sual verirəm: "Daha hansı işləri görmək lazımdır ki, bizim xalqlarımız daha da sıx dostluq etsinlər?" bu suala cavab verərkən belə nəticəyə gəlirəm ki, mədəniyyət, elm, təhsil və hətta nəqliyyat və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar hələ çoxdur.

Azərbaycanda baş verən hadisələrə nəzər saldığımız zaman xatırlayıram ki, keçən il Bakıda keçirilən dini sammit zamanı Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan Şərqlə Qərb arasında təbii körpüdür. Azərbaycan bütün dünya üçün açıq olan bir dövlətdir və o əməkdaşlığa hər zaman açıqdır. Burada, Bakıda - Azərbaycan torpağında olduğum zaman mən başa düşürəm ki, bu doğrudan da belədir.

Bu gün bu qurultayın Azərbaycanda keçirilməsi doğrudan da sivilizasiyalar arasında real və effektiv körpünün yaradılmasına xidmət edir. Bu, mədəniyyətlər arasında diplomatik əlaqələrin yaradılmasıdır. Çünki sadəcə cənab Prezident və onun komandası tərəfindən deyil, eyni zamanda Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva tərəfindən də bu istiqamətdə mühüm işlər görülməkdədir. Qeyd etmək istəyirəm ki, biz çox fəal şəkildə bu Fondla əməkdaşlıq edirik və keçən il universitetimizdə - bizim Rostov torpağında Fondun dəstəyi ilə Rusiya və Azərbaycan arasında böyük bir dostluq forumu təşkil olunmuşdur. Burada Rusiya və Azərbaycandan olan mindən çox mütəxəssis iştirak etmişdir. Forum çərçivəsində Azərbaycan xalq yaradıcılığı festivalları, elmi konfranslar, bir sıra aksiyalar, alimlərin, elm və mədəniyyət xadimlərinin görüşləri təşkil olunmuşdur. Heydər Əliyevin Azərbaycan və Rusiya arasında humanitar və iqtisadi əlaqələrin genişləndirilməsinə olan töhfəsindən geniş şəkildə danışılmışdır.

Mən eyni zamanda Heydər Əliyevlə görüşümü çox böyük hörmətlə xatırlayıram. Heydər Əliyev hələ SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi zamanda SSRİ-nin nəqliyyat naziri ilə birlikdə onunla görüşmüşdük. Yadıma salıram ki, bu görüşlər hər zaman çox konstruktiv bir şəkildə keçirilirdi. O, hər zaman

adama diqqətlə qulaq asırdı, məsələnin məğzinə nüfuz etməyə çalışırdı və heç zaman vaxtının az olduğunu göstərmək istəmirdi. Mən açıq bir şəkildə keçirilən bu görüşləri heç bir zaman unutmuram.

Heydər Əliyev Fondu ilə birgə keçirdiyimiz forum zamanı biz Taqanroq yaxınlığındakı abidəyə əklil qoyduq. Bildiyiniz kimi, Azərbaycan diviziyası Böyük Vətən müharibəsi zamanı bu torpaqda vuruşmuşdur. Bu əklil məhz onların məzarına qoyulmuşdur. Qeyd etməliyəm ki, bu abidə Heydər Əliyevin bilavasitə iştirakı ilə tikilmişdir. Yadımdadır ki, 80-ci ilin 7 may tarixi idi. 30 ildən çox vaxt keçib. Çünki məhz həmin vaxt Vilayət Partiya Komitəsinin birinci katibi ilə birlikdə olanda yadımdadır ki, Heydər Əliyev tədbirdə necə iştirak etdi və necə gözəl bir nitq söylədi. Rostov sakinləri Azərbaycan oğullarına təşəkkür əlaməti olaraq göz yaşı tökürdü. Ondan sonra bir neçə dəfə mən SSRİ parlamentinin üzvü olmuşam. Yəni daha sonra dəfələrlə də görüşmək imkanım olub.

Hal-hazırda bizim Azərbaycanla çox böyük dostluq əlaqələrimiz vardır və mən sizinlə bir məsələni bölüşmək istəyirəm ki, biz gerçək canlı mədəniyyət, məsələn, mütəxəssislər, tələbələr mübadiləsi həyata keçirmək istəyirik. Elm və təhsil sahəsindən danışsaq, Rostov Dövlət Universitetinin Azərbaycanın dəmiryolu nəqliyyatı sahəsində mütəxəssislərin hazırlanmasında böyük təcrübəsi vardır. Biz fəxr edirik ki, bizim minlərlə məzunumuz Azərbaycanın dəmiryolu nəqliyyatı sahəsində çalışırlar. Mən çox sevinirəm ki, təxminən bir neçə gün bundan qabaq biz Azərbaycan Texniki Universiteti ilə əməkdaşlıq haqqında saziş imzalamışıq.

Və yenə də nəqliyyat barəsində bir-iki söz söyləmək istəyirəm. Biz bilirik ki, cənab İlham Əliyev tərəfindən nəqliyyata nə dərəcədə böyük diqqət göstərilir. Və bu gün biz hazırıq və planlaşdırırıq ki, Azərbaycan Dəmir Yollarının İnkişafı üzrə Dövlət Proqramında fəal iştirak edək.

Hörmətli qurultay iştirakçıları!

Hörmətli dostlarım!

Son zamanlar da mən Bakıda tez-tez oluram və daima təəccüblənirəm. Çünki şəhər həftələr, aylar ərzində elə sürətlə dəyişir ki, onu tanımaq olmur. Nəqliyyat mənə yaxın sahə olduğuna görə yolların çəkilməsi, körpülərin tikilməsi məni çox maraqlandırır. Bu fikirlərimə əsaslanaraq bildirmək istəyirəm ki, Bakı inkişafın simvoludur və daima investisiya və innovasiyalar üçün açıq olan bir şəhərdir.

Çıxışımın sonunu optimist bir notda - Azərbaycanın ümummilli lideri Heydər Əliyevin sözləri ilə tamamlamaq istərdim. Yadınızdadırım, o demişdi: - “Bilmirəm sabah nə olacaq, ancaq bir şeyi bilirəm, gələcək daha da yaxşı olacaq”.

Çox sağ olun.

**MOLDOVA RESPUBLİKASININ
QAQAUZ YERİ (MUXTAR ƏRAZİ VAHİDİ) BAŞQANI
MİXAİL FORMUZALIN
ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Dəyərli nazirlər, deputatlar, dostlar, qardaşlar!

Biz Moldovadan kiçik bir xalqın nümayəndəsi olaraq gəlmişik. Biz azıq, amma biz də varıq. Sizlərə isti münasibətinizə görə minnətdarlığımı bildirirəm.

İki xalq arasında ortaq tarixi əlaqələr mövcuddur. Bu əlaqələr 1920-ci ildə ilk qaqauz gəncin doktorluq dissertasiyasını Bakıda yazması ilə başlamışdır. 1990-cı ildən sonra qaqauz gəncləri Azərbaycandakı universitetlərdə təhsil almaq üçün Bakıya gəlməyə başladılar.

1994-cü ildə qaqauzlar Moldovada Qaqauz Yeri yaratdı. Bu məsələdə iki xalq, iki dövlət, iki prezident, iki dost - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Türkiyənin keçmiş prezidenti Süleyman Dəmirəlin yardımı olmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin iki xalq - qaqauz və Azərbaycan xalqı arasında dostluq əlaqələrinin qurulmasında xidmətləri böyükdür. O zaman türk dünyasından iki dövlət başqa türk xalqlarına dəstək olmaqla birlik nümayiş etdirdilər. 1994-cü ildə Qaqauz Yeri meydana gəldi. Bu gün biz qaqauzlar bunu unutmayacağıq. Biz adətlərimizi və dilimizi yüzillərlə qorumuşuq.

2005-ci ildə Moldova Respublikasında Azərbaycan Səfirliyi açılmışdır. İlk səfir İsfəndiyar Vahabzadə çox yaxın dostumuz oldu. Onunla yaxşı əməkdaşlıq etdik. Moldovada Azərbaycan diasporu və Azərbaycan Səfirliyi qaqauz xalqı və Moldovanın vətəndaşları ilə yaxşı əməkdaşlıq edir. Biz sizinlə bərabər olmaq üçün bu qurultayda iştirak etməyə qərar verdik. Bu tədbirə dəvət etdiyiniz üçün minnətdarlığımızı bildiririk. Bütün azərbaycanlı qardaşlarımızı qaqauza dəvət edirik.

Tədbirin təşkilatçılarına minnətdaram.

Sizə can sağlığı, uzun ömür və bərəkət arzulayıram.

Yaşasın Azərbaycan!

Yaşasın Azərbaycan xalqı!

## BELÇİKA SENATININ FƏXRİ PREZİDENTİ
## ANN MARİ LİZİNİN
## ÇIXIŞI

*5 iyul 2011-ci il*

Zati-aliləri!

Xanımlar və cənablar!

Bu gün bu möhtəşəm görüşdə sizlərə böyük fəxr hissi ilə avropalıların salamlarını çatdırıram. Avropa İttifaqının qarşısında bir çox çağırışlar var ki, bunlardan biri də bu ilin əvvəlindən başlayaraq genişlənən qonşuluq siyasətidir.

Sabitlik dəyişikliklərlə ziddiyyətdə.... çətin vaxtlardır. Aralıq dənizi qonşuları Avropa ilə bağlı tərəddüd keçirir və reallığı kəşf edirlər: Avropa stabilliyi dəyişikliklərdən daha çox sevir və məlum olan situasiyalara bəlli olmayan inqilablar dövründən daha yaxşı reaksiya verməyi bacarır.

Bu yaxınlarda məsul Avropa komissarı Füle ölkənin demokratik üsulla idarə olunmasını bu cür izah etmişdir: Vətəndaş cəmiyyətinə açıqlıq yeni dövrün çağırışlarından biri kimi ehtiyatla, cəmiyyətdəki müxtəlifliklərə hörmətlə və xaricdən təşkil olunmuş, xaosda maraqlı olan digər böyük dövlətlərin əlində oyuncaq olmaqdan çəkinməklə həyata keçirilməlidir. Avropalılar sizin ölkənizin modern, açıq və fəal, yaradıcı, mədəni və iqtisadi cəhətdən əsaslandırılmış dövlət quruculuğu yolunda səylərini izləyir və münaqişələrin sülh yolu ilə həll ediləcəyinə inanırlar.

Mən, hətta deyə bilərəm ki, II Dünya müharibəsindən 10 il sonra Almaniya və onun düşmənlərinin birləşməsi əsasında qurulan Avropa münaqişələrdən uzaq durur və sülh haqqında danışan insanları daha çox sevir.

Məhz bu, sizin ölkəniz qarşısında yerinə yetirəcəyiniz vəzifədir: addım-addım qurulan və münaqişənin sülh yolu ilə həllinə xidmət edən diaspor.

Kazan görüşündən sonrakı məyusluq və Böyük Səkkizlərin Dovildəki görüşü göstərdi ki, əgər Rusiya Federasiyası Ermənistanı problemin sülh yolu ilə həllinə inandıra bilmirsə, bu o deməkdir ki, birincisi burada Azərbaycanın heç bir mənfi rolu yoxdur, ikincisi Rusiya problemin həlli üçün həqiqi iradəyə malik deyil.

Lakin istənilən halda, Azərbaycan xalqı hər zaman problemin danışıqlar yolu ilə həlli əzmini nümayiş etdirməli və öz ölkəsinin müdafiəsinə hazır olduğunu göstərməlidir.

Böyük Səkkizliyin növbəti görüşü Rusiya prezidenti qarşısında yeni bir sual yaratmış olacaq: Sizin, Ermənistanın müqavimət göstərə biləcəyi dərəcədə zəif olmağınız mümkündürmü?

Bununla belə, Sizin ölkəniz bir daha öz sülhsevər mövqeyini nümayiş etdirməli, Avropa meyarlarına əsaslanan iqtisadi və enerji münasibətlərini gücləndirməli və uğurunun bir hissəsi olan diaspor fəaliyyətini davam etdirməlidir.

XXI əsrdə sizin başlıca rolunuz bundan ibarətdir: Avropa sizin nümunənizdə böyük potensiala malik bir respublikanı kəşf etməli və Qafqazın real tərəfdaşı olmalıdır.

**"AZİZ" AZƏRBAYCAN-İSRAİL
BEYNƏLXALQ ASSOSİASİYASININ PREZİDENTİ
İOSİF ŞAQALIN
ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Hər şeydən əvvəl tələffüzüm üçün üzr istəyirəm, çünki sonuncu dəfə otuz il öncə Azərbaycan dilində çıxış etmişəm.

Eyni zamanda, icazə verin, İsrail dövlətinin Azərbaycandan köçmüş 55 min vətəndaşı adından bu yüksək tribunadan çıxış etmək şərəfmə imkan yaratdıqlarına görə qurultay təşkilatçılarına öz minnətdarlığımı bildirim.

Çox sağ olun!

2007-ci ildə onlarla İsrail-Azərbaycan dostluq cəmiyyəti Beynəlxalq "İsrail-Azərbaycan" Assosiasiyasında birləşərkən, əslində qarşılarına bir məqsəd qoymuşlar: ərazisində 30 minlik yəhudi icmasının firavan yaşadığı, antisemitizmin olmadığı, azərbaycanlıların çörəklərinin sonuncu tikələrini qardaşcasına yəhudilərlə bölüşdürdükləri və bu torpaqda onların yad olduqlarının hiss etdirilmədiyi Azərbaycanın dost ölkə olmasını İsrail cəmiyyətinə izah etmək.

Hər halda - xeyirxahların...

Zaman və əməli nəticələr bizim arqumentlərimizin sadəcə vətənpərvərlik hissi deyil, həmçinin faktların dəqiq təsdiqi olmasına İsrail rəhbərliyini inandırdı. Nəticədə bu gün "Azərbaycan lobbisi" məfhumunun özü Azərbaycandan köçmüş yəhudi icmasının bütövlükdə İsrail-Azərbaycan münasibətlərinə Knessetdə, dövlət strukturlarında, cəmiyyətdə, kütləvi informasiya vasitələrində kompleks, tamamilə real və effektiv təsir alətidir.

İsrailin öz növbəsində bədnam erməni "soyqırımf'nı tanımamaqda indiki mövqeyini, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpasına və Amerika Konqresinin Azərbaycanı məhdudlaşdıran düzəlişlərinin ləğvinə çağırışını dünyanın nüfuzlu beynəlxalq yəhudi təşkilatları daha tez-tez dəstəkləyirlər.

Bu gün Azərbaycan Respublikasının İsrail Dövlətində nüfuzu heç zaman olmadığı qədər yüksəkdir. Düzdür, bu yalnız icmanın deyil, eləcə də birinci növbədə geopolitik meydanda Azərbaycanı güclü oyunçuya çevirmiş iqtisadi yüksəlişin çox böyük tempi və düşünülmüş xarici siyasətin xidmətidir.

İsrailə, həqiqətən, Azərbaycanla mehriban və stabil münasibətlər vacibdir. Bunu təsdiq etmək üçün əmtəə dövriyyəsi və ya dövlətlərarası münasibətlərin digər statistikasına istinad etməyəcəyəm, yalnız bir nümunə gətirəcəyəm. İsrail dünyada yeganə dövlətdir ki, orada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ad günü və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının ildönümləri İsrail Dövlətinin Parlamentində Knessetdə qeyd olunmuşdur.

Şübhəsiz ki, bizim münasibətlərimizdə hər şey ideal deyildir. Azərbaycan hələ də İsraildə öz səfirliyini açmamışdır, bəzən bizim münasibətlərimizə geopolitik faktorlar və regional konyukturalar mənfi təsir göstərir. Bizim ölkələrimizin həddən çox düşməni var ki, İsraillə Azərbaycan arasında strateji münasibətlərin olması onları qane etmir.

Bütün bunlara baxmayaraq, Azərbaycan xalqının görkəmli lideri Heydər Əliyevin bilavasitə yaranmasına səbəb olduğu irimiqyaslı layihələr, İsraillə Azərbaycan arasındakı dövlətlərarası əməkdaşlığın 20 il ərzində fasiləsiz və effektlə işləyən stabil və pozitiv mexanizmidir.

Əsasını Heydər Əliyevin qoyduğu bu prosesi İsrail Dövlətində çox gözəl başa düşür və qiymətləndirirlər. Bir il əvvəl Xadera şəhərinin mərkəzi parkı onun adı ilə adlandırılmış, bu parkda gələcəkdə Heydər Əliyevin abidəsinin qoyulacağı yerə Azərbaycandan köçmüş yəhudi icmalarının nümayəndələri memorial daşın bünövrəsini qoymuşlar.

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mənim 62 yaşım var. Həyatımın ilk 40 ilini mən Bakıda yaşamışam, son 22 ili İsraildə yaşayıram. Taleyin rəhmsizcəsinə dünyanın hər guşəsinə səpələdiyi həmvətənlərim kimi mən də bu torpaq üçün çox darıxıram. Mənim şüurumda, düşüncəmdə eyni vaxtda iki Bakı yaşayır. Biri mənim uşaqlıq və gəncliyimin şəhəridir, dar küçələri, Sahil bulvarı, "Nərgiz" kafesi, Kubinkası ilə.

Bu şəhər hər gecə mənim yuxularıma girir.

İkinci Bakı - XXI əsrin tamamilə yeni və çox gözəl bir meqapolisidir ki, buraya mən xarici qonaq kimi gəlirəm, burada məni İsrail Dövləti Parlamentinin Azərbaycanda doğulmuş ilk deputatı kimi rəsmi qəbul etmişlər.

Mən nə vaxtsa bu şəhərə İsraildə anadan olmuş nəvələrimi gətirməyi arzulayıram.

Birinci Bakını mən sevirəm, ikinciyə heyranam.

Təəssüf ki, "Vətən" isminin cəm şəkli yoxdur. Çox gözəl başa düşürəm, atamı Azərbaycan, anamı isə İsrail torpağında dəfn edib uzun illərdir ki, Bakı ilə Təl-Əviv arasında parçalanmışam.

Lakin bu gün mən heç zaman söyləmədiyim bir sözü deyəcəyəm: Mənim Vətənim, mənim sevgim, mənim dinim hamısı bir simada - bu Bakıdadır.

Bakı mənim həyatımda ilk və son sevgimlə qarşılaşdığım məkandır.

Mənə ən sadiq və etibarlı dostlar da bəxş edən Bakıdır.

Mənim dünyada ən gözəl peşədə özümü tapmağıma kömək edən Bakıdır.

Yəhidi və vətəndaş kimi mən hər an düşünmədən belə İsrail üçün həyatımı verərəm.

Lakin İsrail üçün ölərkən mən Bakı haqqında düşünəcəyəm.

Çox sağ olun.

**TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPU**
**STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR FONDUNUN SƏDRİ**
**AKKAN SUVERİN**
**ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Möhtərəm cənab Prezident!

Hörmətli Dünya azərbaycanlılarının III qurultayının iştirakçıları!

Dünyanın dörd bir tərəfindən Bakıya gələrək bu gün bu salonu şərəfləndirən siz dəyərli iştirakçıları Mərmərə Qrupu Vəqfı adından hörmətlə salamlayıram.

Əvvəlcə böyük dövlət xadimi Heydər Əliyev tərəfindən təməli qoyulan, daha sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə hər keçən gün bir az daha zənginləşən və sizlərin bir araya gəlməsi ilə reallaşan bu böyük fəlsəfə bu gün üçüncü dəfə yalnız Azərbaycana deyil, Dünya Türklüyünə haqlı bir qüruru yaşatmaqdadır.

Biz çox xoşbəxtik ki, yüksək dəvətinizlə biz də bu qürurdan pay almışıq.

Möhtərəm iştirakçılar, arxada qoyduğumuz iyirmi ildə sonsuz örnəklərlə inkişaf etmiş Azərbaycanın yol xəritəsini Azərbaycanın böyük övladı Heydər Əliyev uzaqgörənliklə müəyyən etmişdir. Bu yol xəritəsi Azərbaycanı bölgədə və dünyada qəbul edilən dövlətlər arasına çıxarmışdır.

Qafqaz coğrafiyasında Azərbaycanın sahib olduğu dəyərlərə sahib başqa bir ölkə yoxdur. Azərbaycan cəmiyyəti geridə qalan illər ərzində çox dinamik bir proses keçmişdir. Müstəqilliyin əldə edilməsi, qorunması və dövlətçilik ənənələrinin formalaşmasının Heydər Əliyevin dahi şəxsiyyəti sayəsində həyata keçdiyi hamımıza məlumdur. Onun liderlik təcrübəsi və intellektual potensialı Azərbaycanı birləşdirmiş, dünya millətləri cəmiyyətində müasir səviyyəyə gətirmişdir. Onun fəlsəfəsində hər şey, Azərbaycanı inkişafa aparacaq doğru yolu müəyyən etməklə formalaşmışdır. Bu doğru yol azərbaycanlıların birlik və bərabərliyini özünə məqsəd seçmişdir.

Məhz bu məqsədlə həyata keçirilən Dünya azərbaycanlılarının qurultayı dünyada yaşayan azərbaycanlıların yalnız birliyini təmin etmək məntiqinə söykənməmiş, eyni zamanda, milli şüurun və milli ənənələrin qorunması və yaşadılmasını hədəf seçmişdir.

Heydər Əliyev Azərbaycanda ictimai və texnoloji dəyişiklikləri həyata keçirərkən milli-mədəni dəyərlərin qorunmasını, sosial sabitliyi və insan haqlarını təmin etmək, iqtisadi inkişaf və sosial ədalətə nail olmaqla yanaşı, dünyada yaşayan azərbaycanlıların inteqrasiya olunmasını da arzu etmişdir.

Fikrimcə, Dünya azərbaycanlılarının qurultayının ortaya qoyduğu fəlsəfə budur. Bu fəlsəfə dünyada yaşayan azərbaycanlılara üç böyük məsuliyyət gətirir:

Əvvəla, azərbaycanlı qardaşlarımızın yaşadıqları xarici ölkələrdə inteqrasiya prosesində bərabər hüquqlara sahib bir şəxsiyyət olaraq Azərbaycanlılıq şüuru ilə milli varlıqlarını qorumalıdırlar.

İkincisi, Azərbaycanın demokratik inkişafına, iqtisadiyyatın modernləşməsinə əlindən gələn töhfəni vermək üçün yaşadıqları ölkələrdə fəal iş aparmalıdırlar.

Nəhayət, azərbaycanlılar məskunlaşdıqları yerlərdə fiirsət tapdıqca ölkənin təbii sərvətlərini, etnik tarixi və coğrafi xüsusiyyətlərini təbliğ etməli və yaşatmalıdırlar.

Bütün bunlar şüurlu və planlı bir davranışla reallaşdırılmalıdır. Dünya azərbaycanlılarının qurultayının həyata keçirilməsi fəlsəfəsi özlüyündə bu məqsədlərə xidmət edir.

Bu fəlsəfə özünü doğrultmuşdur. Bu fəlsəfə yalnız Azərbaycanın deyil, dünya türklüyünün də düşüncə coğrafiyasına rəhbərlik etməkdədir.

Başda ulu öndər Prezident Heydər Əliyev və onun fikirlərinin davamçısı Prezident İlham Əliyev olmaqla bu fəlsəfənin formalaşmasında, yaşamasında zəhməti olmuş bütün şəxslərə bir türk olaraq, Türklük adından buradan təşəkkürlərimi və minnətdarlıqlarımı çatdırıram.

Yenə bizləri bu ülvi fəlsəfənin yaşandığı bu salona dəvət edən və bizə unudulmaz bir qonaqpərvərlik göstərən Azərbaycanın bütün aidiyyəti şəxslərinə ayrı-ayrılıqda şəxsən öz adımdan və yoldaşlarım adından təşəkkürlərimi bildirirəm.

Sizləri dərin hörmətlə salamlayıram.

**ŞİMALİ KİPR YAXIN DOĞU UNİVERSİTETİNİN REKTORU SUAT GÜNSELİN ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli Prezident!

Hörmətli nazirlər, hörmətli deputatlar!

Dünyanın hər yerindən gəlmiş azərbaycanlı qardaşlarım!

Dəyərli mətbuat nümayəndələri!

Dünya azərbaycanlılarının III qurultayına dəvətinizə görə başda Prezident olmaqla bütün hər kəsə səmimi qəlbdən təşəkkür edir, sevgi və hörmətimi bildirirəm.

Şimali Kipr insanının ürəyində Azərbaycana xüsusi sevgi və hörmət vardır. Son illərdə Azərbaycanın sürətli iqtisadi inkişafı, böyük layihələrin həyata keçirilməsi, demokratik və tolerant bir mühitin olması bizi son dərəcə sevindirir.

Hörmətli Prezident və dəyərli tədbir iştirakçıları, icazə verin, universitetimiz və Azərbaycanla olan əlaqələrimiz haqqında sizə məlumat verim.

Dünya Universitetlər Birliyi (DUB), Avropa Universitetlər Birliyi (AUB), İslam Dünyası Universitetlər Federasiyası (İDUF), Türkiyənin Yüksək Öyrətim Qurumu (YÖK), Beynəlxalq Mühəndislik Təhsil Təşkilatı (BMTT) və Beynəlxalq Seçmə Tibbi Qeydiyyat Qurumu (BSTQQ) tərəfindən qeydiyyatdan keçən universitetimiz Orta Şərqdə ən böyük universitetlərdən biridir. Dünyanın 55 ölkəsindən 18 min tələbəsi olan, dünya standartlarına uyğun sosial və idman kompleksləri, beynəlxalq qeydiyyatı olan diş poliklinikası və xəstəxanası, gündə 24 saat və həftənin 7 günü açıq olan kitabxana və kompüter otaqları olan dünyanın iyirmi səkkiz universitetindən on üçüncüsüdür.

İngilis və türk dillərində 80 ixtisas olan universitetimizdə Lefkoşa şəhərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin təklifi ilə 2005ci ildən azərbaycanlı gənclər üçün güzəştli (50 faiz endirimlə) təhsil sistemi və Azərbaycanın Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) imtahanlarından minimum 550 bal toplayanlar üçün isə ödənişsiz təhsil (təhsil və yataqxana xərcləri universitetimiz tərəfindən ödənir) həyata keçirilir. Bu gün universitetimizdə təxminən 200-dən çox azərbaycanlı tələbə yarı təqaüdlə, 30-dan çox tələbə tam təqaüdlə təhsil almaqdadır. Bu il universitetimizdə ANS televiziyasında yayımlanan “Ağıl dəryası” bilik yarışması verilişinin hər qalibinə Azərbaycanın təhsil naziri Misir Mərdanovla bərabər tam təhsil təqaüdü verilməsi haqqında sertifikatlar və universitetimizə qəbul olunmaq haqqında sənədlər təqdim edilmişdir.

Gürcüstanda yaşayan azərbaycanlı qardaşlarımızın vəziyyətini nəzərə alaraq, 2010-cu ildən bakalavr və magistratura proqramında təhsil almaq üçün Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi ilə imzalanmış Protokol çərçivəsində 25 tələbə universitetimizdə tam təqaüd almaq şərti ilə təhsil alır. Protokolun şərtlərinə görə universitetimizdən məzun olanlar Gürcüstana geri dönməlidirlər.

Universitetimizdə 2009-cu il mayın 28-dən 3-dək türk dünyasının fəxri olan Məhəmməd Füzuliyə həsr olunmuş "Füzulinin türk mədəniyyət və sənət dünyasında yeri" və 2010-cu ilin oktyabrında isə ""Kitabi- Dədə Qorqud" və keçmişdən gələcəyə türk dastanları" adlı beynəlxalq simpoziumlar keçirilmişdir. Universitetimizin maliyyə dəstəyi ilə bu simpoziumlarda Azərbaycandan gələn elm adamları da iştirak etmişlər. Simpoziumlarda Azərbaycanın görkəmli elm xadimləri, yazıçılar, professorlar, Anar Rəsulov, Kamal Abdullayev, akademik Ağamusa Axundov olmaqla 20-dən çox azərbaycanlı elm adamı iştirak etmişdir.

Azərbaycanın tarixi günləri ilə bağlı olan və Azərbaycan Mədəniyyət Mərkəzinin təşkil etdiyi bütün tədbirlər universitetimiz tərəfindən dəstəklənmiş və bir çox tədbirlər birgə təşkil olunmuşdur.

Hazırda universitetimizdə 10-dan çox azərbaycanlı professor işləyir. Bunların içində prorektor, dekanlar və fakültə rəhbərləri kimi mühüm vəzifə tutanlar vardır.

Azərbaycan universitetləri ilə olan əməkdaşlığımız, azərbaycanlı tələbələrə istiqamətlənmiş təqaüd siyasətimiz və Azərbaycan ilə təcrübə mübadiləsi bundan sonra daha da genişlənərək əsas məqsədlərimizdən biri olacaqdır.

Diqqətinizə görə təşəkkür edərək sevgi və hörmətimi bildirirəm.

**LATVİYA SEYMİNİN DEPUTATI**
**ALEKSANDR SAKOVSKİNİN**
**ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli qurultay iştirakçıları!

İlk öncə, icazənizlə, Dünya azərbaycanlılarının mötəbər III qurultayına dəvət etdiyinizə görə sizlərə dərin təşəkkürümü bildirmək və Latviya Parlamenti adından bütün qurultay nümayəndələrinə salamlarımı çatdırmaq istəyirəm. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin söylədiyi nitqi diqqətlə dinlədim. Çıxış həqiqətən də dolğun və maraqlı idi, hansı ki, xarici ölkələrdə yaşayan azərbaycanlıların real həyatını və problemlərini əhatə edirdi.

Prezident İlham Əliyev nitqində bu sözləri səsləndirdi: “Biz istəyirik ki, Azərbaycan ən güclü, firavan yaşayan və inkişaf edən ölkəyə çevrilsin”. Düşünürəm ki, Latviya Respublikası da Azərbaycan Respublikasını bu yolda tam dəstəkləməyə hazırdır.

Ölkələrimiz arasında olan fəallıq son illər ərzində artmağa başladı. Bu fəallığın piki, yəni ən yüksək zirvəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Riqaya gəlişi oldu, yeri gəlmişkən, əvvəldə göstərilən filmdəki kadrlarda bu səfər aydın göstərildi. Kadrlarda hörmətli Prezidentin bizim Prezidentlə, həmçinin şəxsən iştirak etdiyim parlamentlə və bizim diasporla keçirilən yüksək səviyyəli görüşləri nümayiş olundu.

Mən onu qeyd etmək istərdim ki, ölkələrimiz arasında olan xarici ticari dövriyyə ildən-ilə artır. Lakin bu gün 30 milyon dollar olan rəqəm hələ də kiçikdir. Mən düşünürəm ki, Latviyaya olan səfərlərin nəticəsindən biri odur ki, ölkələrimiz arasında olan resurs potensialı çox böyükdür. Bu potensialı işgüzar dairələr arasında daha çox istifadə edə bilərik.

Səfər zamanı bir sıra vacib sənədlər imzalanmışdır. Bu sənədlər hökumətlər tərəfindən hazırlanmışdır. Bundan başqa, digər sənədlər, sazişlər var ki, bizim aramızda olan əməkdaşlığın çox fəal olduğunu və inkişaf etdiyini göstərir.

İndi isə mədəniyyət sahəsində olan əməkdaşlıq haqqında danışmaq istərdim. Son illər ərzində biz bir neçə sərgi keçirmişik - Heydər Əliyevin 85 illiyinə həsr olunmuş sərgilər, Azərbaycan Demokratik Respublikasının 90 illiyinə həsr olunmuş sərgi və həmçinin “Qarabağımız həmişə ürəyimizdədir” adlı sərgi, Latviya və Azərbaycan arasında diplomatik münasibətlərin 15 illiyinə həsr

olunmuş sərgi, bundan başqa azərbaycanlıların Latviya cəmiyyətinə inteqrasiya olunması ilə bağlı olan görüşlər, həmçinin Azərbaycan diasporunun Latviyada rolu, Azərbaycanın Avropa məkanına inteqrasiyası haqqında görüşlər.

Hər il Latviya parlamentinin deputatları Azərbaycan “Ocaq” Mədəniyyət Mərkəzinin tədbirlərində iştirak edir. Bunlar Xocalı və 31 Mart Azərbaycanlıların Soyqırımına həsr olunmuş tədbirlərdir. Bundan başqa, qeyd etmək istərdim ki, Latviyada keçirilən Alim Qasımovun konserti çox böyük populyarlıq qazanmışdır. Bir ay

bundan qabaq "Qarabağ Trio"sunun Latviya Simfonik Orkestri ilə birgə Azərbaycan Muğamı konserti keçirilmişdir.

Latviyada olan diasporun fəaliyyəti haqqında danışmaq istərdim. Parlamentdə fəaliyyətə başladığım ilk günlərdən diasporlarımızın əlaqələrini qurduq və bu ilk gündən çox fəal və yaxşı inkişaf etdi. Onu qeyd etmək istərdim ki, Azərbaycanın Latviyada olan diasporunun sayı təxminən 3 min nəfərdir və ayrıca olaraq Diasporun rəhbəri Roman Əliyevi xüsusilə qeyd eləmək istərdim. Biz onunla ilk gündən fəal əməkdaşlığa başladıq və artrıq gələcəyə dair çox böyük planlarımız var. Əminik ki, biz gələcəkdə bu planları həyata keçirə biləcəyik.

Ayrıca olaraq, onu da demək istərdim ki, bu mənim Azərbaycana olan ilk səfərimdir və mən ilk dəfədir ki, Bakıdayam. Əlbəttə, mənə deyirdilər ki, Azərbaycan xalqı çox qonaqpərvər və mehriban xalqdır. Həqiqətən, belə gözəl şəhəri və belə gözəl insanları görüb çox heyrətləndim. Bütün bunları şəxsən görmək və əmin olmaq lazımdır.

Mənə çox deyirdilər ki, Bakı çox gözəl, müasir və inkişaf

etmiş bir şəhərdir və bu doğrudan da belədir. O sürətlə inkişaf edir, lakin mən öz tərəfimdən əlavə etmək istərdim ki, şəhərin gözəlliyi yalnız onun memarlığında, gözəl və müasir binalarında deyil, həm də o şəhərdə yaşayan insanlardadır. Çünki məhz onlar həmin təkrarolunmaz mehribanlıq və dostluq mühitini yaradır ki, insan yenidən o şəhərə qayıtmaq istəyir.

Çıxışımın sonunda qurultay iştirakçılarına məhsuldar iş arzu etmək istərdim.

Mən əminəm ki, bu iş və bu qurultaylar ənənəsi davam etdiriləcəkdir və inanmaq istərdim ki, bu qurultaylardan, görüşlərdən, disputlardan, diskussiyalardan biz həqiqətən də real fayda əldə edə biləcəyik və Latviya Parlamentinin simasında siz ölkənizin daha bir dostunu qazana bildiniz.

Təşəkkür edirəm.

**LÜKSEMBURQ PARLAMENTİNİN DEPUTATI**
**JAK-İV HENKESİN**
**ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli qurultay iştirakçıları!

Xanımlar və cənablar!

Mən bu gün Benilüks Azərbaycan Konqresinin nümayəndəsi, Benilüks Azərbaycan Ticarət Palatasının sədri, Lüksemburq parlamentinin üzvü kimi müraciət etmək istəyirəm. Lüksemburq, Niderland və Belçikadan olan azərbaycanlıların konqresi - Benilüks Azərbaycan Konqresi çox fəal fəaliyyət göstərir. Biz bu ilin dekabr ayında Amsterdamda III qurultayımızı keçirəcəyik. Bizim konqres Sədr Qasımovun başçılığı ilə Brüssel, Lüksemburq, Strasburqda təşkil olunmuş yeni Azərbaycan diasporunu yaratmışdır.

Əsas məqsəd isə Azərbaycanın və tərəfdaş ölkələrin milli maraqlarını dəstəkləmək və əsasən Azərbaycan diasporunun gücləndirilməsinə yardım etməkdir.

Kiçik dövlət olan Lüksemburq haqqında yetərli məlumatı olmayanların diqqətinə çatdırım ki, dünyanın ən kiçik dövlətləri arasında olan Lüksemburqun ərazisi 2800 kv. km, əhalisi isə 500 minə yaxındır. Onların 45 faizi, arasında çoxsaylı azərbaycanlıların da olduğu 58 xarici millətin nümayəndəsi təşkil edir.

Lüksemburq Azərbaycan şirkətləri üçün Avropa bazarına ideal çıxışdır. Lüksemburq Azərbaycan ticarət palatasının bir çox məqsədləri vardır. Birincisi, azərbaycanlı iş adamlarına Lüksemburqda şirkətlər yaratmaqda kömək etmək, ikincisi isə, Azərbaycanda investisiya qoymağa marağı olan Lüksemburq və başqa Avropa şirkətlərinə və banklarına kömək etməkdir.

Son illər ərzində Lüksemburq və Bakı arasında birbaşa yükdaşıma əlaqələri formalaşmışdır. Beni lüks Azərbaycan Konqresinin fəaliyyətinin digər istiqaməti isə Avropa Şurasının tərkib hissəsi kimi Avropada qonşuluq siyasəti ilə birbaşa bağlı olan Azərbaycan- Benilüks arasında qarşılıqlı münasibətlərin inkişafına yönəlmişdir.

Prezident İlham Əliyevin Avropa Şurasına bu yaxınlardakı səfəri bizim düzgün yolda olduğumuza dair sübutdur və Benilüks Azərbaycan Konqresi Azərbaycanla Avropa Birliyi arasında əlaqələrin gücləndirilməsi uğrunda səylərini davam etdirəcək. Hal-hazırda Azərbaycan iqtisadi inkişafa və əhalisinin rifah halının çiçəklənməsinə aparan yola irəliləyir. Möhtəşəm nəticələrə öz töhfəsini verən və atası Heydər Əliyevin başlatdığı işi davam etdirən Prezident İlham Əliyevin sayəsində ildən-ilə bütün iqtisadi göstəricilər daha da yaxşılaşır. Lakin hələ də problem qalmaqdadır. Avropa şirkət və banklarını Azərbaycana investisiya qoymaqda tərəddüdə salan həll olunmamış münaqişə vəziyyətidir. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında danışıram. Düşmən tərəfindən torpaqları işğal olunan 1 milyon insan əziyyət çəkir. Beynəlxalq hüquq və ədalət Sizin tərəfinizdədir. Bu situasiyada Ermənistanın siyasəti status-kvonu qoruyub

saxlaya bilməz, çünki o, sülh prosesini ciddi şəkildə mürəkkəbləşdirir. Münaqişənin hərbi yolla həlli isə Azərbaycanın iqtisadiyyatını təhlükəyə ata bilər.

Beləliklə də, ümid edirəm ki, aparılan diplomatik cəhdlər öz nəticəsini verəcək və BMT ilə AB münaqişənin həlli üçün Ermənistana təzyiqləri artıracaq. Mən də Lüksemburq parlamentinin deputatı və Lüksemburq parlamentinin Avropa və Xarici İşlər üzrə Komissiyasının üzvüyəm və onu demək istəyirəm ki, Siz mənim tam dəstəyimə güvənə bilərsiniz.

Bizim ictimai kampaniyalarımız sosial şəbəkələr və digər vasitələrlə diaspor və onun dostları tərəfindən həyata keçiriləcəkdir. Beləliklə, Azərbaycan xalqı Azərbaycanın və onun Prezidenti İlham Əliyevin diplomatik səylərinə qoşularaq hədəflərə çatmaq yolunda özünün fəal və real dəstəyini əsirgəməyəcəkdir.

Hörmətli qurultay iştirakçıları!

Əziz dostlar!

Benilüks-Azərbaycan tərəfdaşlığı məhsuldardır və davam etdirilməlidir. Birlikdə biz gələcəkdə ölkələrimiz və xalqlarımızın iqtisadi və sosial inkişafını irəli apara biləcəyik. Hər iki xalq və hər iki ölkə üçün, gəlin bunu edək!

## FRANSANIN BRAZZAVİL UNİVERSİTETİNİN REKTORU, BEYNƏLXALQ HÜQUQ MƏSƏLƏLƏRİ ÜZRƏ VƏKİL EMMANUEL KOLİYENİN ÇIXIŞI

*5 iyul 2011-ci il*

Cənab Prezident!

Hörmətli qurultay iştirakçıları!

Sizə səmimi qəbul üçün təşəkkürümü bildirirəm.

Sıravi hüquq müvəkkili və fransız müəllimi olaraq bu möhtəşəm tədbirdə ölkələrimiz arasında dostluq münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd etmək mənim üçün böyük qürur mənbəyidir.

Ölkələrimiz arasındakı möhkəm, səmimi və əbədi dostluq xarakteri daşıyan münasibətlər əsrlər boyu alimlər, böyük yazıçılarımız tərəfindən qurulmuş, bu gün də müasir dövrün siyasətçiləri tərəfindən davam etdirilməkdədir.

Xatırlayın, 2010-cu il fevralın 15-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti və YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Fransaya münasibətdə göstərdiyi xidmətlərinə görə Fransa Prezidenti Nikola Sarkozi tərəfindən "Fəxri legion" ordeni ilə təltif edilmişdir. O, bu mükafata Fransa ilə Azərbaycan arasında münasibətlərin inkişafına verdiyi töhfələrə görə layiq görülmüşdür. Bir məsələni də vurğulamaq lazımdır ki, Heydər Əliyev Fondu sivilizasiyalararası dialoqda önəmli rola malikdir, bu da öz növbəsində xüsusi əhəmiyyət kəsb edir.

Bu möhkəm dostluğun kökləri II Dünya Müharibəsi ərəfəsində, sizin ata-babalarınızın fransızların müqavimət hərəkatında iştirakında öz əksini tapır. Məhz bu ərəfədə Şarl De Qoll onunla bir yerdə döyüşən azərbaycanlı ilə dost olmuş və SSRİ-yə rəsmi səfəri zamanı general onunla görüşmək istədiyini bildirmişdir.

Beləliklə, Fransanın 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini rəsmi olaraq tanıyan ilk dövlətlərdən biri olması təbiidir.

Bu etibarın ifadəsi kimi, Prezident Heydər Əliyevin 1993-cü il noyabr seçkilərindən sonra ilk rəsmi səfəri də elə Fransaya olmuşdur.

Cənab Prezident!

2003-cü ilin oktyabrında keçirilmiş seçkilərdən sonra Sizin Azərbaycan Prezidenti kimi ilk rəsmi səfəriniz Fransaya olmuşdur. Bu da öz növbəsində, Azərbaycanın mənim ölkəmlə əməkdaşlıqda maraqlı olduğunun göstəricisidir.

Fransa həmişə ölkənizə dünyada məşhurluq qazandıran boru kəmərləri ilə bağlı vacib iqtisadi qərarlarınızda sizə dəstək verəcək.

Cənab Prezident!

Hamıya məlumdur ki, ATƏT-in Minsk Qrupunun həmsədri olaraq Fransa Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində öz səylərini əsirgəməmişdir. Bu məsələ ilə bağlı olaraq, böyük qürur hissi ilə ön sözünün müəllifi olduğum Dağlıq Qarabağa dair kitabın nəşr olunmasını qeyd etmək istərdim. Kitabın başlığının "Dağlıq Qarabağda münaqişə: sülh və ya qaçılmaz müharibə" adlanması regionun ehtiyac duyduğu sülhün zəruriliyini nümayiş etdirir. Kitab bir ay öncə Fransada nəşr edilmişdir və universitetdə dərslik kimi istifadə ediləcəkdir. Bu kitab, fransızlara Azərbaycan tarixini, o cümlədən konflikti dərk etmək imkanını verəcəkdir. Azərbaycan tədqiqatçısı tərəfindən yazılan bu kitab Azərbaycana tənqidlərə qarşı tutarlı cavab rolunu oynayır.

Heç vaxt bitməyəcək dostluğumuza uzun ömürlər!

Təşəkkür edirəm.

**NİDERLANDIN ƏYALƏT PARLAMENTİNİN DEPUTATI,
ƏMƏK UĞRUNDA PARTİYANIN ÜZVÜ
SONGÜL AKKAYANIN
ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Sən bizimsən, bizim!
Durduqca bədəndə bu can,
Yaşa, sən çox yaşa!
Ey, şanlı Azərbaycan!

Hörmətli Prezident İlham Əliyev! Hörmətli Məclis sədri!

Hörmətli millət vəkilləri!

Hörmətli qonaqlar!

Dünya azərbaycanlılarının III qurultayında hamınızı hörmətlə salamlayıram. Sözlərimə bizi bura dəvət edən Diasporla İş üzrə Dövlət Komitəsinə, hörmətli sədr Nazim İbrahimova və Benilüks Azərbaycanlıları Konqresinə təşəkkür edərək başlamaq istəyirəm. Benilüks Azərbaycanlıları Konqresi və bütünlükdə Azərbaycan diasporu illərdir Avropada yalnız avropalı azəri-türkləri üçün deyil, bütün avropalı türklər üçün gördüyü işlərlə Avropa türklərinin səsi olmuşdur.

Bilirik ki, bütün dünyada diaspor çox ciddi amilə çevrilmişdir. Bu mənada Azərbaycan diasporu Azərbaycanın maraqlarının müdafiəsinə uğurla dəstək olur. Azərbaycan diasporuna gördüyü işlərə görə təşəkkürlərimi bildirmək istəyirəm.

Bu günə qədər Benilüks Azərbaycanlıları Konqresi bir çox işlər görmüşdür. Xüsusilə Hollandiyada gördüyü işlərin bir neçəsi haqqında sizə məlumat vermək istəyirəm. Benilüks Azərbaycanlılar Konqresi Amsterdam, Rotterdam şəhərlərində uşaqlarımızın, övladlarımızın ana dilini unutmamaları üçün ana dili məktəbləri, "həftəsonu" məktəbləri açdı. Bəlkə də, Benilüks Azərbaycanlıları Konqresi bir yeniliyə imza atdı. Rotterdam şəhərində Bakı küçəsi açıldı. Bu həqiqətən son dərəcədə qürurvericidir.

Digər qürurverici olan bir hadisə isə artıq azərbaycanlıların Hollandiyada etnik qrup olaraq tanınmasıdır. 2006 və 2010-cu il seçkilərində bir çox siyasi partiyanın nümayəndələri Benilüks Azərbaycanlıları Konqresinin rəhbərliyi ilə görüşlər keçirərək azərbaycanlılardan dəstək istədilər.

Dəyərli qonaqlar!

Benilüks Azərbaycanlıları Konqresinin fəxri sədri və Avropa Azərbaycanlıları Konqresinin vitse-prezidenti hörmətli Sahil Qasımova görülən bütün bu işlərə görə minnətdarlığımı bildirirəm.

Hollandiyada yaşayan Türkiyə türklərinin, azəri türklərinin və digər türkdilli xalqların nümayəndələrinin rifahı üçün, onların birliyi üçün inanılmaz işlər görən digər bir şəxsə - Hollandiya Türk Demokratlar Birliyinin Ümumi Koordinatoru hörmətli Mikayıl Günəşə də buradan təşəkkür etmək istəyirəm.

Sağ olun. Var olun.

Azərbaycanın ənənəvi olaraq keçirdiyi dünya azərbaycanlılarının qurultayı mənim gözümdə adətən toxumu torpağa atılmış əkin kimidir və gələcək nəsillərimizə ümid vəd edir. Hollandiyalı bir türk olaraq, belə bir bərabərliyin yaradılmasından şərəf və qürur duyuram. Ulu öndər Atatürkün bizə illər öncə söylədiyi bir sözü də sizlərlə paylaşmaq istəyirəm. Ulu öndərimiz zamanında bunu demişdir: "Kommunizm bir gün, əlbəttə, dağılacaq və siz bir gün oradakı qardaşlarınızla həmişə birlikdə olacaqsınız". Bu sözlər bu gün gerçəkləşdi. Bu gün həmişəlik birlikdəyik.

Azərbaycan artıq beynəlxalq aləmdə önəmli bir mövqedədir. İqtisadiyyatı inkişaf etmiş, söz sahibi olan müasir bir ölkədir. Azərbaycan rəhbərliyini bu uğurlara görə xüsusi olaraq ürəkdən təbrik etmək istəyirəm.

Üzümüzü ağ etdiniz. Sağ olun.

Hörmətli qonaqlar!

Biz tək millətin çoxdövlətli birlikləriyik. Dərdimiz və kədərimiz ortaqdır. Xocalıdakı soyqırımın dərdi də mənim dərdimdir, Qazaxıstandakı, Özbəkistandakı, Azərbaycandakı, Qırğızıstandakı, Türkmənistandakı, Türkiyədəki dərd də mənim dərdimdir. Bundan əlavə, Ankaranın, Bakının, Astananın, Bişkekin, Aşqabadın, Düşənbənin də uğuru və sevinci bizim uğurumuzdur, bizim sevincimizdir, bizim qürurumuzdur.

Hörmətli qonaqlar!

Dünyanın istiqaməti artıq Şərqə yönəlmişdir. Şərqdəki müvəffəqiyyət və zənginlik Qərbin diqqətini çəkməyə başlayıb. Amma Qərbdəki dözümsüzlük, iqtisadi böhranlar da artıq Şərqin diqqətini çəkməyə başlayıb. Təəssüf ki, yaşadığımız ölkədə - Hollandiyada son vaxtlarda xaricilərə qarşı xoş olmayan bir çox hadisələr yaşandı. Biz bu hadisələri hər gün mediadan izləyirik. Amma Hollandiyada tək bir sevincimiz var, düşünürəm ki, bu Avropanın bir çox ölkəsi üçün də keçərlidir. Sevincimiz isə budur: bu xoş olmayan hadisələrə Hollandiyalıların yüzdə səksən yeddisi müsbət baxmır və qınayır. Biz bilirik ki, Hollandiya sabit bir ölkədir. Bütün bu baş verən hadisələrə baxmayaraq, Hollandiya mədəniyyətinin irqçiliyə və ayrı-seçkiliyə tamamilə imkan verməyəcəyini çox yaxşı bilirik. Bizi sabit quruluşu ilə xoşbəxt edən digər bir ölkə isə Türkiyəmizdir. 9 ildir güclü bir Ankara var. Bu sabitliyin yeni dövrdə də davam edəcəyindən heç şübhəmiz yoxdur.

Dəyərli böyüklərim!

Bugünkü birliyin gücünü tək millət olaraq Hollandiyada və dünyanın hər yerində qəlbimizdə hiss edirik. Bu inanılmaz gözəl bir duyğudur. Xaricdə yaşayan insanlar olaraq, belə bir gücü qəlbimizdə hiss etməyin həzzi həqiqətən çox böyükdür. Bu birlik davam etdiyi müddətdə dünyanın heç bir yerində, heç bir zaman bu millətin mənsubları əsla və əsla yalnız qalmayacaq. "İslamın Bahadır övladı - Türk milləti min ildir varlığını davam etdirdin, məzlum və məğrur millətlərin yanında oldun, qorxma, varlığın qiyamətə qədər davam edəcəkdir "- ustad demişdir.

Tək millət çoxlu dövlət birliyinin qiyamətə qədər davam etməsini arzu edirəm.

Azərbaycan diasporu, qurultayın şərəfli və mübarək olsun!

**ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN PREZİDENTİ MƏMMƏDBAĞIR ƏLİYEVİN ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Əziz həmvətənlər!

İcazə verin, Ümumrusiya Azərbaycan Konqresi adından bugünkü qurultay münasibətilə Sizi təbrik edim! Bildiyiniz kimi Konqres ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə yaradılmışdı. Ümumrusiya Azərbaycan Konqersinin 2001-ci ildə keçirilən I qurultayında ulu öndərimiz də iştirak etmişdir. Dünya azərbaycanlılarının II qurultayında cənab İlham Əliyev öz çıxışında dünya diaspor təşkilatları qarşısına 5 illik strateji proqram qoymuşdu. Bu 5 il çox tez keçdi. Bu müddət ərzində Ümumrusiya Azərbaycan Konqresinin Rusiyada artıq Kalininqraddan Vladivostoka qədər 79 regional, 23 yerli bölmələri yaradılıb. Bu təşkilatların yaradılması zamanı icra aparatının işçiləri yerlərdə olmuş, metodik və praktik köməklik göstərmişdilər.

Yerli təşkilatların rolu və gücü artıb. Bunun nəticəsində Ulyanovsk şəhərində, Həştərxanda regional şöbələrin təşəbbüsü ilə ulu öndər Heydər Əliyevin heykəlləri qoyulub, parklar salınıb, Sibirdə dəmir yolu stansiyasına Heydər Əliyevin adı verilib. Dərbənddə, İnquşetiyada, Voloqdada Heydər Əliyev adma bağlar salınıb, küçələrə onun adı verilib, büstü qoyulub. Moskvada 157 nömrəli məktəbə general Kərim Kərimovun adı verilib. Moskvada Müslüm Maqomayevin adma konsert zalı açılıb və heykəlinin təməl daşı qoyulub.

Konqresin xüsusi diqqəti azərbaycanlı gənclərin təhsilinə yönəlib. Artıq 8 ildir ki, hər il Konqres Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə birgə qəbul imtahanları keçirir. Hal-hazırda Rusiyanın 56 ali məktəbində 236 tələbə təhsil alır. Onlar arasında Plexanov adına Rusiya İqtisadi Akademiyası, Moskva Dövlət Hüqüq Akademiyası, Rusiya Xalqlar Dostluğu Universiteti, Rusiya Dövlət Humanitar Universiteti, Bauman adma Moskva Dövlət Texniki Universiteti, Milli Nüvə Tədqiqatları Universiteti və başqalarım saymaq olar. Konqresin təşəbbüsü ilə yaxşı oxuyan tələbələrə Heydər Əliyev Fondunun, “Lukoyl” fondunun, “Aydın Qurbanov” fondunun və Ümumrusiya Azərbaycan Konqresinin təqaüdləri verilir.

Azərbaycan diasporlarının formalaşmasında mühüm rol “Azərbaycan Konqresi” qəzetinin üzərinə düşür. Bu qəzet Rusiyada həftəlik çıxan ilk diaspor qəzeti oldu. Hal-hazırda 10 mindən artıq tirajla Rusiyada və Azərbaycanda çap olunan qəzetin elektron versiyası da var. Qəzetdə regionlar üçün, AMOR gənclər təşkilatı üçün səhifələr ayrılıb. Bu il Ümumrusiya Azərbaycan Konqresinin mühüm ilidir, bizim III qurultayımız keçirilməlidir.

Cənab Prezident, biz bilirik ki, sizin çox sıx iş rejiminiz var. Çıxışımda qeyd etdiyim kimi, birinci qurultayımızda ümummilli lider Heydər Əliyev iştirak etmişdi. II qurultayda da Siz iştirak etmişdiniz. III

qurultayda iştirak etsəniz, həm bizim üçün şərəf olar, həm də bu iştirak təşkilatın nüfuzunu Rusiyada daha da qaldırar.

Hörmətli Cənab Prezident! Əziz həmvətənlərim! Fürsətdən istifadə edərək Sizə bəzi təkliflərimizi də bildirmək istəyirik:

1. Ümumrusiya Azərbaycan Konqresi bütün yerli təşkilat-larımız üçün iki mühüm hadisənin "Xocalı faciəsi"nin və 10 May Heydər Əliyevin doğum gününü qeyd edir. Təklif edirəm ki, bu vacib tarixlər bütün dünyadakı təşkilatlarımız tərəfindən də qeyd olunsun!

2. Hər il Sizin iştirakınızla Xarici İşlər Nazirliyi bütün səfirlərini Azərbaycanda bir yerə toplayır. Yaxşı olardı ki, Diasporla İş üzrə Dövlət Komitəsi diaspor rəhbərlərinin də birgə toplantısını təşkil edəydi.

Səfirlər dəyişir, amma diaspor rəhbərliyi dəyişmir. Hər il keçirilən forumlar diasporlar arasında əlaqələri möhkəmləndirir və ən vacibi isə vətənimizlə sıx əlaqə yaradır.

Diqqətinizə görə sağ olun!

**RUMINİYA PARLAMENTİNİN ÜZVÜ**
**ALEDİN AMETİN**
**ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İcazənizlə, tatar dilində bir neçə söz demək istərdim. Birinci sırada əyləşib sizləri dinlədim. Qırğızıstandan, Türkiyədən gələn qonaqlarımız, Azərbaycandan olanlar danışdılar, başa düşdüm. Bu nəyi göstərir? Göstərir ki, Türk dünyası vahid böyük bir dünyadır. Göstərir ki, Avropadan Qazaxıstana kimi eyni dildə danışırıq. Qazaxıstana iki dəfə getdim. Mən ana dilimdə danışdım və biz bir-birimizi anladıq.

Rumıniya parlamentində 6 ildir ki, millət vəkili olaraq fəaliyyət göstərirəm. İndi burada, bu salonda onu bildirmək istəyirəm ki, mən sadəcə Rumıniya millət vəkili deyiləm, mən sadəcə tatar millət vəkili deyiləm, mən türk millət vəkiliyəm, mən qazax millət vəkiliyəm, mən azəri millət vəkiliyəm, mən qırğız millət vəkiliyəm. Onun üçün mən öz adımdan və Rumıniyada yaşayan bütün tatarların adından sizlərə salamlar gətirdim.

Xanımlar və cənablar!

Dəyərli qonaqlar!

Azərbaycan dövlətinə səfərimdən yararlanaraq, şəxsən sizə - qardaş Azərbaycan xalqına öz adımdan və Rumıniyada yaşayan Krım-tatar toplumu adından salamlarımı, uzun ömür, sağlıq və rifah istəklərimi çatdırıram.

Böyük türk dünyasının bir parçası olan Rumıniya tatarlarının mənşəyi Orta Asiyadır. Babalarımızın babaları oradan çıxıb Qərbə -Avropaya doğru hərəkət etmişdilər. X əsrdən başlayaraq müxtəlif türk boyları - peçeneqlər, uzlar, qıpçaqlar Dunay çayı vadisində və Qara dəniz sahillərində yerləşmişdilər.

XIII yüzillikdə Qızıl Orda dövləti yaradılmış və Dobruca adlanan bölgəmizdəki türk qövmləri də bu dövlətin idarəsi altına keçmişdilər. Teymurləng Qızıl Orda xanı Toxtamışı məğlub etdiyi zaman Qıpçaq bozqırındakı Dəşti Qıpçaq tatarlarının bir qismi Dobrucaya qaçmış və bu bölgədə tatarların yeni bir tarixi başlanmışdır. XV yüzillikdə Dobruca Osmanlı Türkləri tərəfindən tutulmuş və 450 il onların idarəçiliyi altında qalmışdır. Osmanlı hakimiyyəti dövründə Krım xanlığı yarandıqdan sonra da əsrlər boyu Qara dənizin şimalındakı bozqırlardan bölgəmizdə kütləvi şəkildə tatar-türk tayfaları yerləşmişdir. Buna görə də haqlı olaraq, o dövrdə Dobruca Tatar Dobrucası adını almışdı.

Krım döyüşündən sonra 1856-1860-cı illər arasında vətənlərini tərk edən Krım tatarlarından yüz minə yaxmı Dobrucaya gəlmişdir. Burada şəhərlər və kəndlər salmış, bölgədə əvvəldən bəri yaşayan tatarlar və türklərlə qaynayıb qarışmışdılar. 1877- 1878-ci illərdə Rusiya-Türkiyə müharibəsi, əvvəllər baş vermiş digər müharibələrdə olduğu kimi Dobrucadakı tatarların böyük kütlə şəklində Türkiyəyə köç etmələrinə yol açmışdır. Bu köçlər 1939-cu ilə qədər davam etmişdir.

Hal-hazırda Rumıniyada yaşayan tatarların sayı 35-45 min ətrafındadır. Bu toplumun yüzdə doxsanı Dobruca bölgəsində məskunlaşır və rumınlarla birgə yaşayaraq dözümlülük mövzusunda ölkəyə və Avropaya bir örnək olurlar. Toplumumuz bölgəmizdəki ən hərəkətli, ən dinamik azlıqlardır.

Son 20 ildə din dərsləri, türkcə və tatarca ana dili kursları, Məcidiyyə şəhərində Kamal Atatürk Milli kolleci açmağı bacarmışıq. Təhsilin türkcə və tatarca olduğu məktəblərdə orta məktəb uşaqları ana dilində öz toplumlarının tarix və ənənələri dərslərini də keçirlər. Məktəb kitablarından Mehmet Niyazi, İsmayıl Səidin, Çələbiçi xan, Hamdi Giray və başqaları kimi böyük yazıçı və şairlərimizin əsərlərini tanımaq fürsəti əldə edirlər.

Mədəni həyatımız da canlanmışdır. Tatarlar və türklər yaşayan kəndlərdə və qəsəbələrdə milli xalq və dini bayramlar, adətlər, nümayişlər və mərasimlər qeyd olunur. Hər il böyük Beynəlxalq Türk-tatar Milli Geyim, Türkü və Xalq Oyunları Festivalları təşkil edirik. 1990-cı ildən etibarən Rumıniya Müsəlman Tatar Türkləri Demokrat Birliyinin Qara dəniz adlı nəşri çap olunur və gənc və qadınlar dünyası əlavələri xidmət göstərir. Yerli radio proqramında həftədə bir saat tatarca yayım aparılır. Son 20 ildə ana dilimizdə və rumınca tarix, ədəbiyyat, ümumi mədəniyyət haqqında onlarla kitab çap olunmuşdur. Eyni zamanda, hər il beynəlxalq və milli səviyyədə simpoziumlar təşkil edirik. Yerli şöbələrimizdə folklor qruplarının fəaliyyətlərini ayrıca vurğulamaq istəyirəm. Onlar dini və milli bayramlarda tədbirlər həyata keçirirlər. Məscidlərdə və şöbə mərkəzlərində dini bayramlarımız qeyd olunur.

Bir millət vəkili olaraq, Rumıniya parlamentindəki xidmətlərimiz toplumumuza çox yararlı olur. Çünki millətimizin tarixi lideri Çələbiçi xanın sözləri ilə desəm, Rumıniyada yaşayan Krım tatarlarının ictimai və insan hüquqlarının qorunmasına böyük önəm verirəm. Məsələn, bizim qəbul etdiyimiz qanunlara əsasən, 13 dekabr tarixi Rumıniyada Tatarların günü kimi, 5 may tarixi isə Tatar dili günü kimi rəsmi qəbul olundu. Hər il oktyabr ayının sonunda məşhur yazıçılara "Mehmet Niyazi" mükafatı təqdim olunmaqdadır.

Birliyimiz üçün görkəmli bir mərkəz inşa edilmiş, böyük şöbələrimiz üçün torpaqlar satın alınmış, mərkəz binaları tikilmişdir. Hər il may ayından oktyabr ayına qədər Tatar Kəmər güləşi keçirilməkdədir.

Son 2 ildir ki, Məcidiyyə şəhərində Beynəlxalq Tatar güləş yarışı keçiririk. Tatar və qardaş Azərbaycan xalqının dilləri arasında böyük oxşarlıqla yanaşı, bir çox tarixi bağlar var. İnsanlarımız Azərbaycanı, eynilə, Türkiyəni ikinci vətəni olaraq görmüş, onun rifahı naminə canlarını belə verməkdən çəkinməmişdilər. Bunların sırasında, qürurla Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun Baş Qərargah rəisi şəhid general Süleyman Sülkeviç, Böyük türkoloq, çağdaş Azərbaycan qrammatikasının atası, professor Bəkir Çobanzadə, Azərbaycan Bəstəkarlar İttifaqının ilk sədri Rüfət Həsənov və digərlərinin adlarını çəkə bilərəm. Eyni zamanda, Azərbaycanda Krım-tatar Təşkilatlarının sərbəst fəaliyyətlərindən xəbərdarıq. Mənə görə, Azərbaycan dövlətinin xaricdə yaşayan vətəndaşına və soydaşına verdiyi önəm və dəstək, Heydər Əliyev Fondunun Azərbaycan mədəni dəyərlərinin qorunması və tanınması istiqamətində həyata keçirdiyi fəaliyyətlər bütün dünya ölkələri, millətlər və xalqlar üçün bir örnək olmalıdır.

Sonda çox möhtərəm Prezident İlham Əliyevə, qardaş Azərbaycan millətinə sağlıq, xoşbəxtlik və rifah istəklərimi bir daha bildirməkdən şərəf duyuram.

Təşəkkür edirəm.

Yaşasın Rumıniya!

Yaşasın Azərbaycan!

Yaşasın türk dünyası!

**TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN DEPUTATI,
TÜRKİYƏ-AZƏRBAYCAN DƏRNƏYİNİN SƏDRİ
SİNAN OĞANM
ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Möhtərəm cənab Prezident!

Hörmətli qurultay iştirakçıları!

Əziz soydaşlarım, bacı və qardaşlarım!

İcazə verin, Sizi və hamımızı, dünyada yaşayan hər bir azərbaycanlını, 50 milyonluq xalqımızı bu möhtəşəm hadisə - Dünya azərbaycanlılarının III qurultayı münasibəti ilə ürəkdən təbrik edim, hər birinizə öz dərin hörmət və ehtiramımı bildirim.

Bu gün tarixi bir gündür. Qədim diyarımız, türk dünyasının döyünən ürəyi və Türkiyəmizə ən içdən qan bağlılığı olan Azərbaycanımızın tarixinin çox önəmli bir səhifəsi yazılır bu gün. Nə xoşbəxtik ki, bizlər bu günü yaşamaq, bu günü rövnəqləndirmək, onun bir parçası olmaq şansı qazanmışıq.

Dünya azərbaycanlılarının III qurultayının keçirilməsi haqqında qəbul etdiyiniz bu tarixi qərarınıza və bizləri Azərbaycan Respublikasına dəvət etdiyinizə görə cənab Prezident, Sizə öz sonsuz minnətdarlığımızı, dərin hörmət və ehtiramımızı bildiririk.

Mən Türkiyə Böyük Millət Məclisinin deputatıyam. Amma həm də Türkiyədə yaşayan azərbaycanlıların yaratdıqları lobbi təşkilatı olan Türkiyə Azərbaycan Dəməyinin də sədriyəm. Biz, Azərbaycan lobbisinin fəalları dövlətimizin və şəxsən Sizin diqqətinizi və qayğınızı Azərbaycanımızın adma atdığımız hər addımımızda hiss edirik. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə Azərbaycan lobbisinin gücləndirilməsi və dünyada təsirinin daha da artırılması barədə verdiyiniz qətiyyətli tapşırıqlarınız bizim gündəlik lobbiçilik fəaliyyətimizin əsasını təşkil edir. Eyni zamanda, cənab Prezident Sizin, bu gün dillərdə əzbər olan Azərbaycan və Türkiyə diaspor təşkilatlarına xitabən dediyiniz: “Bir millətin iki diasporu olmamalıdır” kimi tarixi sözlərinizi də bir an belə unutmamışıq. Gündəlik fəaliyyətimizin əsas qayələrindən birini də məhz Sizin uzaqgörənliklə irəli sürdüyünüz bu müdrik tövsiyəni həyata keçirmək təşkil edir. Əlbəttə, bu yerdə rəhmətlə andığımız ulu öndərlərimiz Mustafa Kamal Atatürk və Heydər Əliyevin Türkiyə və Azərbaycan xalqlarının birgə taleyinə işıq tutan tarixi kəlamlarını xatırlatmağı özümə borc bilirəm. “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir” və “Biz bir millət - iki dövlətik”.

Heç şübhəsiz ki, biz və bütün dünya azərbaycanlıları bu gün İlham Əliyevin liderliyindəki Azərbaycan Respublikasının hər sahədə qazandığı nailiyyətləri böyük fəxrlə yaxından izləyirik. Azərbaycan bu gün hər sahədə Qafqaz regionunun lideridir və bu fakt bu gün bizlərin, hər bir dünya azərbaycanlısının fərəh, qürur mənbəyidir.

Cənab Prezident!

Rəhbərliyiniz altında tarixi vətənimizin qazandığı bu uğurlara görə də Sizə ayrıca minnətdarlıq edirik. Bu gün Azərbaycan Ordusu regionun ən güclü ordusudur. Biz bunu "Azadlıq" meydanında keçirilmiş hərbi paradda bir daha müşahidə etdik. Bu yerdə təbii ki, Ermənistan dövlətinin Azərbaycan torpaqlarını hələ də işğalda saxlaması faktına da toxunmaq istəyirəm. Bu gün Ermənistan Silahlı Qüvvələri Azərbaycan torpaqlarını işğal altında saxlamağa davam edir. BMT daxil olmaqla dünyanın bütün nüfuzlu təşkilatları Ermənistanın işğalçı dövlət olması faktını dəfələrlə aldığı qərarlarla təsdiq etmişdir. Bu gün dünyada yaşayan 50 milyonluq Azərbaycan türkü Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından dərhal və şərtsiz şəkildə çəkilməsini tələb edir. Əks təqdirdə, Azərbaycan türkləri işğalçı Ermənistanı öz Vətən torpağından söküb atmağın yolunu bilir. Bundan başqa, həm Türkiyə Böyük Millət Məclisinin millət vəkili və Türkiyə Azərbaycan Dəməyinin sədri olaraq deyə bilərəm ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından çəkilmədikcə və Türkiyəyə yönəlmiş əsassız iddialarından əl çəkmədikcə Ermənistan ilə sərhədlərin açılmasına icazə verməyəcəyik.

Mən Türkiyə Böyük Millət Məclisinin üzvüyəm. MHP İğdır millət vəkiliyəm. Yeri gəlmişkən, iğdırlı qardaşlarınızın və Türkiyədə yaşayan 3 milyonluq Azərbaycan türkünün salamlarını və təbriklərini cənab Prezident, həm Sizə, həm də bütün qurultay iştirakçılarına çatdırmaq istəyirəm. Onların da bütün diqqətləri bu gün ulu öndərimiz Heydər Əliyevin adını daşıyan bu gözəl saraya yönəlmişdir. Bu gün, Türkiyədə yaşayan azərbaycanlılar TBMM- də artıq 3 millət vəkili ilə təmsil olunurlar. Əlbəttə, biz məclisimizdə Azərbaycanla dostluq qrupu yaratmağı da planlaşdırmışıq. Sözsüz ki, biz özümüzü TBMM-də həm də dünyadakı 50 milyonluq Azərbaycan türkünün millət vəkilləri kimi də hiss edirik.

Bu gün, 50 milyonluq dünya azərbaycanlılarının da gözü tarixi Vətənimizə - Azərbaycanımıza dikilmişdir. Hamımız bu qurultayın uğurla nəticələnməsini, önəmli qərarlar almasını gözləyirik və buraya - "Odlar yurduna" da məhz bu ümidlərlə gəlmişik.

Mən, Türkiyə Azərbaycan Dərnəyinin sədriyəm. TAD Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi ilə sıx əməkdaşlıq edir və indiyə kimi silsilə tədbirlər keçirmişik və bundan sonrası üçün də önəmli planlarımız vardır. Əsas hədəfimiz peşəkar lobbi yaratmaqdır.

Hörmətli qurultay iştirakçıları!

Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldıqdan sonra dünyada Azərbaycan diasporunun formalaşması, mütəşəkkil bir hərəkata çevrilməsi istiqamətində çox ciddi addımlar atılmışdır.

Dövlətimizin bu sahədə müəyyənləşdirdiyi, keyfiyyətcə daha mütərəqqi sayılan və Azərbaycan diasporunun təşkilatlanmasında çox önəmli addım olacaq peşəkar lobbiçilik mərhələsinə keçdiyimizi nəzərə alaraq, Azərbaycan diasporunun fəaliyyətinin daha da işlək vəziyyətə gətirilməsi məqsədilə Dünya azərbaycanlılarının III qurultayında baxılması üçün aşağıdakı təklifləri irəli sürürük:

1. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin Sədri yanında dünyada fəaliyyət göstərən "Azərbaycan Diaspor Təşkilatları Rəhbərlərinin Məşvərət Şurası" (ad şərtidir) (hər ölkə üzrə ən böyük Azərbaycan diaspor təşkilatının rəhbərinin təmsil olunması şərti ilə) yaradılması.

2. Azərbaycan Diaspor Təşkilatları Rəhbərlərinin Məşvərət Şurasının toplantılarının ildə ən azı iki dəfə (hər altı ayda bir dəfə olmaqla) keçirilməsi.

3. Məşvərət Şurasının iclaslarının gündəliyinin Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən dünya Azərbaycan diaspor təşkilatlarının rəhbərləri ilə razılaşdırılaraq müəyyənləşdirilməsi.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin Sədri yanında dünyada fəaliyyət göstərən Azərbaycan Diaspor təşkilatları rəhbərlərinin Məşvərət Şurasının yaradılması dünyada və ölkəmizdə baş verən hadisələrə daha operativ şəkildə vahid mövqe bildirilməsinə, bunun müqabilində eyni məzmunlu tədbirlər keçirilməsinə və Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin daha ciddi koordinasiya olunmasına gətirib çıxaracaq və Azərbaycan Lobbiçilik hərəkatını yeni mərhələyə aparacaqdır.

Cənab Prezident, bizləri buraya dəvət etdiyinizə və dəyərli tövsiyələrinizə görə Sizə dərin təşəkkürlərimizi bildirirəm!

Eyni zamanda, hər birinizi təbrik edir və Sizə öz hörmət və ehtiramımı çatdırıram.

**AMERİKA AZƏRBAYCANLILARI ŞƏBƏKƏSİNİN İCRAÇI DİREKTORU ADİL BAĞIROVUN ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli qurultay nümayəndələri!

Əziz həmvətənlər!

Xanımlar və cənablar!

Amerika Azərbaycanlıları Şəbəkəsi (USAN) hansı zərurətdən yarandı?

İlk əvvəl, biz dərk etdik ki, ABŞ-dakı Azərbaycan diasporunun illər boyunca ABŞ Azərbaycan əlaqələrini inkişaf etdirmək, Amerikadakı azərbaycanlıların diasporum güclü və təsirli icmaya çevirmək və erməni lobbisinin təbliğatını dəf etmək, hətta əks hücuma keçmək məqsədilə reallaşdığı fəaliyyətlərə baxmayaraq, bu səylər dağınıq idi, kifayət qədər təşkilatlandırılmamışdı və lazımi qədər iştirakçı cəlb etməmişdi. Məhz ona görə də, 2007-ci ildə, müxtəlif cəmiyyətlərin başçıları və fəallarıyla keçirilən çoxsaylı məsləhətləşmələrdən sonra, mən, Bədir Məmmədli və Yusif Babanlı Amerika Azərbaycanlıları Şəbəkəsini (USAN) yaratdıq. Amerika Azərbaycanlıları Şəbəkəsi (USAN) Azərbaycan diasporunun ABŞ-da 501(c)(4) nömrəli yüksək statusunu alan yeganə təşkilatıdır və bu o deməkdir ki, ABŞ hökuməti bizim təşkilata Azərbaycan diasporunun siyasi maraqlarını təbliğ və müdafiə etmək üçün (ingiliscə buna advocacy deyilir) rəsmi icazə vermişdir.

Bu təşkilatın məqsədi bütün siyasi səyləri birləşdirmək, ABŞ Konqresində və bütün ştatların parlamentlərində (məlumdur ki, ABŞ-da 50 ştat və başqa yurisdiksiyalar var) və Amerika mediasında tək səslə danışmağımızı təmin etməkdir. 2008-ci ilin yanvar ayından bəri fəal kampaniyalarımızı başlatdıqdan sonra, USAN sadəcə bizim gözləntilərimiz və ümidlərimizə nail olmadı, onları üstələdi belə. Bu, sadəcə bizim fikrimiz deyil, bunu hətta ABŞ, Rusiya və ermənistanlı siyasi analitiklər də qeyd edirlər ki, USAN Azərbaycan diasporunun aparıcı təşkilatlarındandır. Bizim müvəffəqiyyətlərimizi görərək, Türk-Amerikan icması ABŞ Türk Şəbəkəsini (USTN) də birlikdə yaratmağımız üçün bizə müraciət etdi və 2008-ci ilin sonunda bu təşkilat yaradıldı və bütün türkdilli amerikalıların səylərini birləşdirmiş oldu.

Biz hətta, “Qarabağ” Fondunu da yaratmışıq.

USAN və USTN-ın vasitəsilə, biz öz istəklərimizi və tələblərimizi Amerikanın siyasətçilərinə, siyasi elitasına və qərar qəbul edənlərə çatdıra bilirik. Buna baxmayaraq, zəngin Azərbaycan tarixi, mədəniyyəti və incəsənətilə əlaqədar məsələlərə ABŞ- da və doğrusunu desək, bütün dünyada, kifayət qədər diqqət yetirilmirdi və onlar ardıcıl və peşəkar surətdə təbliğ edilmirdi. Bunu da nəzərə almaq lazımdır ki, USAN-ın sözügedən məsələlərlə məşğul olmasına imkanı yox idi və bunlar, ümumiyyətlə, onun missiyasından kənarda idi. Buna görə də, 2009-cu ildə mən, professor Hamlet İsaxanlı və doktor Con Vəfai birlikdə “Qarabağ” Fondunun əsasını qoyduq. Fond üçün Qarabağ adını seçməyimiz də təsadüfi deyil, çünki Qarabağ bizim üçün müqəddəs bir addır və hər azərbaycanlı üçün mədəniyyət və incəsənətlə bağlıdır. “Qarabağ” Fondunun bir çox geniş fəaliyyətləri

olmuşdur və onları burada sadalamağa imkanımız yoxdur, məsləhət görərdim ki, bu fondun veb saytına daxil olasınız və illik və rüblük hesabatları oxuyasınız: www.KarabakhFoundation.org

Hal-hazırda USAN-ın idarə heyətində doktor Ceyhun Mollazadə, doktor Ümit Güneyi (yeri gəlmişkən o, türkdür), doktor Azər Təbrizli (o, Cənubi Azərbaycandandır), doktor Nigar Qasımova və Mehriban Əfəndiyeva kimi tanınmış insanlar vardır. Məqsədimiz, bacarıqlı və peşəkar şəxslər tərəfindən idarə edilən diaspor təşkilatının bir çox şeyə nail ola biləcəyini və eyni zamanda çoxsaylı dünya və ölkə rekordlarını əldə edə biləcəyini göstərmək idi.

Bu vaxta kimi hansı işləri reallaşdırmışıq?

Amerika Azərbaycanlıları Şəbəkəsinin (USAN) üstün cəhəti ondan ibarətdir ki, bizim təsirimiz və müvəffəqiyyətlərimizə dair çox konkret statistika və faktlar mövcuddur. Buna aşağıdakılar daxildir:

- bütün ABŞ siyasətçilərinə (bunların arasında Konqres, Prezident Administrasiyası, ştatların hökumətlərində işləyən rəsmilər, kütləvi informasiya vasitələri və QHT-lər də var) 200,000- dən çox məktub göndərilmişdir;
- siyasətçilərdən yüzlərlə məktub alınmışdır;
- təxminən 60 məqalə Kaliforniya, Texas, Şimali Karolina, Nyu-York, Şimali Dakota, Florida, Vaşinqton və digər ştatlardakı qəzetlərdə nəşr edildi;
- Amerikanın müxtəlif ştatlarının qubernatorları və şəhər merləri tərəfindən 100-dən yuxarı rəsmi bəyannamə qəbul edilmişdir, həmçinin Naxçıvan, Kərki və Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olduğuna dair;
- həmçinin, dünyada ilk dəfə Azərbaycanın xaricində 31 Mart Soyqırımı Gününün "Azərbaycan Xatirə Günü" olaraq tanınmasına dair Nevada Qubernatorunun tarixi bəyannaməsi.

Biz bu nailiyyətə görə xüsusilə fəxr edirik ki, dünyada ilk dəfə Azərbaycan diasporunun və Xocalı Soyqırımının tanınmasına dair 4 parlament qərarı qəbul edildi. Başqa sözlə, Amerika Azərbaycanlıları Şəbəkəsi (USAN) dünyada Amerika ştatlarının parlamentləri tərəfindən Xocalı Qırğınının tanınmasına nail olan birinci və yeganə Azərbaycan təşkilatı oldu.

Bundan əlavə, Amerika Azərbaycanlıları Şəbəkəsi (USAN) və Amerika Türkləri Şəbəkəsi (USTN), həmçinin "Siyahıyaalma- 2010" kampaniyası çərçivəsində rəsmi tərəfdaş olaraq ABŞ hökuməti tərəfindən tanınan birinci türkdilli Amerika təşkilatları oldu. Həmçinin, "Politiko" (Politico), RFE/RL və "Vaşinqton Tayms" kimi media orqanları USAN-ı Amerikadakı azərbaycanlıların ANCA və AAA kimi erməni lobbi qruplarının fəaliyyətlərinə əks-təsir göstərən aparıcı təşkilatı olaraq qəbul etdi.

Bunun kimi bir sıra başqa nailiyyət və nəticələrimiz də var, amma burada onların hamısını sadalamaq çox çətin olar.

Amerikada Azərbaycan diasporunun inkişafı üçün sizcə, daha hansı işlər görülməlidir?

Bilirsiniz, bu həqiqətən də, çətin sualdır, çünki burada söhbət pul, təşkilatların və ya adamların sayı kimi ölçülə bilən şeylər haqqında getmir. Burada söhbət, diasporumuzun daha çox maarifləndirilməsi və məlumatlandırılmasıyla əlaqədardır.

Həmçinin, bu, işə daha çox can atmağımız və diaspor fəaliyyətinə daha fəal qoşulmağımızla əlaqədardır. Mən əminliklə deyə bilərəm ki, əgər ABŞ-da bütün azərbaycanlılar bizim məktublardan birisini göndərsələr, ayda heç olmasa, üç Konqres üzvünə telefonla zəng etsələr, ildə bir dəfə konfranslarda və tədbirlərdə iştirak etsələr və məsləhət gördüyümüz digər işləri həyata keçirsələr, nəticələrimizi bir neçə dəfə artırmaq olar. Ancaq Amerikada yaşayan və ya Amerikada yaşayan kimlərisə tanıyan hər bir şəxsin atacağı ilk addım, bu saytdan http://action.USAzeris.org bir neçə aksiya məktubu göndərərək Amerika Azərbaycanlıları Şəbəkəsinə (USAN) üzv olmaqdır.

**AVROPA AZƏRBAYCANLILARI KONQRESİNİN PREZİDENTİ BAŞAR KÖMÜRÜN ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli Prezident!

Dəyərli qurultay nümayəndələri!

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Xanımlar və cənablar!

“Biz nə üçün buradayıq” sualı ilə çıxışıma başlaya bilmərəm. Bizi buraya çağırıb gətirən bir səs var - o da müstəqil Azərbaycanın haqq səsidir. Bu səs, hər bir imperiya kimi, zamanı gələndə Sovetlər İttifaqının da dağılacağını demiş Böyük Mustafa Kamal Atatürkün, “Biz bir millət, iki dövlətik deyən ulu öndər Heydər Əliyevin və eləcə də, “Qardaşın qardaşa borcu olmaz”- deyən Nəriman Nərimanovun səsidir. Bu səs, “Biz mütləq işğal altında olan torpaqlarımızı azad edəcəyik, Qarabağımızı yağılardan təmizləyəcəyik, biz 50 milyonluq böyük bir xalqıq”- deyən İlham Əliyevin səsidir. Bu səs “Avroviziya”dakı türkün səsidir.

Bu qurultay bu fikirləri paylaşan, bütün həmfikirlərin qurultayıdır.

Millətsiz dövlət, dövlətsiz diaspor ola bilməz.

Dövlət Başçımızın rəhbərliyi altında Diasporla İş üzrə Dövlət Komitəsi, dünyanın hər tərəfində Azərbaycanın mənafelərinin qorunması, haqlarının müdafiə olunması, Azərbaycana daha çox dostların qazandırılması üçün və millətimizin dilinin, dininin, adət-ənənələrinin qoruna bilməsi üçün mümkün olan hər şeyi edir və bundan sonra da edəcəkdir.

Bu gün Azərbaycan dünyanın tanınan, bilinən və sayılan bir ölkəsi olmuşdur. Mədəni və iqtisadi uğurları ilə irəliləyir, hər gün daha da güclənir.

Böyük işlər görülür. Azərbaycan diasporu dövlətinin dəstəyi ilə çıxdığı yolda əmin addımlarla irəliləyir. Aparılan ardıcıl və doğru siyasət nəticəsində keçən yüz ildə ermənilərin törətdikləri əməllərə qarşı etiraz etməklə keçirdiyimiz dövrə son qoyulmuşdur. Dövlətimizin və onun siyasətinin təqibçisi olan diasporun çox ciddi iş aparması nəticəsində, artıq etiraz edən tərəf ermənilər olmağa başlayıb. Bizlər aksion, ermənilər isə reaksion vəziyyətinə düşüblər.

Azərbaycanın ən böyük sərvəti onun xalqı, milləti və özəlliklə də onun gələcəyi olan gəncləridir. Dövlət başçımızın qayğısı nəticəsində, bu gün minlərlə gənc xaricdə təhsil alır. Bu gənclər

Azərbaycanın bayrağındakı qırmızı rəng kimi çağdaşlığın simvoludurlar. Gəncliyə qoyulan bu yatırımlar Azərbaycan dövlətinin gələcəyinin daha da güclü olacağına bir təminatdır. Dövlətimizin gəncliyə olan qayğısını 2010-cu ildə Frankfurtda keçirilən gənclərin qurultayında bir daha hiss etdik.

Bu gün yenidən dünyaya bəyan edirik ki, bizim hədəfimiz Qarabağı və ətrafındakı işğal olunmuş torpaqları nəyin bahasına olursa olsun, yağı düşməndən azad etmək, köçkünlərimizi də öz dədə-baba yurdlarına qaytarmaqdır. Oradakı yaşanmış böyük tarixi mirası və mədəniyyəti qorumaq ancaq və ancaq bizim haqqımızdır. Bu haqqın bir yada verilməsinə göz yummaq üçün bizim heç bir mənəvi haqqımız yoxdur.

Azərbaycan son on ildə böyük uğurlara imza atmış və gündən- günə inkişaf edən bir ölkəyə çevrilib. Sovetlər İttifaqı dağılandan sonra Azərbaycan daim yüksələn, sülh və hüzur içində yaşamaq istəyən bir dövlət olmuşdur. Ancaq biz bu dünyada təkbaşına deyilik, istənilməyən güclər tərəfindən hər zaman problemlər yaranacaq, problemi olmayan bir ölkə onsuz da ola bilməz. Bu səbəbdən Azərbaycan da dünya hüququ çərçivəsində problemlərini həll etmək üçün səbrlə çalışır. Real siyasət apararaq, gərəkli nəticəni əldə etmək üçün səbrlə yolumuza davam etməliyik. Biz bu yolda tək deyilik, qardaşımız Türkiyə ilə birlikdə Qafqazda sülhün qapısının Azərbaycanın işğal altındakı torpaqlarından keçəcəyi dosta-düşmənə elan edilmişdir. Bu məsələ həll olunmadan sülhün Qafqaza gəlməyəcəyi qərarlıqla dünyaya izah edilmişdir.

Hörmətli Dövlət Başçımız!

Siz bu yolda tək deyilsiniz. Azərbaycan diasporu yanınızdadır, Biz Sizinləyik.

Bu qurultay: - "Bir dəfə yüksələn bayraq bir daha enməz", "Çırpınırdı Qara dəniz, baxıb Türkün bayrağına", "Azərbaycanın müstəqilliyi dönməz olacaq, sarsılmaz olacaq", "Fəxr edirəm ki, mən Azərbaycanlıyam"- deyənlərin qurultayıdır.

Bu qurultay Təbrizin, Mosulun, Kərkükün, Hələbin, Kiprin, Qəzzanın, Krımın, qərbi Trakyanın səsini eşidənlərin qurultayıdır. Qarabağdan köçürülənlərin, məzlumlarım, zülmə məruz qalanların, onların fəryadını eşidənlərin qurultayıdır.

Bu qurultay - milləti üçün bu gün edilməsi lazım olan hər nə varsa, əlindən gələni edən, Azərbaycanın danılmaz həqiqətlərini dünyaya eşitdirənlərin qurultayıdır.

Bu qurultay - 2001-ci ildə yola çıxanların, 2006-ci ildə isə "Haqq verilməz, alınır"- deyənlərin, bu gün də, güclülərin deyil, haqlıların haqqını müdafiə edənlərin qurultayıdır.

Azərbaycan söz mövzusu olduğunda, dünyanın hər bir yerində onun haqlarını müdafiə edənlərin, yəni, dünyanın ən böyük ailəsi - Azərbaycan diasporunun və onun dəyərli dostlarının qurultayıdır.

Salam olsun - Türk dünyasına!

Salam olsun - Azərbaycan üçün yola düşənlərə!

Salam olsun - Dövlət Başçımız İlham Əliyevin şəxsində bütün millətimizə!

Hörmətli Dövlət Başçımız, biləsiniz ki, biz bu ölkədə yaşamasaq da, bu Vətən və Sizlər hər zaman bizim ürəyimizdəsiniz.

Bizim ən böyük sərvətimiz Sizlər və Azərbaycandır.

Sağ olun, var olun!

Tanrı Sizi qorusun.

**TÜRKİYƏNİN KEÇMİŞ TURİZM NAZİRİ,
AZƏRBAYCAN-TÜRKİYƏ HƏMRƏYLİK VƏ
İNKİŞAF FONDUNUN İDARƏ HEYƏTİNİN ÜZVÜ
İLHAN AKÜZÜMÜN
ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli Prezident!

Azərbaycan xalqının ümummilli lideri, böyük dövlət xadimi, Azərbaycanı ən ağır günlərində uçurumun kənarından çıxarıb bugünkü müstəqil Azərbaycanı yaradan və hamımızın qəlbində əbədi yaşayacaq mərhum Prezident Heydər Əliyevin (xatirəsini rəhmətlə, ehtiramla yad edirəm) başlatdığı, bu gün Zati-alilərinin göstərişi ilə üçüncüsünü yaşadığımız Dünya azərbaycanlılarının qurultayında iştirak etməkdən şərəf duyuram.

Mən də, kökləri Azərbaycanın Gəncə şəhərinə söykənən, o dövrlərdə Azərbaycanın müstəqilliyi və bugünkü Dağlıq Qarabağda aparılan mübarizənin bənzərini aparan, heç bir zaman Azərbaycan sevgisini unutmayan, bir gün müstəqilliyə qovuşacağı həyəcanı və inancı ilə yaşayan bir ailənin üzvü, övladı, eyni zamanda, qürur və şərəf duyduğum Türkiyə vətəndaşı və mühüm vəzifələrdə xidmət etmiş keçmiş bir siyasətçi olaraq, bu gün burada - müstəqil Azərbaycanda olmaqdan böyük xoşbəxtlik duyuram. Bu duyğu və düşüncələrlə Zati-alilərini və Sizin şəxsinizdə bütün Azərbaycan xalqını və dəyərli qonaqları dərin hörmətlə salamlayıram.

Hörmətli cənab Prezident!

Uzun-uzadı danışaraq qiymətli vaxtınızı almaq istəmirəm. Daha əvvəl qeyd etdiyim bəzi məqamları qısa ifadə etməyə çalışacağam.

Son illərdə Azərbaycanda heç bir ölkə ilə müqayisə edilə bilməyəcək şəkildə inkişaf olduğu, Azərbaycanın bir cazibə mərkəzi halına gəldiyi və etibarının yüksəldiyi və yüksəlməyə davam etdiyi göz qabağındadır. Bunun əksini heç kim söyləyə bilməz. Söyləmək istəyərsə səhv etmiş olar. Çünki mənim bu dediklərim rəsmi sənədlərə əsaslanan həqiqətdir. Bunun tək bir səbəbi vardır: Azərbaycan etibarlı əllərdədir, yaxşı idarə olunur. Buna görə Zati-alilərinə təşəkkür edir, təbrik edir, minnətdarlıq duyğularımı bildirirəm.

Hörmətli cənab Prezident!

Azərbaycan-Türkiyə əlaqələrinə gəlincə, bəzən müxtəlif fikirlər səslənir. Bunlara etibar etməmək lazımdır. Çünki dövlət arxivləri yalan danışmaz. Türkiyə Respublikasının arxivləri “Türkiyə Azərbaycansız, Azərbaycan Türkiyəsiz ola bilməz” deyir. Bu sözlər türk xalqı tərəfindən də bir manifest kimi qəbul edilir. Tarix boyunca Türkiyə və Azərbaycan əlaqələri həqiqi sevgi üzərində qurulmuşdur.

Hörmətli cənab Prezident!

Türkiyədə təxminən 3 milyon Azərbaycan mənşəli insan yaşayır. Ancaq Azərbaycan sevgisi ilə yaşayan insanların sayı 3 milyonla məhdudlaşmır. Türkiyədə kiçikdən böyüyə - ən kiçik dövlət məmurundan Prezidentə

qədər hər kəs Azərbaycan sevgisini yaşayır. İcazə versəniz, mərhum Prezident Turqut Özalın Azərbaycana olan sevgisi ilə əlaqədar bəzi düşüncələrimi və yaşadıqlarımı sizlərə bildirim.

Mən uzun müddət siyasətdə olan bir ailənin övladıyam. 1983- cü ildə mərhum Turqut Özal ilə siyasətə başladım. Onun partiyasından deputat olaraq parlamentə daxil oldum. Daha sonra o, Baş nazir olduğu dövrdə turizm naziri oldum, eyni zamanda, ilk qurultayda partiyanın rəhbər heyətinə seçildim. Həm parlamentdə, həm hökumətdə, həm də partiyada olmağım onunla çox tez-tez görüşməyə imkan verirdi.

Mən Azərbaycan mənşəli, Azərbaycan türklərindən olduğum üçün o, Azərbaycanla bağlı mövzuları mənimlə paylaşar və bəzən mübahisə edərdi, müzakirə edərdi. O, tez-tez deyərdi ki, "Azərbaycan bir gün müstəqilliyinə qovuşacaqdır". Necə ki, Azərbaycan müstəqilliyinə qovuşdu.

Turqut Özal o dövrdə Prezident idi, mən də hökumətdə nazir idim. Turqut Özal Nazirlər Kabinetini çağırdı və həmin gün Azərbaycanın müstəqilliyini tanıdıq. Dünyada Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət Türkiyə dövləti oldu. Özü də ən az mənim qədər xoşbəxt olmuşdu. Məni Azərbaycanın müstəqilliyini tanıyan hökumətdə olmağım çox təsirləndirmiş və qürurlandırmışdı.

Azərbaycan dövləti yeni qurulduğu üçün kiçik maneələri var idi. Mərhum Heydər Əliyev Prezident olduqdan sonra mərhum Turqut Özal "Nəinki bugünkü Azərbaycanın, sabahkı Azərbaycanın da əsası qoyulmuşdur" dedi və haqlı çıxdı.

Doqquzuncu Prezident cənab Süleyman Dəmirələ gəldikdə isə onun Azərbaycana olan marağını, sevgisini, mərhum Heydər Əliyev ilə olan dostluğunu, məhəbbətini və Azərbaycan xalqının ona olan sevgisini, mən bilmirəm, izah etməyə ehtiyac varmı?

Yaxşı, indiki Prezident cənab Abdullah Gülə gəlincə (bizdən daha sonra siyasətə başlamış olmasına baxmayaraq), ən az iki-üç çağırış parlamentdə onunla birlikdə olduq. Azərbaycana olan sevgisi, marağı, məhəbbəti digər iki Prezidentimiz - mərhum Turqut Özal və hörmətli Süleyman Dəmirəldən fərqli deyildir.

Hörmətli cənab Baş nazirimiz Rəcəb Tayyib Ərdoğan həmişə Azərbaycan xalqının yanında olmuş və Dağlıq Qarabağ məsələsində qətiyyətli və dik dayanmış, dayanmağa da davam edir və hər kəsin təqdirini qazanmışdır. Müxtəlif münasibətlərlə keçirdiyi rəsmi və ya qeyri-rəsmi toplantılarda Baş nazir dəfələrlə "Dağlıq Qarabağ işğalı sona çatmadan Ermənistan ilə masaya oturmarıq, heç kim mənim qapıma "qapılar açılsın!" deyə gəlməsin" demişdir. Buna görə ona təşəkkür və minnətdarlıq duyğularımı ifadə edirəm.

Müxalifət partiyalarına gəldikdə isə, cənab Kılıçdaroğlunun və partiyasının Azərbaycana olan marağı, sevgisi və mövqeyi təqdirəlayiqdir. Milliyyətçi Hərəkat Partiyasının sədri cənab Dövlət Bağçalı "Azərbaycan sevgisi onsuz da bizim genlərimizdə vardır" deməmişdirmi? Bu da Türkiyənin 7-dən 70-ə Azərbaycana sevgisinin bir ifadəsidir.

Hörmətli cənab Prezident!

Bir neçə cümlə ilə erməni məsələsinə də toxunmaq istəyirəm. Qarabağ tək Azərbaycanın deyil, eyni zamanda, bütün türk dünyasının qanayan yarasıdır. Burada olan azərbaycanlıların ən əhəmiyyətli işi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək olmalıdır, hər kəs işini-gücünü buraxıb bu işlə məşğul olmalıdır.

Bölgədə sabitliyin, daimi sülhün təmin edilməsi üçün Ermənistan işğal etdiyi torpaqlardan bir an əvvəl çəkilməlidir. Ancaq o zaman Azərbaycan-Ermənistan əlaqələri normallaşa bilər.

Mən son zamanlar Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesində irəliləyişlərə ümidlə baxıram. Başda ABŞ və Rusiya Federasiyası olmaqla, bütün dünya dövlətlərinin Azərbaycanın yanında və səmimi olduqlarına, bu məsələnin də sülh yolu ilə həll ediləcəyinə bütün ürəyimlə inanıram.

Hörmətli cənab Prezident!

Sözlərimi bitirmədən əvvəl, bir az da bu əlaqələrdəki gizli qəhrəmanlardan bəhs etmək istəyirəm. Azərbaycan diasporuna, onun hörmətli sədri cənab Nazim İbrahimova Türkiyə-Azərbaycan münasibətlərində göstərdiyi xoş niyyət, inanılmaz xidmətlərinə görə çox təşəkkür edirəm.

Eyni zamanda, Azərbaycanın Türkiyədəki səfirinə, Xarici İşlər Nazirliyinin əməkdaşlarına, bizim Azərbaycandakı səfirliyimizə və iş yoldaşlarına, parlamentlərarası dostluq qrupu rəhbərləri və

üzvlərinə, ən əhəmiyyətlisi isə Azərbaycan hökumətinə, çox hörmətli nazirlərə və cənab Baş nazirə göstərdikləri bu mübarizəyə

və fədakarlığa görə təşəkkür edirəm.

Hörmətli cənab Prezident!

Sözlərimi burada bitirərkən Zati-alinizi ən dərin hisslərimlə, ən səmimi duyğularımla, bütün qəlbimlə salamlayır, Sizin şəxsinizdə bütün Azərbaycan xalqına xoşbəxtliklər və uğurlar diləyirəm.

Çox sağ olun

* * *

Çıxışlar başa çatdıqdan sonra Dünya azərbaycanlılarının III qurultayının sənəd layihələrinin müzakirəsinə başlanıldı. Sənəd layihələri ilə qurultay nümayəndələrini tanış etmək üçün söz Azərbaycan Respublikası Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri. Dünya azərbaycanlılarının III qurultayı Redaksiya Komissiyasının sədri Əli Həsənova verildi.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ İCTİMAİ-SİYASİ MƏSƏLƏLƏR ŞÖBƏSİNİN MÜDİRİ, DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYI REDAKSİYA KOMİSSİYASININ SƏDRİ ƏLİ HƏSƏNOVUN ÇIXIŞI**

*5 iyul 2011-ci il*

Hörmətli qurultay nümayəndələri!

Hörmətli qonaqlar!

Beləliklə, qurultayımız başa çatmaq üzrədir və qurultayın reqlamentinə müvafiq olaraq, yekun sənədlər qəbul olunmalıdır.

Əvvəla, diqqətinizə çatdırım ki, bugünkü qurultayda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin proqram xarakterli geniş nitqindən əlavə, Diasporla İş üzrə Dövlət

Komitəsinin sədri cənab Nazim İbrahimovun məruzəsindən əlavə xeyli çıxış dinlənildi. Bu çıxışlarda təxminən, 30-35 müxtəlif təkliflər səsləndirildi. Bu təklifləri, qurultay nümayəndələrinin iradəsini və qurultay ərəfəsində hazırlanmış qətnamə və digər sənəd layihələrini nəzərə alaraq, diqqətinizə dörd sənəd təqdim etmək istəyirəm.

Bu sənədlərdən birincisi, qurultayın Qətnaməsidir. Qurultayın Qətnaməsi layihə halında sizə təqdim olunan qovluğun içərisində var və mən əminəm ki, qurultay nümayəndələri bu qətnamə layihəsi ilə tanış olublar. Ona görə də, mən əlavə vaxt almamaq üçün, qətnaməni oxumaq fikrində deyiləm. Əgər qurultay nümayəndələri buna səs versələr, bu qətnaməni əsas kimi qəbul edərik. Sonra qurultayda səsləndirilmiş əlavə fikirləri, təklifləri, mülahizələri də Redaksiya Komissiyasına verilən səlahiyyət çərçivəsində biz ümumiləşdirərik və müvafiq vəziyyətə gətirəndən sonra qurultay nümayəndələrinin hər birinə sonrakı dövrdə bunu göndərərik. Ümumi şəkildə, bu qətnaməyə əsas kimi səs vermək olar. Buradakı səsləndirilən təkliflər Redaksiya Komissiyası tərəfindən nəzərə alınacaqdır. Əgər etiraz etmirsinizsə, qətnaməni mən səsə qoyuram. Kim bu sənədin əsas kimi qəbul olunmasının lehinədirsə, xahiş edirəm, səs versin.

Əleyhinə, bitərəf qalan yoxdur.

Təşəkkür edirəm.

Qurultay nümayəndələrinin adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət layihəsi hazırlanıbdır. Layihə sizə paylanmış qovluqların içərisində var. Layihə ilə Redaksiya Komissiyasında tanış olmuşuq. Demək olar ki, qurultayda səsləndirilən əsas fikirlər, ifadələr, eyni zamanda, təkliflər, qurultay nümayəndələrinin cənab Prezidentə çatdırmaq istədiyi fikirlər layihədə öz əksini tapıbdır. Lakin sonrakı çıxışlarda digər mülahizələr də, o cümlədən, cənab Prezidentə ünvanlanan fikirlər də səsləndirildiyinə görə bu layihəni də əsas kimi qəbul olunmaq üçün səsə qoymaq istəyirəm. Ümumi şəkildə bu müraciəti qəbul edək.

Burada səsləndirilmiş fikir və mülahizələri də əlavə etmək səlahiyyətini Redaksiya Komissiyasına verək. Sənəd sabah tamamlansın və mətbuatda və televiziyada səsləndirilsin, eyni zamanda, cənab Prezidentə ünvanlansın. Əgər bu fikirlə razısımzsa, qurultay nümayəndələrinin səsverməsinə qoyuram. Kim bu fikirlə razıdırsa, xahiş edirəm səs versin.

Əleyhinə, bitərəf yoxdur.

Təşəkkür edirəm.

Qurultayın adından qəbul olunacaq digər müraciət dünya azərbaycanlılarına ünvanlanan müraciətdir. Bilirsiniz ki, bugünkü qurultayda dünya azərbaycanlılarının seçilmiş səlahiyyətli nümayəndələri iştirak edir. Lakin seçilmiş səlahiyyətli nümayəndələrin iştirakı ilə təşkil olunan bu qurultayın ümumi müraciətini biz dünyada yaşayan 50 milyonluq soydaşlarımıza çatdırmalıyıq. Qurultayda səsləndirilən digər fikirlər, eyni zamanda, layihədə əvvəlcədən hazırlanmış müxtəlif mülahizələr nəzərə alınmaqla, Dünya azərbaycanlılarının III qurultayı adından bir ümumi müraciət hazırlanmışdır. Qurultayın gedişində digər mülahizələr, fikirlər də səsləndirildi. Ona görə də bu sənədi də eynilə əvvəlki iki sənəd kimi Redaksiya Komissiyasına sənədi tamamlamaq və müvafiq vəziyyətə gətirməklə bağlı səlahiyyət istəməklə, səsə qoyuram.

Kim bu sənədin əsas kimi qəbuluna tərəfdardır, xahiş edirəm, səs versin.

Əleyhinə, bitərəf qalan yoxdur.

Təşəkkür edirəm.

Qurultayımızın adından - Dünya azərbaycanlılarının III qurultayı adından Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına bir müraciət mətni hazırlanıbdır. Bu da layihədir. Qurultayın Təşkilat Komitəsi, eyni zamanda, Redaksiya Komissiyası bu müraciətin ümumi layihəsini hazırlayıbdır.

Amma qurultayda gördüyünüz kimi, müxtəlif ölkələri təmsil edən diaspor nümayəndələri, eyni zamanda, qurultayımıza dəvət olunmuş xarici vətəndaşlar, xarici parlament və digər hökumət nümayəndələri Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı müxtəlif fərqli fikirlər səsləndirdi. Ona görə də bu müraciəti də mən səsləndirmək istəmirəm. Qurultay nümayəndələrindən səlahiyyət istəyirəm ki, Redaksiya Komissiyası bu müraciətin də üzərində işləsin. Bugünkü səslənən fikir və mülahizələri bura daxil etsin və burada adı çəkilən xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına, eyni zamanda, müxtəlif beynəlxalq təşkilatların ofislərinə çatdırsın. Əgər etiraz etmirsinizsə, sənədi əsas kimi səsə qoyum.

Kim sənədin bu şəkildə qəbul olunmasına tərəfdardır, xahiş edirəm, səs versin.

Əleyhinə, bitərəf qalan yoxdur.

Təşəkkür edirəm.

Burda Qətnaməyə əlavə iki təklif səsləndi. Təkliflərdən biri ondan ibarətdir ki, qurultaylararası müddətdə dünya azərbaycanlılarının koordinasiyasını daha mütəşəkkil şəkildə həyata keçirmək və dünya azərbaycanlılarının fəaliyyətini daha sıx şəkildə əlaqələndirmək üçün Məşvərət Şurası yaradılsın. Bu təklif hörmətli türkiyəli millət vəkili Sinan bəy Oğan tərəfindən səsləndirildi. Qurultay nümayəndələrinin diqqətinə çatdırmaq istəyirəm ki, təxminən buna oxşar qurultayın yaratdığı bir Ali orqan - Dünya Azərbaycanlılarının

Əlaqələndirmə Şurasi artıq mövcuddur. Əgər qurultay nümayəndələri bunu məqbul hesab edirsə, I qurultay tərəfindən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüs və təklifi ilə yaradılmış Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının yenidən fəaliyyətini davam etdirməsinə münasibət bildirək və Əlaqələndirmə Şurasının yeni tərkibini seçək.

Əlaqələndirmə Şurasının fəaliyyətinin operativliyini təmin etmək məqsədilə Təşkilat Komitəsi ilə belə bir məsləhətləşmə aparılmışdır ki, Şuranın İcra Katibliyini təsis edək. Hal-hazırkı Əlaqələndirmə Şurasının İcra Katibliyi yoxdur. Onun əvəzinə Əlaqələndirmə Şurasının Rəyasət Heyəti var. Lakin Rəyasət Heyəti də ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılardan ibarət olduğuna görə onları tez-tez bir yerə toplayıb bu və ya digər operativ qərarlar vermək və yaxud da Əlaqələndirmə Şurasının operativ işini təmin etmək texniki baxımdan bir qədər çətindir.

Ona görə sizin müzakirənizə və səsvermənizə iki məsələni çıxartmaq istəyirəm. Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının fəaliyyəti davam etdirilsin və Əlaqələndirmə Şurasının İcra Katibliyi yaradılsın. Xahiş edirəm, kim bu məsələyə tərəfdardırsa, münasibət bildirsin. Kim lehinədir, əleyhinə, bitərəf qalan yoxdur. Deməli, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurası bundan sonra da öz fəaliyyətini davam etdirəcək. Lakin onun tərkibində Rəyasət Heyətinin əvəzinə İcra Katibliyi olacaq.

İkinci bir təklif, Əlaqələndirmə Şurasının əvvəlki illərdə rəhbərliyində sədri vəzifəsinə, Azərbaycanın müxtəlif tanınmış ziyalıları, müxtəlif ictimai və qeyri-hökumət təşkilatlarının nümayəndələri də daxil olmaqla, onun Sədri seçilmiş, Rəyasət Heyəti formalaşdırılmışdır.

Bugünkü qurultay nümayəndələrinin və bundan əvvəl Təşkilat Komitəsinin də müzakirələri nəticəsində belə qərara gəlindi ki, xaricdə yaşayan soydaşlarımıza daim diqqət və qayğı ilə yanaşan, dünya azərbaycanlıların birliyi və həmrəyliyinin təmin olunmasına xüsusi önəm verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasına sədrlik etməyi xahiş olunsun.

Təşəkkür edirəm, sizin alqışlarınızı bu məsələyə bildirilən münasibət kimi qəbul edirəm. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının Sədri seçildi.

Təşəkkür edirəm.

Hörmətli qurultay nümayəndələri!

İndicə qəbul etdiyimiz Qətnaməyə əlavə və dəyişikliklərə müvafiq olaraq qurultay nümayəndələri Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının İcraçı Katibini seçməlidir. Qurultaydan əvvəl Təşkilat Komitəsinin məsləhətləşməsi nəticəsində belə bir qərar sizin müzakirənizə çıxarılır ki, bu işin operativliyini təmin

etmək məqsədilə Azərbaycanda diaspor siyasətinin ümumi koordinasiyasını həyata keçirən və bu sahə ilə məşğul olan Dövlət Komitəsinin sədri olan hörmətli Nazim İbrahimovu Dünya Azər-baycanlılarını Əlaqələndirmə Şurasının İcraçı katibi vəzifəsinə təklif edək. Kim buna tərəfdardırsa, xahiş edirəm, buna münasibət bildirsin. Əleyhinə, bitərəf qalan yoxdur. Deməli, Nazim İbrahimov Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının İcraçı Katibi seçildi. Bununla bağlı bir qərar da qalır: Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının tərkibi.

Əvvəlki, iki qurultayda Dünya Azərbaycanlılarını Əlaqə-ləndirmə Şurasının tərkibi 107 nəfərdən ibarət idi. 107 nəfərdən əlavə, bugünkü qurultayda qurultay nümayəndələri Redaksiya Komissiyasına yazılı şəkildə Əlaqələndirmə Şurasının üzvlüyünə digər namizədlər də təqdim ediblər və bu siyahıya əlavə olunub. İndi sizə təqdim olunan siyahı üzrə Əlaqələndirmə Şurasının tərkibini səsə qoymalıyıq. İki təklif var - Əlaqələndirmə Şurasının üzvlərini ayrı-ayrılıqda və ümumi siyahı şəklində səsə qoyaq.

Kim Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının ümumi siyahı ilə səsə qoyulmasının tərəfdarıdır, xahiş edirəm, münasibət bildirin.

Əleyhinə, bitərəf qalan yoxdur.

Qəbul olunur.

Dünya azərbaycanlılarının say tərkibinin 115 nəfərdən ibarət olmasına biz münasibət bildirməliyik.

Kim Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının say tərkibinin 107 nəfərdən 115 nəfərə qədər artırılmasına tərəfdardırsa, xahiş edirəm, münasibət bildirsin.

Əleyhinə, bitərəf qalan yoxdur.

Beləliklə, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasını 115 nəfərdən ibarət ümumi siyahı ilə təqdim etmək qərarına gəldik.

Kim bu siyahıda göstərilən və bugünkü qurultay nümayəndələrinə əlavə təkliflər nəticəsində tamamlanan 115 nəfərdən ibarət Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının yeni tərkibinin təsdiq olunmasına tərəfdardırsa, xahiş edirəm, münasibət bildirsin. Əleyhinə, bitərəf qalan yoxdur. Deməli, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurası 115 nəfərdən ibarət -107-si burada göstərilmək və digər 8 nəfəri qurultay nümayəndələrinin təklifləri nəticəsində yazılı şəkildə təqdim olunmaq şərtilə əlavə olaraq qurultay nümayəndələrinə göndəriləcək.

Hörmətli qurultay nümayəndələri!

Beləliklə, də biz qurultayın sənədlərini qəbul etdik. Bununla da, qurultay öz işini başa çatdırır. Hər birinizə uğurlar arzulayırıq.

Diqqətinizə görə təşəkkür edirəm.

**AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ,
DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYI
MANDAT KOMİSSİYASININ SƏDRİ ZİYAFƏT ƏSGƏROVUN
MƏRUZƏSİ**

*5 iyul 2011-ci il*

Zati-aliləri, möhtərəm cənab Prezident!

Hörmətli qurultay nümayəndələri!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İcazə verin, Dünya azərbaycanlılarının III qurultayının açılışı münasibətilə Sizi təbrik edim, qurultayın işinə uğurlar arzulayım.

Dünya azərbaycanlılarının III qurultayının Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpasının 20-ci ildönümünə təsadüf etməsi bu möhtəşəm tədbirin ictimai-siyasi məzmununu daha da zənginləşdirir. Azərbaycan dinamik inkişaf edən, regionda həyata keçirilən qlobal əhəmiyyətli layihələrdə aparıcı rol oynayan və beynəlxalq aləmdə yüksək nüfuza malik qüdrətli bir dövlətə çevrilmişdir.

Xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, böyük şəxsiyyət Heydər Əliyevin qurduğu möhkəm təməllər üzərində dayanan ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında demokratik ənənələrin təşəkkülü, insan hüquq və azadlıqlarının qorunması, əhalinin sosial rifahının təmin edilməsi, vətəndaş həmrəyliyinin yaradılması, iqtisadi azadlıqların bərqərar edilməsi, dünya birliyinə inteqrasiya sahəsində bir çox nailiyyətlərə imza atmışdır. Bu uğurların qazanılmasında dünya azərbaycanlılarının birliyi və həmrəyliyi müstəsna rol oynamışdır. Dünya azərbaycanlılarının III qurultayı bu birliyin və həmrəyliyin parlaq ifadəsidir. Bu qurultay, eyni zamanda, ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarının uğurla həyata keçirildiyini bir daha təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyevin təşəbbüsü ilə 2006-cı il martın 16-da Bakıda keçirilmiş Dünya azərbaycanlılarının II qurultayı diasporumuzun tarixində yeni bir mərhələnin başlanğıcı olmuşdur. Qurultaydan keçən 5 il ərzində yeni diaspor təşkilatları yaradılmış, bir sıra regionlarda azərbaycanlı icmaların fəaliyyətini koordinasiya edən qurumlar təsis edilmişdir. Xarici ölkələrdə yaşayan və təhsil alan azərbaycanlı gənclərin, habelə mədəniyyət və incəsənət xadimləri, elm adamlarının daha geniş kontingentinin diaspor quruculuğu işinə cəlb edilməsinə nail olunmuşdur. Qurultaydan sonra Azərbaycan diaspor təşkilatlarının inteqrasiya prosesi sürətlənmiş,

Azərbaycan icmalarının dost xalqların və ölkələrin diaspor təşkilatları ilə əlaqələri inkişaf etdirilmişdir. 2007-ci ildə Bakı şəhərində keçirilmiş Dünya Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumu, Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı da türk xalqları arasında

birliyin möhkəmlənməsinə xidmət edən mühüm addımlar idi. Türkdilli xalqlar arasında əməkdaşlığın inkişafına xidmət edən bu tədbirlər Azərbaycan dövlətinin türk dünyasında nüfuzunu daha da artırmışdır.

Hörmətli qurultay iştirakçıları!

Dünya azərbaycanlılarının III qurultayı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında" 2011-ci il 21 yanvar tarixli Sərəncamına uyğun olaraq keçirilir. Qurultayın yüksək səviyyədə keçirilməsi məqsədilə Təşkilat Komitəsi yaradılmış, işçi qrupları təşkil edilmiş və digər müvafiq tədbirlər görülmüşdür.

Dünya azərbaycanlılarının III qurultayına 1272 nümayəndə seçilmişdir. Qurultayda dünyanın 42 ölkəsindən 579 nümayəndə və 211 nəfər qonaq qismində iştirak edir. Ən çox nümayəndə və qonaqlarla təmsil olunan ölkələr sırasında Rusiya Federasiyası 155, Türkiyə 101, Ukrayna 49, Almaniya 43, Gürcüstan 41, ABŞ 28, İsveç Krallığı 23, Niderland Krallığı 21, İsrail 17, Özbəkistan 13, Fransa 12, Böyük Britaniya və Şimali İrlandiya Krallığı 11, Kanada 10 nəfərlə təmsil olunmuşlar.

Qurultay nümayəndələrinin 182 nəfəri xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin rəhbərləridir.

Qurultayda Azərbaycan Respublikasının bütün bölgələrindən olan nümayəndələr iştirak edir. Azərbaycan Respublikasının dövlət və hökumət strukturları, qeyri-hökumət təşkilatları, elm, təhsil, mədəniyyət və digər yaradıcı qurumlar və siyasi partiyalardan 677 nümayəndə və 405 nəfər qonaq qurultayda iştirak edir.

Əziz həmvətənlər!

Qurultay nümayəndələri və qonaqlar yaşadıqları ölkələrin ictimai, siyasi, iqtisadi və mənəvi həyatının müxtəlif sahələrində fəal iştirak edən, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə daim dəstək verən tanınmış alimlər və ziyalılar, iş adamları, müxtəlif ölkələrin parlament üzvləri, siyasi və ictimai xadimlər, bir sözlə, Azərbaycanı sevən, onun inkişafını, çiçəklənməsini və qüdrətinin artmasını arzulayan insanlardır.

Eyni zamanda, xarici ölkələrin ali icra və hökumət orqanlarının nümayəndələri də qurultaya dəvət olunanlar arasındadır.

Qurultaya dəvət olunanlar sırasında Qırğızıstan Parlamentinin sədri cənab Axmatbek Keldıbekov, Türkiyə Respublikasının Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Qohum Topluluqlar üzrə Başkanlığın rəhbəri cənab Kemal Yurtnac, Moldova Respublikasının Qaqauz Yeri Başqanı Mixail Formuzal, Rusiya Federasiyası Xarici Ölkələrdə Yaşayan Həmvətənlərlə və Beynəlxalq Əməkdaşlıq üzrə Federal Agentliyinin idarə rəisi, general Vladislav Şvetsov, Türkiyə Respublikası Baş nazirinin müşaviri cənab Sadettin Kılıc, Gürcüstanın Kvemo-Kartli bölgəsinin qubernatoru cənab David Kirkitadze, Türkiyə Respublikasının Kocaeli Böyük şəhər Bələdiyyəsinin başçısı cənab İbrahim Karaosmanoğlu, Dağıstan Respublikasının ədliyyə naziri cənab Azadi Rəhimov və başqalarının ölkəmizə gəlişi bu tədbirin əhəmiyyətini göstərməklə yanaşı, Azərbaycanın beynəlxalq münasibətlər sistemində möhkəmlənməsinin bariz nümunəsidir. Biz onların hər birini salamlayır və bu mötəbər məclisdə görməkdən məmnunluq duyduğumuzu bildiririk.

Qurultayda qonaq qismində iştirak edən Türkiyə, Belçika, Lüksemburq, Danimarka, Gürcüstan, Estoniya, Qırğızıstan, Latviya, Litva, Moldova, Rumıniya, Rusiya Federasiyasının Dağıstan Respublikasının parlament üzvlərinə dünya azərbaycanlılarının bu ali toplantısına qatıldıqlarına görə minnətdarlığımızı bildiririk.

Azərbaycan xalqının tarixində mühüm əhəmiyyətə malik olan bu qurultayın işini işıqlandırmaq üçün qurultayda 21 xarici ölkədən 37 nəfər, eyni zamanda, respublikamızda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin 163 nümayəndəsi iştirak edir. İcazə verin, onların hər birinə tədbirə qatıldıqlarına, qurultay haqqında məlumatları operativ şəkildə yerli və beynəlxalq ictimaiyyətə çatdırdıqlarına görə təşəkkürümüzü bildirək.

Gənclər cəmiyyətin hərəkətverici qüvvəsi, onun gələcəyidir. Olduqca qürurverici haldır ki, ayrı-ayrı ölkələrdə yaşayan, təhsil alan və işləyən azərbaycanlı gənclər Azərbaycan həqiqətlərinin yaşadıqları ölkələrin ictimaiyyətinə çatdırılması işində fəal iştirak edirlər. Bu gün bu mötəbər tədbirdə xarici ölkələrdən nümayəndə və qonaq qismində 102 nəfər gənc iştirak edir. Ümumilikdə qurultayda müxtəlif gənclər təşkilatlarının 353 nəfər nümayəndəsi iştirak edir. Onların hər biri yaşadıqları ölkələrdə Azərbaycanı layiqincə təmsil etməyə çalışır, doğma Vətənin inkişafına öz töhfələrini verməyə səy göstərirlər. Bu yolda bütün gənclərimizə uğurlar arzulayırıq.

Qurultay nümayəndələrinin tam əksəriyyətini - 97 faizini ziyalılar təşkil edir. Onların 198 nəfəri akademik, elmlər doktoru və elmlər namizədidir. Nümayəndələrin 144 nəfəri təhsil, 92 nəfəri səhiyyə işçisi, 151 nəfəri yaradıcı ziyalı, mədəniyyət və incəsənət xadimi, 78 nəfəri yerli özünüidarə qurumlarının əməkdaşı, 83 nəfəri siyasi partiya və ictimai təşkilatların nümayəndəsidir.

Qurultayda Milli Məclisin deputatları, Azərbaycan Respublikasının ali icra və hökumət qurumlarının, rayon və şəhər icra hakimiyyətləri, bələdiyyə orqanlarından 390 nəfər nümayəndə iştirak edir.

Nümayəndələrin 74 nəfəri yüksək fəxri adların və dövlət mükafatlarının laureatlarıdır.

Qurultay nümayəndələrinin 27 faizini və ya 505 nəfərini qadınlar təşkil edir. Bu bir daha göstərir ki, azərbaycanlı qadınlar hansı ölkədə yaşamasından asılı olmayaraq, doğma Vətənin milli maraqları ilə bağlı bütün məsələlərdə yüksək ictimai fəallıq nümayiş etdirir.

Diqqətinizə çatdırmaq istərdim ki, Dünya azərbaycanlılarının III qurultayında Azərbaycan Respublikasında yaşamış yəhudi, rus, ukraynalı, bolqar, ahıska türkü və digər xalqların xarici ölkələrə miqrasiya etmiş təmsilçiləri iştirak edir. Onların bu qurultayda iştirakı bu füsunkar ölkəyə bağlılığı, Azərbaycana olan sonsuz sevgisinin ifadəsidir.

Qurultayda Azərbaycanda fəaliyyət göstərən rus Pravoslav Kilsəsi, Bakı və Azərbaycan Xəzəryanı Bölgə Yeparxiyası, Dağ Yəhudiləri Dini İcması, Avropa Yəhudiləri Dini İcması, Roma Katolik Kilsəsi nümayəndəliyinin təmsilçiləri iştirak edir. Bundan başqa, Azərbaycanda fəaliyyət göstərən rus, Ukrayna, kazak, bolqar, yunan, polyak, tatar, avar, ləzgi, kürd, tat, gürcü və digər milli azlıqların milli mədəniyyət mərkəzlərinin nümayəndələri də tədbirə qatılmışlar. Qurultayda Azərbaycanda fəaliyyət göstərən müxtəlif dini konfessiyaların, ölkəmizdə yaşayan etnik azlıqların təmsilçilərinin iştirakı xalqımızın yüksək dini və etnik tolerantlığının parlaq təcəssümü kimi qiymətləndirilə bilər.

Hörmətli qurultay iştirakçıları!

Dünya azərbaycanlılarının III qurultayı nümayəndələri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında daim fəal iştirak edən, doğma Vətənin maraqlarının müdafiəsi uğrunda yorulmadan çalışan, öz fəaliyyəti və keçdiyi həyat yolu ilə yüksək vətənpərvərlik nümunəsi göstərən soydaşlarımızdır. Mandat komissiyası qurultay nümayəndələrinin vəkalətlərini yoxlamış və onların etibarlılığını təsdiq etmişdir. Seçilmiş qurultay nümayəndələri tam səlahiyyətlidir. Qurultay öz işinə başlaya bilər.

Əminik ki, böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyevin adını daşıyan bu möhtəşəm sarayda keçirilən Dünya azərbaycanlılarının III qurultayı Azərbaycanın müasir tarixinin ən mühüm hadisələrindən biri olacaq, soydaşlarımızın azərbaycançılıq ideyaları ətrafında daha sıx birləşməsi yolunda önəmli hadisələrdən birinə çevriləcəkdir. Hər birinizə uğurlar arzulayırıq.

Diqqətinizə görə sağ olun.

## DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYININ QƏTNAMƏSİ

*5 iyun 2011-ci il*

Dünya azərbaycanlılarının III qurultayının doğma Vətənimizdə - müstəqil dövlət kimi iyirminci ildönümünü yaşayan Azərbaycan Respublikasında keçirilməsi hər birimizin qəlbini qürur hissi ilə doldurur. XX yüzilliyin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fədakarlığı sayəsində tarix səhnəsinə çıxmış, əsrin sonlarında isə görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmdə öz layiqli yerini yenidən bərpa etmiş Azərbaycan bu gün tərəqqi və modernləşmə yolu ilə irəliləyir. Dünya azərbaycanlılarının II qurultayından keçən dövrdə ölkə həyatının bütün sahələrində əldə olunmuş nailiyyətlər hamımızı sevindirir. Bu illər ərzində Azərbaycanın keçdiyi yol xalqımızın şərəfli dövlətçilik tarixinə, zəngin mədəniyyətə və insan potensialına, yüksək milli şüura və saf mənəviyyata malik olduğunu bir daha təsdiq etmişdir.

Ötən 5 il ərzində Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının qorunmasına təminat verən demokratik, hüquqi dövlət quruculuğu istiqamətində mühüm nailiyyətlərə imza atmışdır. Ölkədə qanunların icrası mexanizmlərinin təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin inkişafı sahəsində atılmış addımlar dövlətin sosial və siyasi dayaqlarını daha da möhkəmləndirmişdir.

Azərbaycan dövləti cəmiyyətin maraqlarından irəli gələn rasional milli siyasət kursunu uğurla davam etdirmiş, etnik və dini tolerantlıq mühitinin qorunmasına nail olmuş, əsl vətəndaş həmrəyliyini təmin etmişdir. Məhz buna görədir ki, inancından və etnik mənsubiyyətindən asılı olmayaraq, ölkənin hər bir vətəndaşı Azərbaycanı eyni dərəcədə sevir, ona xidmət etməyi özünün müqəddəs borcu hesab edir. Azərbaycanda yaşayan bir çox milli azlıqların xarici ölkələrə miqrasiya etmiş nümayəndələrinin doğma Vətənlə daim əlaqə saxlaması, onun maraqlarının müdafiəsi ilə bağlı bütün təşəbbüslərə dəstək verməsi buna parlaq sübutdur. Son 5 ildə Azərbaycan Respublikasında milli mədəniyyətin özünəməxsusluğunun qorunub saxlanmasına, elmin və təhsilin inkişafına xidmət edən dövlət proqramları həyata keçirilmişdir. Bu proqramlar çərçivəsində yüzlərlə gənc dünyanın ən nüfuzlu universitetlərində təhsil almaq imkanı qazanmışdır. Onların bir çoxu diaspor quruculuğu işinin fəal iştirakçılarıdır.

Ötən dövrdə əhalinin rifahının daha da yaxşılaşdırılması, aztəminatlı ailələrə dövlət qayğısının artırılması, cəmiyyətdə sosial ədalətin bərqərar edilməsi dövlətin diqqət yetirdiyi prioritet məsələlər sırasında olmuşdur. İqtisadi azadlıqların təmin olunmasına və sahibkarlığın inkişafına xidmət edən mühüm islahatlar həyata keçirilmiş, iqtisadiyyatın şaxələndirilməsinə xüsusi diqqət yetirilmişdir. Aparılan iqtisadi siyasət nəticəsində ölkəmizin bütün bölgələrinin mövcud potensialından səmərəli istifadə etməklə qeyri-neft sahələrinin inkişafına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, yeni iş yerlərinin açılmasına, xüsusilə gənclərin məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olunmuşdur.

Çoxşaxəli tarazlaşdırılmış xarici siyasət həyata keçirən Azərbaycan Respublikası bütün dövlətlərlə suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq kimi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında dost münasibətlərinin qurulması yönündə ardıcıl səy göstərir. Dünyanın bütün ölkələri ilə münasibətlərini məhz bu prinsiplər əsasında qurmuş dövlətimiz beynəlxalq birliyin dərin etimadını qazanmağa müvəffəq olmuşdur.

Azərbaycan Respublikası sülhün və sabitliyin qorunub saxlanmasına yönəlmiş birgə tədbirlərdə iştirak etməklə, beynəlxalq və regional təhlükəsizliyə töhfə verməyə çalışır. Beynəlxalq ictimaiyyətin terrorçuluğa qarşı mübarizəsini tam dəstəkləyən dövlətimiz istənilən pərdə altında həyata keçirilən terror fəaliyyəti əleyhinə mühüm addımlar atmış, bu məqsədlə qəbul edilmiş müxtəlif konvensiyalara qoşulmuşdur.

Ötən dövrdə Azərbaycan Respublikasının müdafiə qüdrəti daha da artmış, Silahlı Qüvvələr ən müasir texnika ilə təchiz edilmişdir. Bu gün Azərbaycan ordusu dövlət müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpa edilməsi və bütün sərhədlər üzərində nəzarətin təmin olunması kimi vəzifələrin öhdəsindən gəlməyə qadirdir.

Son illərin ən mühüm hadisələrindən biri, şübhəsiz ki, “Evrovizion– 2011” müsabiqəsində Azərbaycan təmsilçilərinin qazandığı tarixi qələbədir. Bu, xalqımızın zəngin mədəniyyətə malik olduğunu təsdiqləməklə yanaşı, həm də gənclərimizin böyük potensialının, yüksək istedadının ifadəsi kimi qiymətləndirilə bilər. Təqdirəlayiq haldır ki, ötən illər ərzində Azərbaycan diasporu da öz gücünü artırmış, xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması prosesi daha geniş vüsət almış, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Milli-mədəni irsimizin təbliği, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması, cəmiyyətə inteqrasiyası, ictimai-siyasi fəallığının gücləndirilməsi istiqamətində təşəbbüslərin sayı artmış, azərbaycanlı icmaları yaşadıqları ölkələrdə ictimai rəyə real təsir imkanları əldə etmişlər.

2008-ci ildə Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının Bakıdakı iclasında qəbul olunmuş “Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası” diasporun fəaliyyətinin başlıca istiqamətlərini müəyyən edən konseptual sənəd kimi qiymətləndirilməlidir. Xartiya dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təmin olunması, diaspor təşkilatlarının fəaliyyətinin koordinasiya edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Sənəddə Azərbaycan xalqının tarixi, etnogenezi, milli özünüdərk prosesi, özünəməxsus xüsusiyyətləri, milli-mənəvi dəyərləri və müasir inkişaf səviyyəsi təhlil edilmiş, soydaşlarımızın yaşadıqları ölkələrin cəmiyyətlərinə inteqrasiyası, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, qondarma “erməni soyqırımı” iddialarının ifşası və digər məsələlərlə bağlı diasporun üzərinə düşən vəzifələr öz əksini tapmışdır.

Son illər Dağlıq Qarabağ münaqişəsinə, tarixin müxtəlif mərhələlərində xalqımızın məruz qaldığı terror və soyqırımı aktlarına dair faktlara beynəlxalq aləmin diqqətinin cəlb olunması sahəsində atılan addımlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq diasporumuzun hücum taktikasına keçdiyini nümayiş etdirir.

Təqdirəlayiq haldır ki, xaricdə yaşayan soydaşlarımız digər xalqların diaspor təşkilatları ilə də sıx əməkdaşlıq əlaqələri qurmağa müvəffəq olmuşlar. Dünyanın müxtəlif ölkələrində güclü mövqelərə malik olan qardaş türk diaspor qurumları ilə fəaliyyətin əlaqələndirilməsi hər iki icmanın gücünü xeyli artırır, onların ictimai rəyə daha çox təsir imkanları qazanmasına şərait yaradır.

Ötən 5 il Azərbaycanın türk dünyasının mədəni və siyasi mərkəzlərindən birinə çevrilməsi ilə də əlamətdar olmuşdur. 2007-ci ildə Bakı şəhərində keçirilmiş Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu, habelə Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı bütün türkdilli xalqların həyatında mühüm hadisə olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilmiş bu toplantılarda qəbul olunmuş sənədlər türkdilli xalqların diaspor təşkilatları arasında səmərəli əməkdaşlıq mexanizmlərinin qurulmasının istiqamətlərini müəyyənləşdirmişdir.

Qeyd edilənləri nəzərə alaraq, Dünya azərbaycanlılarının III qurultayı

**QƏRARA ALIR:**

1. Dünya azərbaycanlılarının II qurultayından ötən dövr ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, hüquq və azadlıqlarının müdafiəsi, milli-mənəvi dəyərlərinin qorunması, ictimai-siyasi fəallığının artırılması, eləcə də diaspor təşkilatları tərəfindən xalqımızın mədəni irsinin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, müxtəlif ölkələrin ictimai və siyasi dairələri ilə əlaqələrin yaradılması, lobbi quruculuğu istiqamətində görülmüş işlər qənaətbəxş hesab edilsin.

2. Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının tərkibi 115 nəfərdən ibarət müəyyən edilsin.

3. Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının fəaliyyətinin təkmilləşdirilməsi, təşkilati və əlaqələndirmə funksiyalarının səmərəli həyata keçirilməsi məqsədi ilə Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının İcra Katibliyi təsis olunsun.

4. Azərbaycan diaspor təşkilatlarına tövsiyə olunsun ki:

– 2008-ci ilin dekabrında Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının iclasında qəbul olunmuş “Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası”ndan irəli gələn müddəaların yerinə yetirilməsi istiqamətində daha fəal iş aparsınlar;

– xarici ölkələrdə yaşayan azərbaycanlıların daha sıx birləşməsi, Azərbaycan diaspor təşkilatları arasında birliyin və həmrəyliyin daha da gücləndirilməsi üçün zəruri tədbirlər görsünlər;

– xalqımızın mədəni irsinin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işləri daha da gücləndirsinlər;

– Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik və digər diplomatik nümayəndəlikləri ilə əlaqələri gücləndirsinlər, birgə fəaliyyətin daha yaxşı uzlaşdırılmasına nail olmaq üçün səyləri artırsınlar;

– Azərbaycanın dövlət müstəqilliyinin 20-ci ildönümünün təntənəli şəkildə qeyd edilməsi məqsədilə tədbirlər hazırlayıb həyata keçirsinlər;

– xarici ölkələrdə müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının, habelə digər ölkələrin vətəndaşı olan azərbaycanlıların hüquq və azadlıqlarının qorunması ilə bağlı müvafiq mexanizmlərin hazırlanması və həyata keçirilməsi istiqamətində səylərini artırsınlar;

– xarici ölkələrin parlamentlərində və digər dövlət orqanlarında azərbaycanlıların daha geniş təmsil olunmaları üçün müvafiq tədbirlərin görülməsi istiqamətində səylərini gücləndirsinlər;

– lobbiçilik fəaliyyətinin gücləndirilməsi məqsədilə xarici ölkələrin dövlət orqanları, parlament və hökumət üzvləri, siyasi partiya və qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri ilə əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində fəaliyyəti genişləndirsinlər;

– işğal olunmuş Azərbaycan ərazilərində, habelə hazırkı Ermənistan ərazisində yerləşən tarixi Azərbaycan torpaqlarında Azərbaycan xalqının milli-mədəni irsinin talan edilməsi və mənimsənilməsi, tarixi abidələrinin dağıdılması ilə bağlı faktların beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində Azərbaycan Respublikasının müvafiq dövlət orqanları ilə əlaqələndirilmiş tədbirlər həyata keçirsinlər;

– qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün digər xalqların diaspor təşkilatları ilə, xüsusən türk diasporu ilə əməkdaşlığın genişləndirilməsini, iki qardaş ölkənin maraqlarının müdafiəsi yönündə həyata keçirilən tədbirlərin daha sıx əlaqələndirilməsini təmin etsinlər.

5. Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasına tövsiyə olunsun ki:

– xarici ölkələrdə yaşayan və təhsil alan azərbaycanlı gənclərin diaspor quruculuğu işində daha fəal iştirakına nail olmaq məqsədilə Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları ilə məsləhətləşmələr əsasında müvafiq fəaliyyət konsepsiyasının hazırlanmasını və həyata keçirilməsini təmin etsin;

– xaricdə yaşayan azərbaycanlıların ictimai-siyasi fəallığının artırılması, siyasi partiya və hərəkatlarda təmsil olunması məqsədilə kompleks tədbirlər hazırlayıb həyata keçirsin;

– Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, azərbaycanlıların məruz qaldığı terror və soyqırımı aktları barədə beynəlxalq təbliğat kampaniyalarının təşkili istiqamətində fəaliyyətin daha səmərəli koordinasiya olunmasını təmin etsin.

6. Dünya azərbaycanlı gənclərinin I konqresində qəbul olunmuş qərara uyğun olaraq, Dünya Azərbaycanlı Gəncləri Birliyinin yaradılması təşəbbüsü bəyənilsin, xaricdə yaşayan azərbaycanlı gənclərin bu prosesdə fəal iştirakının təmin edilməsi üçün tədbirlər görülsün.

7. 2012-ci il Evrovizion müsabiqəsinin Bakı şəhərində keçiriləcəyini nəzərə alaraq, Diasporla İş üzrə Dövlət Komitəsinə tövsiyə edilsin ki, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurası və Azərbaycan Respublikasının müvafiq dövlət orqanları ilə məsləhətləşmələr əsasında Azərbaycanın mədəniyyətini, turizm imkanlarını, tarixi-mədəni abidələrini təbliğ etmək məqsədilə Tədbirlər Planı hazırlasın və onun icrası ilə bağlı diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsini təmin etsin.

8. Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarından xahiş edilsin ki:

– xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı iş adamlarının ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarına daha geniş cəlb olunması ilə bağlı tədbirlər görsünlər;

– diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsinə və müvafiq sahədə fəaliyyətin koordinasiya edilməsinə diqqəti artırsınlar.

9. Media yayımı və informasiya texnologiyaları sahəsində əməkdaşlıq, azərbaycanlı jurnalistlərin forumlarının təşkili, soydaşlarımızın yaşadıqları ölkələrin kütləvi informasiya vasitələri ilə əlaqələrinin genişləndirilməsi, habelə qəzet, jurnal, radio, televiziya və informasiya agentliklərinin yaradılması kimi məsələlərə diqqət daha da artırılsın.

10. Qurultayın Redaksiya komissiyasına tapşırılsın ki, qurultayda səslənmiş fikir və təklifləri ümumiləşdirərək, Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarına və diaspor təşkilatlarına təqdim etsin.

11. Diasporla İş üzrə Dövlət Komitəsindən xahiş edilsin ki, qurultayın materiallarının ayrıca kitab halında nəşr olunmasını və qurultay nümayəndələrinə göndərilməsini təmin etsin.

Dünya azərbaycanlılarının III qurultayı Azərbaycan diaspor təşkilatlarına və xarici ölkələrdə yaşayan bütün azərbaycanlılara müraciət edərək onları bu Qətnamədən irəli gələn müddəaların yerinə yetirilməsində fəal iştirak etməyə, doğma Vətənin milli maraqlarının müdafiəsi naminə öz səy və bacarıqlarını əsirgəməməyə, birliyə və həmrəyliyə çağırır.

**Qətnamə Dünya azərbaycanlılarının**
**III qurultayında qəbul olunmuşdur**

Bakı şəhəri, 5 iyul 2011-ci il.

## DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYININ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVƏ MÜRACİƏTİ

*5 iyun 2011-ci il*

Zati-aliləri!

Dünya azərbaycanlılarının III qurultayının Bakı şəhərində keçirilməsinə verdiyiniz yüksək dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bu qurultay əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyasının təşəkkülünün, dünya azərbaycanlılarının birlik və həmrəyliyinin parlaq təcəssümüdür.

Böyük məmnuniyyət hissi ilə vurğulamaq istərdik ki, II qurultaydan ötən müddət ərzində Azərbaycan dövlətinin iqtisadi qüdrəti daha da artmış, siyasi münasibətlər sistemi təkmilləşmiş, demokratik, hüquqi dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə edilmiş, dünya birliyinə inteqrasiya yolunda əhəmiyyətli uğurlar qazanılmışdır. Zati-alinizin rəhbərliyi ilə aparılan islahatlar, həyata keçirilən kompleks tədbirlər Azərbaycanın regionda və bütün dünyada siyasi nüfuzunun daha da yüksəlməsinə, söz sahibinə çevrilməsinə, müstəqil siyasət yürüdən dövlət kimi özünütəsdiqinə şərait yaratmışdır. Biz əminik ki, doğma Vətənimizin çiçəklənməsi və inkişafı naminə atılacaq növbəti addımlar xalqımızın çoxəsrlik tarixinə yeni şanlı səhifələr yazacaqdır. Möhtərəm cənab Prezident!

Sizin dəfələrlə vurğuladığınız kimi, bu gün müstəqil Azərbaycan dövlətinin və xalqımızın yalnız bir problemi var: Ermənistanın işğalçılıq siyasəti nəticəsində ərazi bütövlüyümüzün pozulması və yüz minlərlə soydaşımızın öz doğma torpaqlarından didərgin düşməsi. İnanırıq ki, apardığınız siyasət bu taleyüklü məsələnin ədalətli həlli ilə nəticələnəcək, dövlətimiz bütün ərazilərində öz suveren hüquqlarını bərpa edəcəkdir. Biz problemin sülh yolu ilə və danışıqlar masası arxasında həlli istiqamətində göstərdiyiniz səy və təşəbbüsləri birmənalı şəkildə dəstəkləyirik. Eyni zamanda bəyan edirik ki, dünya azərbaycanlıları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi Zati-alinizin qəbul edəcəyi hər bir qərarın yerinə yetirilməsi üçün canından və qanından keçməyə də hər an hazırdır.

Cənab Prezident!

Azərbaycan dövlətinin davamlı dəstəyi sayəsində diasporumuz bu gün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması, hüquq və azadlıqlarının müdafiəsi, mədəni irsimizin və tariximizin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, lobbi quruculuğu sahəsində əldə olunmuş uğurlar bu mərhələni səciyyələndirən əsas keyfiyyət göstəriciləridir. Təqdirəlayiq haldır ki, son dövrlər xaricdə yaşayan azərbaycanlıların ictimai-siyasi fəallıq səviyyəsi də xeyli yüksəlmişdir. Bu gün azərbaycanlı icmaları yaşadıqları ölkələrdə baş verən mühüm hadisələrə dair öz mövqeyini bildirir, seçkilərdə fəal iştirak edir, siyasi partiyalarda və qeyri-hökumət təşkilatlarında təmsil olunur, bir sıra ölkələrdə isə parlament üzvlüyünə seçilirlər. Bütün bu uğurların əsasında doğma Vətənə sevgi,

Azərbaycana layiqincə xidmət arzusu dayanır. Bu, eyni zamanda, dövlətimizin xaricdə yaşayan azərbaycanlılarla bağlı siyasətinin kifayət qədər praqmatik və düşünülmüş bir strategiyaya əsaslandığını göstərir.

Möhtərəm cənab Prezident!

Biz, Dünya azərbaycanlılarının III qurultayının iştirakçıları xaricdə yaşayan azərbaycanlılara və diaspor təşkilatlarına göstərdiyiniz davamlı dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildiririk. İnanırıq ki, Sizin rəhbərliyinizlə xalqımız qarşıda duran bütün vəzifələrin öhdəsindən layiqincə gələcək, dövlətimiz dünyanın siyasi səhnəsində öz mövqeyini daha da möhkəmləndirəcəkdir.

Bir daha bəyan edirik ki, dünya azərbaycanlıları Zati-alinizin Azərbaycan Respublikasının milli maraq və mənafelərinin qorunmasına, doğma Vətənimizin tərəqqisinə, milli birlik və həmrəyliyimizin möhkəmlənməsinə yönəlmiş siyasətini qətiyyətlə dəstəkləyirlər. Biz bu siyasətin Azərbaycanı dinamik inkişaf yolu ilə irəli aparacağına əminik və bu müqəddəs yolda Sizə daha böyük uğurlar arzulayırıq.

**Müraciət Dünya azərbaycanlılarının**
**III qurultayında qəbul olunmuşdur**

Bakı şəhəri, 5 iyul 2011-ci il.

## DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYININ ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ ƏLAQƏDAR DÜNYA İCTİMAİYYƏTİNƏ, BEYNƏLXALQ TƏŞKİLATLARA, XARİCİ ÖLKƏLƏRİN PARLAMENTLƏRİNƏ, DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARINA MÜRACİƏTİ

*5 iyun 2011-ci il*

Biz – Dünya azərbaycanlılarının III qurultayının iştirakçıları narahat dünyamızda sağlam düşüncənin, haqq və ədalətin əvvəl-axır qalib gələcəyinə inamımızı ifadə edərək, bütün xalqların sülh və əmin-amanlıq, mehriban qonşuluq və dostluq şəraitində yaşamaq haqqına dərin ehtiramımızı bildirərək, mütərəqqi beynəlxalq ictimaiyyətə müraciət edirik.

Bu gün planetimizdə beynəlxalq təhlükəsizliyə və barışa, sivilizasiyalararası dialoq çağırışlarına, xalqların dinc yanaşı yaşayışının və əmin-amanlığının təminatına ciddi ehtiyac duyulur. Çünki qloballaşma prosesinin vüsət aldığı müasir mərhələdə dövlətlərin suverenliyini və bütövlükdə bəşəriyyəti təhdid edən aqressiv etnik separatçılıq, terrorizm, milli, dini və irqi ayrı-seçkilik kimi mənfi meyillər həyatımızın acı gerçəkliyinə çevrilmişdir. Təəssüf hissi ilə nəzərinizə çatdırırıq ki, zəmanəmizin ən qanlı faciələrinə rəvac vermiş Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi artıq 23 ildir ki, davam etməkdə, regionda sülh və əmin-amanlıq üçün böyük təhlükə mənbəyi olaraq qalmaqdadır.

Son iki əsrə yaxın bir dövrdə erməni millətçilərinin əli ilə Azərbaycana qarşı mərhələ-mərhələ işğalçılıq siyasəti həyata keçirilmiş, xalqımız çoxsaylı kütləvi qırğınlara, etnik təmizləmə və deportasiyalara, soyqırımı aksiyalarına məruz qalmışdır. Təkcə XX əsrdə on minlərlə azərbaycanlı etnik və dini amilə görə qətlə yetirilmiş, milyonlarla soydaşımız öz tarixi torpaqlarından didərgin salınmışdır.

1988-ci ildən Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları yenidən baş qaldırmış, işğalçılıq niyyətlərini həyata keçirmək üçün Dağlıq Qarabağda heç bir tarixi, siyasi, etnik əsası olmayan erməni separatizminə rəvac verilmişdir. Artıq 20 ildən çoxdur ki, Azərbaycan ərazisinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ inzibati-ərazi bölgüsünə daxil olmayan və ötən əsrin 90-cı illərinin əvvəllərinədək bütünlüklə azərbaycanlıların yaşadığı 7 inzibati rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, 1 milyona yaxın Azərbaycan vətəndaşı öz doğma torpaqlarından didərgin salınmış, 20 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 50 mindən artıq insan əlil olmuşdur. Ermənistanın və Dağlıq Qarabağın həbs düşərgələrində ağlasığmaz təhqir və işgəncələrdən əziyyət çəkən 4 mindən artıq azərbaycanlının taleyi barədə indiyədək dəqiq məlumat almaq mümkün olmamışdır.

90-cı illərin əvvəllərində erməni silahlıları Qarabağın azərbaycanlılar yaşayan qəsəbə və kəndlərində kütləvi qırğınlar, Bakıda və digər şəhərlərimizdə qanlı terror aksiyaları həyata keçirmiş, 1992-ci ilin fevralında XX əsrin ən dəhşətli faciəsini – Xocalı soyqırımını törətmişlər. Öz qəddarlığına və amansızlığına görə dünyada

bənzəri olmayan bu qanlı aksiyada 106 nəfəri qadın, 83 nəfəri azyaşlı uşaq, 70 nəfəri ahıl qocalar olmaqla 613 Xocalı sakini bir gecənin içində qətlə yetirilmiş, 1000 nəfərdən artıq mülki əhali, o cümlədən 76 nəfər yetkinlik yaşına çatmamış oğlan və qız şikəst edilmiş, 1275 nəfər ermənilər tərəfindən girov götürülərək ağlasığmaz təhqir və həqarətlərə məruz qalmışdır. Amansızlıqla qətlə yetirilənlərdən 56 nəfəri diri-diri yandırılmış, başları kəsilmiş, gözləri çıxarılmış, qafa taslarının dərisi soyulmuşdur.

1988-ci ilin sonlarında Ermənistanda öz tarixi dədə-baba yurdlarında yaşayan 250 mindən artıq azərbaycanlı yüzlərlə insanın qətli ilə müşayiət olunan kütləvi deportasiyaya məruz qalmış, nəticədə Ermənistan dünyada analoqu olmayan monoetnik dövlətə çevrilmişdir. XIX əsrin əvvəllərində bu gün Ermənistan deyilən ərazidə 2 mindən çox azərbaycanlı yaşayış məntəqəsi olduğu halda, hazırda orada bir nəfər də olsun, azərbaycanlı qalmamış, minlərlə Azərbaycan-türk toponimləri, tarixi yer adları açıq-aşkar saxtakarlıqla erməniləşdirilmiş və xəritədən silinmişdir.

Ermənistanda və Azərbaycanın işğal altında olan ərazilərində azərbaycanlılara məxsus tarixi-mədəni abidələr, muzeylər, məscidlər, müqəddəs sitayiş yerləri, qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Bu antibəşəri proses indi də davam etməkdədir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın 890 yaşayış məntəqəsi, 150 min ev, 7 min inzibati bina, 693 məktəb, 855 uşaq bağçası, 695 sağlamlıq mərkəzi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 9 etnoqrafik əhəmiyyətli tarixi yer, 464 tarixi abidə və muzey, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü, 2300 km su kəməri, 2 min km qaz kəməri, 15 min km elektrik xətti, 1200 km irriqasiya sistemi dağıdılmış, 280 min hektar meşə, 1 milyon hektar əkin sahəsi məhv edilmişdir. On illər boyu Azərbaycan xalqına qarşı ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilmiş təcavüzkar siyasət, kütləvi zorakılıq aksiyaları və bu cinayətlərin XX yüzilliyin sonlarında müasir dünyanın gözü qarşısında yenidən təkrarlanması, beynəlxalq hüququn tələbləri baxımından soyqırımı kimi qiymətləndirilməlidir. Təəssüf ki, istər regiondakı tarixi-siyasi proseslərə, istərsə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə bu gün dünyada ikili standartlarla yanaşma halları mövcuddur.

Qurultay iştirakçıları Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası tərəfindən Dağlıq Qarabağla bağlı 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrin hələ də təcavüzkar Ermənistan tərəfindən yerinə yetirilməməsinə beynəlxalq birliyin laqeyd münasibətindən dərin məyusluq hissi keçirirlər. 2005-ci ildə Avropa Şurası Parlament Assambleyasının 1416 saylı qətnaməsi və 1690 saylı tövsiyəsində Azərbaycan ərazilərinin işğal olunduğu və separatçı qüvvələrin Dağlıq Qarabağ bölgəsinə nəzarət etdiyi qeyd olunmuş, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyi vurğulanmışdır. BMT Baş Məclisinin "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" başlıqlı 2006-cı il 7 sentyabr tarixli 60/285 saylı və 14 mart 2008-ci il tarixli 62/243 saylı qətnamələri, 2006-cı ilin dekabrında qəbul olunmuş "ATƏT-in Nazirlər Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Bəyanatı", ATƏT-in 2005-ci və 2010-cu illərdə faktaraşdırıcı və sahə qiymətləndirmə missiyalarının Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət, o cümlədən qanunsuz məskunlaşma təcrübəsi, iqtisadi istismar və bu ərazilərin viran edilməsini təsdiq edən rəyləri, "Avropa İttifaqının Cənubi Qafqazda

strategiyasına tələb" adlı 2010-cu il 20 may tarixli qətnamə və digər beynəlxalq sənədlərdə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktı öz təsdiqini tapmış və bu ərazilərin azad olunması tələb edilmişdir. Bütün bunlara baxmayaraq, Ermənistan hələ də Azərbaycan ərazilərini işğal altında saxlamaqda davam edir, beynəlxalq birliyin tələb və tövsiyələrinə etinasızlıq göstərir. Sülhün və təhlükəsizliyin təminatçısı olan beynəlxalq təşkilatların, nüfuzlu dövlətlərin Ermənistanın bu təcavüzkar hərəkətlərinə qarşı təsirli tədbirlər görməməsi dünyada ədalətin mövcudluğuna olan inamı sarsıdır və beynəlxalq hüquqa etimadsızlıq kimi mənfi tendensiyalara yol açır.

Biz, eyni zamanda narahatlıq hissi ilə bildiririk ki, Azərbaycan tərəfinin xoşməramlı təşəbbüslərinə, münaqişəni sülh və danışıqlar yolu ilə həll etmək niyyətinə baxmayaraq, Ermənistanın nümayiş etdirdiyi qeyri-konstruktiv mövqe və qonşulara qarşı əsassız ərazi iddiaları sülhyaratma prosesində böhran yaradır, regionda sülhün və təhlükəsizliyin təmin olunmasına yönəlmiş səylərin uğursuzluqla nəticələnməsinə səbəb olur. Ermənistanın bu mövqeyi problemin dinc yolla həllini çətinləşdirir, müharibənin yenidən alovlanması təhlükəsini artırır.

Dünya azərbaycanlılarının III qurultayı beynəlxalq ictimaiyyəti Cənubi Qafqazda sülhün və əmin-amanlığın təmin olunması, insanların rahat və təhlükəsiz şəraitdə yaşaması naminə konkret addımlar atmağa, təcavüzkarı sağlam düşüncəyə və davakar qarşıdurma mövqeyindən geri çəkilməyə vadar edəcək qətiyyətli tədbirlər görməyə çağırır. Bir daha nəzərinizə çatdırmağı zəruri sayırıq ki, bu münaqişənin davam etməsi və mövcud status-kvonun saxlanması bölgə xalqlarının maraqlarına cavab verməməklə yanaşı, təkcə regionda deyil, bütün dünyada sülhə və təhlükəsizliyə ciddi maneədir. Biz qəti şəkildə inanırıq ki, münaqişənin həlli nəinki Azərbaycan və erməni xalqlarının, eləcə də bütün regionun həyatında yeni bir dövrün – dostluq, əməkdaşlıq və tərəqqi mərhələsinin başlanğıcı olacaqdır.

Müraciət Dünya azərbaycanlılarının III qurultayında qəbul olunmuşdur.
Bakı şəhəri, 5 iyul 2011-ci il.

**AzərTAc**
**5 iyul 2011-ci il**

**DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYININ DÜNYA AZƏRBAYCANLILARINA MÜRACİƏTİ**

*5 iyun 2011-ci il*

Əziz həmvətənlər!

Hörmətli soydaşlarımız!

Dünya öz tarixi inkişafının olduqca mühüm və mürəkkəb mərhələlərindən birini yaşayır. Qloballaşma prosesinin geniş vüsət aldığı, sivilizasiyalararası dialoqun tarixi zərurətə çevrildiyi bu mərhələdə hər bir millət öz varlığını qoruyub saxlamaqla bərabər, bəşəriyyətin gələcəyi üçün də məsuliyyət daşıyır. Belə bir şəraitdə Azərbaycan dövləti hadisələrə seyrçi mövqe tutmur, müxtəlif mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun və etimadın möhkəmləndirilməsinə öz dəyərli töhfəsini verir. Son illər Vətənimiz mütəmadi olaraq dinlərarası və mədəniyyətlərarası dialoqa həsr olunmuş nüfuzlu tədbirlərə ev sahibliyi edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platformanın təsis edilməsi və Azərbaycan xalqının mədəniyyətinin, tarixi ənənələrinin beynəlxalq aləmə tanıdılması məqsədi ilə 2011-ci ildən başlayaraq hər iki ildən bir Azərbaycanda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi barədə fərman imzalamışdır.

Son illər Azərbaycan xalqı da keyfiyyətcə yeni, daha yüksək tarixi inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu, milli ideologiyanın tamamilə formalaşdığı, hüquqi və demokratik dövlət quruculuğu prosesinin sürətləndiyi bir mərhələdir. Azərbaycan dövlətinin ilbəil artan iqtisadi və siyasi qüdrəti dünya azərbaycanlıları arasında birlik və həmrəyliyin daha da möhkəmlənməsinə, diaspor hərəkatının güclənməsinə, soydaşlarımızın tarixi Vətənlə əlaqələrinin genişlənməsinə əlverişli şərait yaratmışdır. Bu gün dünyanın hansı hissəsində yaşamasından, dünyagörüşündən və siyasi əqidəsindən asılı olmayaraq, hər bir soydaşımız özünü doğma Azərbaycanın bir hissəsi hesab edir, Vətənin maraq və mənafelərinin qorunması naminə əlindən gələni əsirgəmir.

Dünya azərbaycanlılarının II qurultayından keçən 5 il ərzində xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, doğma Vətənimizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, milli mənəvi dəyərlərimizin qorunması, həmvətənlərimizin hüquq və azadlıqlarının müdafiəsi, mədəni irsimizin təbliği sahəsində mühüm işlər görülmüşdür. 2008-ci ildə Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının Bakıdakı iclasında qəbul olunmuş “Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası” həmvətənlərimiz qarşısında qoyulan vəzifələrin müəyyənləşdirilməsi və həyata keçirilməsi istiqamətində əhəmiyyətli rol oynamışdır. İndi azərbaycanlıların müxtəlif ölkələrdə fəaliyyət göstərən icma və qurumları vahid mərkəzlərdə birləşmiş, soydaşlarımızın qitələr üzrə təşkilatlanması prosesi, demək olar ki, başa çatmışdır.

Görülmüş işlərə, qazanılmış nailiyyətlərə nəzər salarkən ümummilli lider Heydər Əliyevi minnətdarlıqla xatırlayır, diaspor quruculuğu məsələlərinə dövlət səviyyəsində qayğı göstərilməsini bu dahi şəxsiyyətin tarixi xidmətləri hesab edirik.

Əldə olunmuş uğurlar üzərimizə həm də böyük məsuliyyət qoyur. Bu uğurları qorumaq və eyni zamanda daha böyük nailiyyətlər qazanmaq üçün hər birimizdən durmadan çalışmaq tələb olunur. İndi 50 milyonluq Azərbaycan xalqının əsas məqsədi Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaqdan ibarətdir. Azərbaycan diasporunun bütün potensialı, əzmi və iradəsi bu məqsədə çatmaq üçün zəruri olan vəzifələrin həllinə səfərbər edilməlidir.

Soydaşlarımızın qarşısında duran ən mühüm vəzifələr sırasına yaşadıqları ölkələrdə fəaliyyət göstərən siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri ilə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi də daxildir. Hər bir azərbaycanlı icması milli mənəvi dəyərlərini, dilini, milli kimliyini qorumaqla yanaşı, cəmiyyətə daha yaxından inteqrasiya etməli, baş verən hadisələrə prinsipial münasibət bildirməli, ictimai-siyasi proseslərin fəal iştirakçısına çevrilməlidir.

Bu gün dünyanın müxtəlif ölkələrində ictimai etimad qazanmış minlərlə azərbaycanlı mədəniyyət xadimi, elm adamı, jurnalist yaşayır. Onların, demək olar ki, hamısı vətənpərvər ziyalılar, Azərbaycan uğrunda hər cür fədakarlığa hazır olan insanlardır. Azərbaycanlı ziyalıların doğma Vətənin milli maraqlarının müdafiəsi işinə daha çox cəlb olunması, onların daha geniş kontingentinin diaspor təşkilatlarında təmsil olunması müasir dövrün reallıqları baxımından olduqca vacibdir.

Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, ölkəmizin və xalqımızın əleyhinə yönəlmiş təxribatlarının qarşısını vaxtında almaq bütün soydaşlarımızın əsas vəzifələrindən biridir. Bu sahədə işimizi gücləndirmək üçün əlavə tədbirlər görülməli, müasir informasiya texnologiyalarından və yeni metodlardan səmərəli istifadə olunmalıdır. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan informasiya mərkəzlərinin şəbəkəsi genişləndirilməli, xarici kütləvi informasiya vasitələri ilə daha sıx əməkdaşlıq əlaqələri qurulmalıdır.

Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün digər xalqların diaspor təşkilatları ilə, xüsusən türk diasporu ilə əməkdaşlığı genişləndirmək, iki qardaş ölkənin maraqlarının müdafiəsi ilə bağlı həyata keçirilən layihə və tədbirləri daha sıx əlaqələndirmək zəruridir.

Xaricdə yaşayan azərbaycanlı gənclərin potensialından daha səmərəli istifadə etmək üçün tədbirlərin həyata keçirilməsi günün vacib tələblərindəndir. Gənclərimizin intellektual imkanları, müasir dünyagörüşü, yüksək vətənpərvərliyi bizim gələcəyə olan ümidlərimizi artırır. Əminik ki, bu böyük potensialın düzgün istiqamətləndirilməsi yeni tarixi nailiyyətlərə imza atmağa zəmin yaradacaqdır.

Əziz soydaşlar!

Azərbaycan diasporu ötən qısa vaxt ərzində böyük inkişaf yolu keçmişdir. İndi xaricdəki soydaşlarımız əvvəlki illərlə müqayisədə daha mütəşəkkil və çevik fəaliyyət imkanlarına malikdirlər. Biz bütün gücümüz və qəlbimizlə bu imkanlardan istifadə etməli, Azərbaycanın maraqlarını qətiyyətlə qorumaq əzmimizi dünyaya nümayiş etdirməliyik. Bu yolda ürəyi daim doğma Vətənlə döyünən hər bir azərbaycanlıya uğurlar arzulayırıq.

**Müraciət Dünya azərbaycanlılarının III qurultayında qəbul olunmuşdur.**

Bakı şəhəri, 5 iyul 2011-ci il.

**DÜNYA AZƏRBAYCANLILARININ ƏLAQƏLƏNDİRMƏ ŞURASININ DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYINDA SEÇİLMİŞ TƏRKİBİ**

| Sıra | Adı, soyadı | Vəzifəsi |
|---|---|---|
| 1. | **İlham Əliyev** | Azərbaycan Respublikasının Prezidenti (Əlaqələndirmə Şurasının Sədri) |
| 2. | **Abel Məhərrəmov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Bakı Dövlət Universitetinin rektoru, akademik |
| 3. | **Azay Quliyev** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri |
| 4. | **Adil Bağırov** | Amerika Azərbaycanlıları Şəbəkəsinin (USAN) icraçı direktoru, siyasi elmlər doktoru |
| 5. | **Anar Rzayev** | Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədri, Xalq Yazıçısı |
| 6. | **Ayda Əmir Haşimi** | Azərbaycan Federasiyası İsveçin (AFİ) idarə heyətinin üzvü, “Qarabağ” Cəmiyyətinin sədr müavini |
| 7. | **Aslan Aslanov** | Azərbaycan Dölət Teleqraf Agentliyi – AzərTAc-ın Baş direktoru |
| 8. | **Asəf Hacıyev** | “Xəzər TV” Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçisi |
| 9. | **Arif Alışanov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri |
| 10. | **Azad Rəhimov** | Azərbaycan Respublikasının gənclər və idman naziri |
| 11. | **Bahar Muradova** | Azərbaycan Respublikası Milli Məclis sədrinin müavini |
| 12. | **Başar Kömür** | Avropa Azərbaycanlıları Konqresinin prezidenti |
| 13. | **Bilal Dündar** | Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri |
| 14. | **Bayram Səfərov** | Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin sədri |
| 15. | **Cəlal Əliyev** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, akademik |
| 16. | **Cəmil Əliyev** | Azərbaycan Respublikası Milli Onkoloji Mərkəzinin direktoru, akademik |
| 17. | **Cavid Hüseynov** | Amerika Azərbaycanlıları Şurasının baş direktoru, Türk Dünyası İnstitutunun (Pax Turka) həmtəsisçisi |

| | | |
|---|---|---|
| 18. | **Con Naimi Amiral** | ABŞ Hərbi Dəniz Donanmasının zabiti |
| 19. | **Çingiz Abdullayev** | Azərbaycan Respublikası Yazıçılar Birliyinin katibi, Xalq Yazıçısı |
| 20. | **Elmira Süleymanova** | Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) |
| 21. | **Elçin Əfəndiyev** | Azərbaycan Respublikası Baş nazirinin müavini |
| 22. | **Etibar Babayev** | Azərbaycan Teleradio Şirkəti (QSC) Teleradio Akademiyasının rektoru, Bakı Slavyan Universitetinin kafedra müdiri |
| 23. | **Eldar Əfəndiyev** | Estoniya Parlamentinin deputatı, "Bakı" klubunun həmsədri |
| 24. | **Elmar Məmmədyarov** | Azərbaycan Respublikasının xarici işlər naziri |
| 25. | **Elnur Məmmədli** | Olimpiya çempionu |
| 26. | **Ədalət Əliyev** | "Lider TV və Radio Azərbaycan" MMC-nin prezidenti |
| 27. | **Əhliman Əmiraslanov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Tibb Universitetinin rektoru, akademik |
| 28. | **Əli Əhmədov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası sədrinin müavini |
| 29. | **Əflatun Amaşov** | Azərbaycan Mətbuat Şurasının sədri |
| 30. | **Əli Həsənov** | Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri |
| 31. | **Əli Abbasov** | Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri |
| 32. | **Əbülfəs Qarayev** | Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri |
| 33. | **Fatma Abdullazadə** | Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri |
| 34. | **Fazil Həsənov** | Gürcüstan Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin sədri |
| 35. | **Fəttah Heydərov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 36. | **Fəxrəddin Məmmədov** | Şimali Kipr "Azərbaycan" Cəmiyyətinin sədri, Yaxın Doğu Universitetinin prorektoru, professor |
| 37. | **Fərhad Bədəlbəyli** | Azərbaycan Dövlət Musiqi Akademiyasının rektoru, Xalq Artisti |
| 38. | **Firəngiz Əlizadə** | Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq Artisti |
| 39. | **Fidan Qasımova** | SSRİ Xalq Artisti, Dövlət Mükafatı laureatı, Azərbaycan Musiqi Akademiyasının professoru |
| 40. | **Gülçöhrə Məmmədova** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru |
| 41. | **Gülşən Kazımova** | "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri |

| | | |
|---|---|---|
| 42. | **Hacıbala Abutalıbov** | Bakı Şəhər İcra Hakimiyyətinin başçısı |
| 43. | **Hafiz Paşayev** | Azərbaycan Diplomatiya Akademiyasının rektoru, xarici işlər nazirinin müavini |
| 44. | **Havar Məmmədov** | Azərbaycan Texniki Universitetinin rektoru |
| 45. | **Hidayət Orucov** | Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri |
| 46. | **İsa Həbibbəyli** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Dövlət Universitetinin rektoru |
| 47. | **İlham Axundov** | Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının sədri, Hamilton Universitetinin professoru |
| 48. | **İlhan Aküzüm** | Azərbaycan Türkiyə Həmrəylik və İnkişaf Fondunun İdarə Heyətinin üzvü, Türkiyə Respublikasının sabiq turizm naziri |
| 49. | **İsgəndər Xəlilov** | Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, “LUKoyl” neft şirkətinin vitse-prezidenti |
| 50. | **İqbal Hacıyev** | Rumıniya-Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyasının sədri, Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin direktoru, fəlsəfə doktoru |
| 51. | **İsmayıl Ömərov** | İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru |
| 52. | **İosif Şaqal** | “Azİz” Azərbaycan-İsrail Beynəlxalq Asosiasiyasının prezidenti, İsrail Parlamentinin 17-ci çağırış deputatı |
| 53. | **İmadəddin Qasımov** | Avstraliya Azərbaycan Dostluq Birliyinin sədri |
| 54. | **İlqar Hacıyev** | Ümumrusiya Azərbaycan Konqresinin Moskva şəhər təşkilatının sədri |
| 55. | **İlqar Abbasov** | Ukrayna Azərbaycanlıları Konqresinin sədri |
| 56. | **Kamal Abdullayev** | Bakı Slavyan Universitetinin rektoru, filologiya elmləri doktoru , professor, Əməkdar Elm Xadimi |
| 57. | **Qənirə Paşayeva** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 58. | **Leyla Əliyeva** | Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri |
| 59. | **Mahmud Kərimov** | Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti |
| 60. | **Mahir Həmzəyev** | Litva Azərbaycanlıları Cəmiyyətinin sədri |
| 61. | **Mehriban Əliyeva** | Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı |
| 62. | **Məmmədbağır Əliyev** | Ümumrusiya Azərbaycan Konqresinin prezidenti, Rusiya Dövlət Mükafatı laureatı, Rusiya Tibb Akademiyasının həqiqi üzvü, akademik |

| | | |
|---|---|---|
| 63. | **Misir Mərdanov** | Azərbaycan Respublikasının təhsil naziri |
| 64. | **Mobil Məmmədov** | Özbəkistan Azərbaycanlıları Mədəniyyət Mərkəzinin sədri |
| 65. | **Musa Qasımlı** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, tarix elmləri doktoru, professor |
| 66. | **Musa Əhmədov (Pünhan)** | Benilüks Azərbaycanlıları Konqresi Gənclərin Əlaqələndirmə Şurasının sədri, Belçika Gənclər Parlamentinin üzvü |
| 67. | **Musa Mərcanlı** | "İrs" jurnalının baş redaktoru |
| 68. | **Murad Ömərov** | Xarkov Milli Radioelektronika Universitetinin kafedra müdiri, texniki elmlər doktoru, professor, Ukrayna-Azərbaycan "Dostluq" Cəmiyyətinin sədri |
| 69. | **Mübariz Mənsimov** | İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyinin sədri, "Palmali" Şirkətlər Qrupunun prezidenti |
| 70. | **Natiq Bağırov** | Belarus-Azərbaycan İcmaları Konqresinin sədri |
| 71. | **Natiq Ağamirov** | Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti |
| 72. | **Natiq Atakişiyev** | Latın Amerikası Azərbaycanlıları Assosiasiyasının sədri, Meksika Milli Universitetinin professoru, riyaziyyat elmləri doktoru |
| 73. | **Nazim İbrahimov** | Diasporla İş üzrə Dövlət Komitəsinin sədri (Əlaqələndirmə Şurasının icraçı katibi) |
| 74. | **Nəbi İbadov** | Azərbaycan-Polşa "Birlik" Assosiasiyasının sədri, Varşava Politexnik Universitetinin texniki elmlər doktoru, professor |
| 75. | **Niyazi Hacıyev** | "Aydan" Azərbaycan-Eston Cəmiyyətinin sədri, Avropa Azərbaycanlıları Konqresi nəzarət-təftiş komissiyasının sədri |
| 76. | **Nizami Cəfərov** | Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət Komitəsinin sədri, Atatürk Mərkəzinin müdiri |
| 77. | **Novruz Məmmədov** | Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri |
| 78. | **Nüsrət Məmmədov** | Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun (Qırğızıstan) sədri |
| 79. | **Pol Murad** | Nevada Ştatı Əmlak Komissiyasının üzvü Amerika Azərbaycan Şurası İdarə heyətinin üzvü |
| 80. | **Ramiz Mehdiyev** | Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri |
| 81. | **Rasim Əliquliyev** | Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor |

| | | |
|---|---|---|
| 82. | **Rauf Zeyni** | Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun sədri |
| 83. | **Ramil Əliyev** | Norveç Azərbaycan Gənclər Assosiasiyasının (NAYO) sədri |
| 84. | **Roman Əliyev** | “Ocaq” Latviya-Azərbaycan Mədəniyyət Mərkəzinin sədri |
| 85. | **Rafael Hüseynov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli Elmlər Akademiyası Nizamı adına Ədəbiyyat Muzeyinin direktoru |
| 86. | **Sabir Rüstəmxanlı** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Xalq Şairi, Dünya Azərbaycanlıları Konqresinin həmsədri |
| 87. | **Samir İmanov** | Birləşmiş Ərəb Əmirliyi “Azərbaycan” Cəmiyyətinin sədri |
| 88. | **Samirə Patzer-İsmayilova** | Almaniyadakı Azərbaycanlıların Əlaqələndirmə Mərkəzinin icraçı direktoru |
| 89. | **Sahil Qasımov** | Benilüks Azərbaycanlıları Konqresinin fəxri sədri, Avropa Azərbaycanlıları Konqresinin birinci vitse-prezidenti |
| 90. | **Səməd Seyidov** | Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri, Azərbaycan Dövlət Dillər Universitetinin rektoru, psixologiya elmləri doktoru, professor |
| 91. | **Seyran Rəhimov** | Ümumrusiya Azərbaycan Konqresinin Dağıstan Regional bölməsinin sədri |
| 92. | **Səttar Sevigin** | Azərbaycan Federasiyası İsveçin (AFİ) sədri |
| 93. | **Səttar Mehbalıyev** | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 94. | **Səftər Rəhimli** | Dünya Azərbaycanlıları Konqresinin idarə heyətinin üzvü, Dünya Azərbaycanlıları Konqresinin Azərbaycan nümayəndəliyinin rəhbəri |
| 95. | **Siyavuş Kərimi** | Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq Artisti, professor |
| 96. | **Sinan Oğan** | Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan dərnəyinin sədri, Türkiyə Strateji Analizlər və Beynəlxalq Münasibətlər Mərkəzinin (TÜRKSAM) sədri |
| 97. | **Simuzər Balaoğlanova** | “Kaspian-Xəzri” Azərbaycan məktəbinin rəhbəri, “Sara Xatun” Qadınlar cəmiyyətinin sədri (Böyük Britaniya) |
| 98. | **Şamil Ayrim** | Türkiyə-Azərbaycan Dostluq və Əməkdaşlıq Fondunun vitse-prezidenti, TBMM-in sabiq millət vəkili |
| 99. | **Tağı İbrahimov** | “Azad Azərbaycan” Teleradio Yayımları Şirkətinin prezidenti |
| 100. | **Tale Heydərov** | Avropa Azərbaycanlıları Cəmiyyətinin sədri, Böyük Britaniya |
| 101. | **Teymur Mehdiyev** | Azərbaycan Respublikasının Miqrasiya Xidməti rəisinin birinci |

| | | |
|---|---|---|
| | | müavini |
| 102. | **Teymur Rzayev** | Xarici Ölkələrdə Yaşayan Azərbaycanlı Rəssamlar Birliyinin sədri, Yedditəpə Universitetinin incəsənət kafedrasının müəllimi, fəlsəfə doktoru |
| 103. | **Tomris Azəri** | Amerika Azərbaycan Cəmiyyətinin prezidenti |
| 104. | **Vasif Talıbov** | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri |
| 105. | **Vahid Mustafayev** | ANS Şirkətlər Qrupunun prezidenti |
| 106. | **Yaqub Eyyubov** | Azərbaycan Respublikası Baş nazirinin birinci müavini |
| 107. | **Yaqub Mahmudov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA Tarix İnstitutunun direktoru, akademik |
| 108. | **Yücel Artantaş** | Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının fəxri sədri, Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı |
| 109. | **Vaqif Səmədoğlu** | Xalq Şairi, dramaturq-publisist |
| 110. | **Vaqif Mustafayev** | Space Müstəqil Teleradio Şirkətinin prezidenti |
| 111. | **Vidadi Salahov** | Qazaxıstan Azərbaycan Mədəniyyət Mərkəzləri İttifaqının sədri, Beynəlxalq Avrasiya Ekoloji Akademiyasının müxbir üzvü, “Turan-Ekspress” qəzetinin baş redaktoru |
| 112. | **Vüqar Novruzov** | Moldova Azərbaycanlıları Konqresinin sədri, hüquq elmləri doktoru |
| 113. | **Zeynal Nağdəliyev** | Azərbaycan Respublikası Prezidenti Administrasiyasının regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| 114. | **Zeynəb Xanlarova** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Xalq Artisti |
| 115. | **Zəlimxan Yaqub** | Azərbaycan Aşıqlar Birliyinin sədri, Xalq Şairi |

**DÜNYA AZƏRBAYCANLILARI III QURULTAYI**
**REDAKSİYA KOMİSSİYASININ**
**TƏRKİBİ**

| | | |
|---|---|---|
| 1. | **Əli Həsənov** (Azərbaycan) | Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri |
| 2. | **Gülzar Qasımova** | "Azərbaycanın səsi" radiosunun rəhbəri |
| 3. | **Haqqı Kəskin** (Almaniya) | Almaniya Türk-Azərbaycan Birliyinin sədri, Almaniya Bundestaqının keçmiş deputatı, professor |
| 4. | **İlham Axundov** (Kanada) | Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının sədri, Hamelton Universitetinin professoru |
| 5. | **Qənirə Paşayeva** | Azərbaycan Milli Məclisinin deputatı |
| 6. | **Murad Ömərov** (Ukrayna) | Ukrayna-Azərbaycan Dostluq cəmiyyətinin sədri, Xarkov Milli Radioelektro- nika Universitetinin kafedra müdiri, texniki elmlər doktoru, professor |
| 7. | **Nəriman Qurbanov** | Diasporla İş üzrə Dövlət Komitəsi aparatının rəhbəri |
| 8. | **Natiq Atakişiyev** (Meksika) | Latın Amerikasındakı Azərbaycan Assosiasiyasının sədri, Meksika Milli Riyaziyyat İnstitutunun professoru, riyaziyyat elmləri doktoru, Meksika Elmlər Akademiyasının həqiqi üzvü |
| 9. | **Sabir Rüstəmxanlı** (Azərbaycan) | Dünya Azərbaycanlıları Konqresinin həmsədri, Azərbaycan Milli Məclisinin deputatı, Xalq Şairi |
| 10. | **Sinan Oğan** (Türkiyə) | Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan dəməyinin sədri, Türkiyə Strateji Analizlər və Beynəlxalq Münasibətlər Mərkəzinin (TÜRKSAM) sədri, siyasi elmlər doktoru |
| 11. | **Tofiq Məlikli** (Rusiya Federasiyası) | Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, Moskva Dövlət Linqivistik Unversitetinin Şərq dilləri kafedrasının professoru, Türk dili və Mədəniyyəti Mərkəzinin direktoru |
| 12. | **Vidadi Salahov** (Qazaxıstan) | Qazaxıstan-Azərbaycan Mədəniyyət Mərkəzləri İttifaqının sədri. Beynəlxalq Avrasiya Ekoloji Akademiyasının müxbir üzvü, Turan-Ekspress qəzetinin baş redaktoru |
| 13. | **Zümrüd Qurbanov** | "Qeyrət" Xalq Hərəkatının sədr müavini, "Qeyrət" qəzetinin baş redaktoru |

**DÜNYA AZƏRBAYCANLILARI III QURULTAYI**
**KAİBLİYİNİN**
**TƏRKİBİ**

| | | |
|---|---|---|
| 1. | **Ayda Əmir Haşimi**<br>(İsveç Krallığı) | Azərbaycan Federasiyası İsveçin (AFİ) İdarə Heyətinin üzvü, Qarabağ Cəmiyyətinin sədr müavini |
| 2. | **Elşad Miraləm**<br>(Azərbaycan) | Diasporla İş üzrə Dövlət Komitəsinin Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdiri |
| 3. | **Esmira Rzayeva**<br>(Finlandiya) | Azərbaycan-Finlandiya Dostluq Cəmiyyəti Gənclər Təşkilatının sədri |
| 4. | **İradə Axundova**<br>(ABŞ) | Hyuston - Bakı Qardaşlaşmış şəhərlər Assosiasiyasının sədri |
| 5. | **İradə Uluxanlı**<br>(Niderland Krallığı) | “Vahid, Bölünməz və Demokratik Azərbaycan Uğrunda Birlik” Cəmiyyətinin sədri |
| 6. | **Sevda Stoyanova**<br>(Bolqarıstan) | Dünya İqtisadiyyat İnstitutunun baş eksperti, Bolqarıstan-Azərbaycan Dostluq Mərkəzinin üzvü |
| 7. | **Yeganə Salman**<br>(İsrail) | “Azİz” Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası nəzdində Azərbaycan Mədəniyyət Mərkəzinin sədri |

**DÜNYA AZƏRBAYCANLILARI III QURULTAYI**
**MANDAT KOMİSSİYASININ**
**TƏRKİBİ**

| | | |
|---|---|---|
| 1. | **Cavad Dərəxti** | “Araz” Cəmiyyətinin sədri |
| 2. | **Cümə Məmmədov** | Frankfurt Əcnəbilər Şurasının deputatı |
| 3. | **Emin Hacıyev** | Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının İcraçı direktoru |
| 4. | **Elsevər Məmmədov** | Benilüks Azərbaycanlıları Konqresinin prezidenti |
| 5. | **Novruz Bayramov**<br>(Gürcüstan) | Gürcüstan Azərbaycanlıları Ziyalılar Birliyinin sədri, Beynəlxalq Humanitar Universitetinin rektoru, professor |
| 6. | **Qafar Əliyev** | Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sektor müdiri |
| 7. | **Məsud Əliyev** | Kvebek Azərbaycanlıları Assosiasiyasının sədri |
| 8. | **Mustafa Alınca** | Strasburq “Azərbaycan Evi”nin sədri |
| 9. | **Nəbi İbadov**<br>(Polşa) | Azərbaycan-Polşa “Birlik” Assosiasiyasının sədri, Varşava Politexnik Universitetinin professoru |
| 10. | **Samir Imanov**<br>(Birləşmiş Ərəb Əmirliyi) | Azərbaycan Cəmiyyətinin sədri |
| 11. | **Samir Lütvəliyev** | Şimali Azərbaycan Mədəniyyət Mərkəzinin sədri |
| 12. | **Turqut Arat**<br>(Türkiyə) | Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədr müavini, İzmir Azərbaycan Kültür Evi və Dayanışma Cəmiyyətinin sədri |
| 13. | **Ziyafət Əsgərov**<br>(Azərbaycan) | Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini |

**DÜNYA AZƏRBAYCANLILARININ
III QURULTAYINDA İŞTİRAK ETMƏK ÜÇÜN
BAKIYA GƏLMİŞ AZƏRBAYCAN
DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ
DÖVLƏT VƏ HÖKUMƏT QURUMLARININ
RƏHBƏRLƏRİ ARASINDA
GÖRÜŞ**

*6 iyul 2011-ci il*

İyulun 6-da "Park-İn Azərbaycan" mehmanxanasında Dünya azərbaycanlılarının III qurultayında iştirak etmək üçün Bakıya gəlmiş Azərbaycan diasporunun nümayəndələri ilə dövlət və hökumət qurumlarının rəhbərləri arasında görüş keçirilmişdir.

Azərbaycanın müstəqilliyinin bərpasının 20-ci ildönümü ərəfəsində keçirilmiş qurultayın işini yüksək qiymətləndirən Azərbaycan diasporunun nümayəndələri görüşdə müxtəlif məsələlərə toxunmuş, arzu və fikirlərini səsləndirmiş və onları maraqlandıran suallara dolğun cavablar almışlar.

Dövlətimizin diaspor sahəsində fəaliyyətinin çoxşaxəli və uzunmüddətli strategiya əsasında həyata keçirildiyini deyən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Prezident İlham Əliyevin bununla bağlı verdiyi tapşırıq və tövsiyələrdən danışmışdır.

Bildirilmişdir ki, üçüncü qurultay diasporumuzun beynəlxalq miqyasda daha geniş və sistemli fəaliyyətinə şərait yaradacaqdır.

Sonra tədbirdə iştirak edən iqtisadi inkişaf naziri Şahin Mustafayev, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, təhsil naziri Misir Mərdanov, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılovun məruzələri dinlənilmişdir.

## AZƏRBAYCAN RESPUBLIKASININ IQTISADI INKIŞAF NAZIRI ŞAHIN MUSTAFAYEVIN MƏRUZƏSI

*6 iyul 2011-ci il*

### Azərbaycan iqtisadiyyatı yeni keyfiyyət mərhələsində

Hörmətli konfrans iştirakçıları!

Xanımlar və cənablar!

Mən Sizi Azərbaycanda salamlayır və Dünya azərbaycanlılarının III qurultayı münasibətilə təbrik edirəm. Dünən qurultayın açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev proqram xarakterli çıxışında ölkəmizin vəziyyətini dərindən təhlil etmiş və gələcək prioritet istiqamətləri iştirakçıların diqqətinə çatdırmışdır. Bu qurultay mühüm bir dövrə - Azərbaycanın Dövlət müstəqilliyinin 20ci ildönümünə təsadüf edir və mən bu gün 20 il ərzində ölkəmizin sosial-iqtisadi inkişafının bəzi məqamları üzərində dayanmaq istərdim.

Müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan, xaotik sosial-iqtisadi və siyasi vəziyyətdən, bu gün hər birimizin şahidi olduğu dinamik sosial-iqtisadi inkişaf mərhələsinə qədər çətin və şərəfli yol keçmişdir. Belə ki, müstəqilliyin ilk illərində ölkə iqtisadiyyatı hər il orta hesabla 16 faiz azalmış, inflyasiya səviyyəsi 180 faizə çatmış, büdcə kəsirinin ÜDM-yə nisbəti 13 faizə qədər artmış, xarici ticarət dövriyyəsinin həcmi 42 faiz azalmışdır. Əhalinin əmək haqqı 5.7 dəfə azalmışdır. Digər tərəfdən ölkədaxili siyasi böhran, ölkənin 20 faiz ərazisinin Ermənistan tərəfindən işğal edilməsi, 1 milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi sosial- iqtisadi böhranı daha da dərinləşdirmiş və beləliklə, ölkə iqtisadiyyatı idarəolunmaz vəziyyətə düşmüşdür.

Belə bir şəraitdə xalqın təkidi ilə dahi şəxsiyyət, bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itirilmiş inamını özünə qaytarmaqla, ölkənin yeni inkişaf dövrünün başlanğıcını qoymuşdur. Ulu öndərimiz Heydər Əliyevin qətiyyəti və müdrik siyasəti nəticəsində qısa zamanda atəşkəs rejiminə nail olunmuş, müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyası əsasında ölkədə radikal islahatlara başlanmış və qısa zamanda müstəqil dövlətçiliyin mühüm atributları yaradılmış, ölkədə sabitlik və qanunların aliliyi təmin olunmuş, gələcək inkişaf üçün möhkəm iqtisadi təməl formalaşdırılmışdır.

Dünyanın aparıcı transmilli neft şirkətləri ilə yeni tariximizə "Əsrin müqaviləsi" kimi daxil olan möhtəşəm müqavilə imzalanmış, Bakı-Tbilisi-Ceyhan Əsas Neft İxrac Kəmərinin təməli qoyulmuş və bununla da ölkəmiz dünyada enerji təhlükəsizliyi sisteminin fəal iştirakçısına çevrilmişdir. Neft gəlirlərinin səmərəli idarə edilməsi, həmin vəsaitlərin qeyri-neft sektorunun inkişafına və sosial-iqtisadi baxımdan mühüm layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondu yaradıldı. Hazırda beynəlxalq təşkilatlar tərəfindən Fondun fəaliyyəti və bu sahədə şəffaflığın təmin edilməsi yüksək qiymətləndirilir.

Neft sektoru ilə yanaşı, ulu öndərin rəhbərliyi ilə liberal bazar iqtisadiyyatı qanunvericiliyinin, büdcə, vergi, bank-maliyyə sisteminin formalaşdırılması, aqrar islahatların həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması nəticəsində yeni iqtisadi sistemə keçidin əsası qoyulmuşdur.

Hörmətli tədbir iştirakçıları!

Ümummilli lider Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyasma, ölkənin enerji və ərzaq təhlükəsizliyinə nail olunmuş, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Azərbaycanda hasil edilən karbohidrogenlərin dünya bazarlarına nəql edilməsi üçün Heydər Əliyev adma Bakı-Tbilisi-Ceyhan Əsas Neft İxrac Kəməri, eləcə də Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz Boru Kəməri istismara verilmiş və bununla da enerji ixracının diversifikasiyasma nail olunmuşdur. Müxtəlif sahələr üzrə qəbul edilmiş Dövlət proqramlarına uyğun olaraq, qeyri-neft sektorunun inkişafı, bu sahəyə daxili və xarici investisiyaların cəlb olunması, infrastrukturun müasir səviyyədə qurulması, istehsal prosesində müasir texnologiyaların istifadəsinin stimullaşdırılması, regionların inkişafı, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, rəqabətqabiliyyətli istehsal və xidmət sahələrinin təşkilinin dəstəklənməsi istiqamətində intensiv işlər davam etdirilir.

Transmilli nəqliyyat proqramları və layihələri çərçivəsində, o cümlədən TRASEKA və Şimal-Cənub beynəlxalq dəhlizlərinin Azərbaycan seqmentində avtomobil magistrallarının tikintisi və yenidən qurulması, regionlarda, xüsusən dağ rayonlarında yol şəbəkəsinin bərpası və təkmilləşdirilməsi işləri həyata keçirilmişdir. Ölkədə elektrik enerjisi istehsalının generasiya gücləri artırılmış, Azərbaycan enerji idxalçısından onun ixracatçısına çevrilmiş, həmçinin alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsinin genişləndirilməsi üçün qanunvericilik bazası təkmilləşdirilmiş və zəruri institusional tədbirlər həyata keçirilmişdir.

Ölkənin qazlaşma səviyyəsi 85 faiz təşkil edir, yaxın dövrdə qazlaşmanın 90 faizə çatdırılması nəzərdə tutulur. Sənayeləşmə siyasəti çərçivəsində yeni və müasir texnologiyalara əsaslanan elektrotexnika, əlvan metallurgiya, maşınqayırma, kənd təsərrüfatı məhsullarının emalı, tikinti materiallarının istehsalı da daxil olmaqla, təkcə ötən il ərzində 60 sənaye müəssisəsi istifadəyə verilmiş və 80-dən çox sənaye müəssisəsinin tikintisi davam etdirilmişdir.

İqtisadi uğurların qazanılmasında özəl sektorun rolunu xüsusilə qeyd etmək istəyirəm. Sahibkarlığın inkişafına dövlət qayğısnın nəticəsidir ki, bu gün Azərbaycanda özəl sektor iqtisadiyyatın apancı qüvvəsinə çevrilmiş, onun ÜDM-dəki payı 80 faizi ötmüşdür. Qabaqcıl təcrübənin, müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal, emal və infrastruktur sahələrinin yaradılması məqsədilə dövlət başçısının tapşırıqlarına uyğun olaraq özəl sektora dövlət dəstəyi tədbirləri davamlı olaraq gücləndirilir, sahibkarlıq subyektlərinin maliyyə təminatının yaxşılaşdırılması məqsədilə güzəştli kreditlər verilir.

Bununla yanaşı, ölkədə istehsal olunan qeyri-neft məhsullarının mövcud və potensial xarici bazarlara ixrac imkanlarının daha da genişləndirilməsi məqsədilə, qanunvericilik bazasının təkmilləşdirilməsi, ixrac mallarının

istehsalının stimullaşdırılması, ixracın infrastruktur təminatının yaxşılaşdırılması, o cümlədən sənaye şəhərciklərinin, potensial ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin yaradılması və digər vacib istiqamətlərdə zəruri işlər aparılır.

Sahibkarlığın inkişafı və Azərbaycan şirkətlərinin maliyyə imkanlarının genişlənməsi nəticəsində, artıq onlar xarici ölkələrə investisiyalar yatırırlar və bu rəqəm milyard dollarlarla ölçülür. Milli sahibkarların xarici ölkələrdə fəaliyyətinin genişləndirilməsi və bu əlaqələrin daha da inkişaf etdirilməsi məqsədilə iş adamlarının birliklərinin yaradılması üzrə müvafiq tədbirlər görülür. Artıq Türkiyə və Gürcüstanda Azərbaycanlı İş Adamları Birliyi təsis edilmişdir.

Ölkədə istehsal olunan rəqabətqabiliyyətli məhsulların xarici bazarlara ixracının təşviq edilməsi üçün yerli və xarici iş adamlarının və beynəlxalq tərəfdaşların iştirakı ilə mütəmadi olaraq biznes forum, dəyirmi masa və ikitərəfli görüşlər təşkil edilir. Təkcə cari ilin ilk 6 ayı ərzində ölkədə 45 və xaricdə 62 belə tədbir keçirilmişdir. Bu tədbirlərdə kənd təsərrüfatı və ərzaq sənayesi, tikinti, İKT, maliyyə, konsaltinq, nəqliyyat, loqistika, sənaye, alternativ enerji və səhiyyə sektorlarından 2500-ə yaxın yerli və xarici iş adamları və nümayəndələr iştirak etmişdir. Azərbaycan məhsulları xarici ölkələrdə təşkil olunan sərgilərdə uğurla nümayiş etdirilir və böyük maraqla qarşılanır.

Bu il Almaniyanın Berlin, Fransanın Leql, Belçikanın Brüssel, Rusiyanın Moskva və Həştərxan şəhərlərində keçirilmiş sərgilərdə ölkəmiz geniş çeşidli məhsullarla təmsil olunmuş, ötən il isə Azərbaycanın Özbəkistanda ilk milli sərgisi keçirilmişdir. Bu sərgilərdə Azərbaycanın sosial-iqtisadi inkişafını əks etdirən məlumatlar iştirakçıların diqqətinə çatdırılmışdır.

Azərbaycan regional əməkdaşlığa xüsusi önəm verir və yuxarıda qeyd edildiyi kimi, çoxlu sayda uğurlu layihələr həyata keçirilir. Lakin Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü regional əməkdaşlığın daha da genişləndirilməsində əsas maneədir. Sosial infrastrukturun daha da təkmilləşdirilməsi həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir. Son illərdə ümumi məktəblərin 40 faizi və ya 2000-dən çox məktəb yeni tikilmiş, genişləndirilmiş, əsaslı təmir olunmuşdur.

Eləcə də, aparıcı texnologiyalarla, müasir tibbi avadanlıqlarla təchiz olunmuş yeni tibb müəssisələri yaradılmış, onlarla yeni xəstəxana və diaqnostika mərkəzləri istifadəyə verilmişdir. Bu layihələrin gerçəkləşməsində Heydər Əliyev Fondunun misilsiz xidmətləri xüsusilə vurğulanmalıdır.

Hörmətli konfrans iştirakçıları!

Həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsidir ki, son 10 ildə ÜDM 4 dəfə, adambaşına düşən ÜDM 3.6 dəfə, qeyri- neft ÜDM-i 2,8 dəfə, əsas kapitala yönəldilmiş investisiyalar 11 dəfədən çox, dövlət büdcəsinin gəlirləri 16 dəfə artmışdır. Müstəqilliyin bərpasından sonra ölkə iqtisadiyyatına 100 milyard dollara yaxın investisiya qoyulmuşdur ki, bu da adambaşına düşən investisiyaya görə MDB dövlətləri arasında yüksək göstəricilərdən biridir. İqtisadi sahədə əldə edilmiş dayanıqlı inkişaf əhalinin həyat səviyyəsinin daha da yüksəlməsini təmin etmişdir. Belə ki, son 10 ildə əhalinin gəlirləri 6.3 dəfə, orta aylıq əmək haqqı 7.3 dəfə, əhalinin əmanətləri 38.2 dəfə artmış, ölkədə yoxsulluq səviyyəsi 5,4 dəfə azalaraq, 47 faizdən 9,1 faizə enmişdir. Bu müddət ərzində 1 milyonadək yeni iş yeri yaradılmışdır. Bu dövrdə Azərbaycanın ticarət apardığı

tərəfdaş ölkələrinin sayı 147-yə çatmış, xarici ticarət dövriyyəsi 9.6 dəfə, o cümlədən ixrac 12.2 dəfə artmışdır. Ölkənin davamlı iqtisadi inkişafını təmin edə biləcək strateji valyuta ehtiyatları formalaşdırılmış və onun həcmi artıq 40 milyard dollara yaxındır. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, bu gün Azərbaycan iqtisadiyyatının Cənubi Qafqaz iqtisadiyyatında payı 75 faiz təşkil edir.

Bu uğurların əsas səciyyəvi xüsusiyyətlərindən biri də qlobal maliyyə-iqtisadi böhranı dövründə Azərbaycan iqtisadiyyatının öz inkişaf tempini qoruyub saxlaması olmuşdur ki, bu da öz növbəsində həyata keçirilən sosial-iqtisadi siyasətin alternativinin olmadığını göstərir. Bu siyasətin nəticələri dünya miqyasında da yüksək qiymətləndirilir. Belə ki, Dünya İqtisadi Forumu tərəfindən 2010- 2011-cu illər üçün hazırlanmış “Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycan MDB ölkələri arasında yenə də lider mövqeyini qoruyub saxlamış, makroiqtisadi mühitin stabilliyi alt indeksi üzrə 139 ölkə arasında 13-cü yerə yüksəlmişdir. “Standard and Poors” beynəlxalq reytinq agentliyi ölkənin kredit reytinqini “Stabil”dən “Pozitiv”ə, “Moody’s” Beynəlxalq Reytinq Agentliyi Azərbaycan üzrə reytinq proqnozunu “Stabil”dən “Pozitiv”ə yüksəltmişdir. “Fitch Ratings” beynəlxalq reytinq agentliyi ilk dəfə olaraq Azərbaycana investisiya səviyyəli beynəlxalq reytinq vermiş, yerli və xarici valyutada verilmiş reytinq üzrə proqnozunu “Sabil”dən “Pozitiv”ə dəyişmişdir.

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan “Doing Business 2009” hesabatında Azərbaycan biznes mühitinin yaxşılaşdırılması sahəsində ən islahatçı ölkə elan edilmiş, “Doing Business 2010” hesabatında da ölkəmiz öz mövqelərini qoruyub saxlamışdır. Eləcə də, BMT-nin İnkişaf Proqramının əhalinin rifah səviyyəsini əks etdirən İnsan İnkişafı Hesabatında Azərbaycan son beş ildə 34 pillə irəliləyərək 169 ölkə arasında 2005-ci ildə tutduğu 101-ci yerdən 2010-cu ildə 67-ci yerə yüksəlmişdir. 2000-2010-cu illər üzrə ölkəmiz indeksin orta illik artım tempinə görə MDB məkanında qabaqcıl dövlətə çevrilmiş və “orta insan inkişafı” qrupundan “yüksək insan inkişafı” qrupuna yüksəlmişdir.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində iqtisadiyyatda keçid dövrü artıq başa çatmış və iqtisadiyyat keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Hörmətli konfrans iştirakçıları!

Bu mərhələdə də qazanılmış uğurların davam etdirilməsi, iqtisadi inkişafın davamlılığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi siyasətə uyğun olaraq, qarşıdakı illərdə aşağıdakı prioritet istiqamətlər müəyyənləşdirilmişdir:

- makroiqtisadi sabitliyin qorunması;
- iqtisadiyyatın diversifikasiyasının dərinləşdirilməsi;
- sənayeləşmənin sürətləndirilməsi, sənaye şəhərciklərinin yaradılması;
- aqrar sektorda intensiv metodların tədbiqinin genişləndirilməsi;
- tranzit potensialından səmərəli istifadə edilməsi, Bakı-Tbilisi-Qars dəmiryolunun, Beynəlxalq Dəniz Ticarət limanının və Gəmiqayırma zavodunun inşasının başa çatdırılması;
- informasiya və kommunikasiya texnologiyalarından istifadə imkanlarının genişləndirilməsi və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi, ilk süni peykin orbitə çıxarılması;

- biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması;
- dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi, xaricdə ticarət evlərinin yaradılması;
- ətraf mühitin qorunması, alternativ enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi;
- turizmin inkişafı;
- yüksək sosial rifahın və insan kapitalının inkişafının təmin edilməsi.

Hazırda Azərbaycan Respublikasının xarici ölkələrdəki diaspor təşkilatlarının yüksək səviyyədəki təşkilatçılığı və ölkə üçün taleyüklü məsələlərdə vahid mövqedən çıxış etməsi qarşımızda duran vəzifələrin həllinə geniş imkanlar yaradır.

Xaricdə yaşayan soydaşlarımızın intellektual potensialının yüksək olması, onların artan nüfuzu və yaşadıqları ölkədə uğurlu fəaliyyəti ölkəmizin beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmlənməsində, Azərbaycan reallıqlarının, xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həqiqətlərinin dünyaya çatdırılmasında böyük əhəmiyyət kəsb edir.

Çıxışımın sonunda bir daha vurğulamaq istəyirəm ki, Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət bundan sonra da Vətənimizin daha da qüdrətlənməsini, Azərbaycanımızın XXI əsrin lider ölkələri arasında yerinin möhkəmlənməsini təmin edəcəkdir.

Diqqətinizə görə minnətdaram.

**AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ ƏBÜLFƏS QARAYEVİN MƏRUZƏSİ**

*6 iyul 2011-ci il*

**Mədəniyyət abidələrinin mühafizəsi və turizm infrastrukturunun genişləndirilməsi dövlət siyasətinin prioritetləri sırasında**

Mədəni irsimizin mühafizəsi, qorunması, inkişaf etdirilməsi, dövlət tarix və mədəniyyət qoruqlarında işin təşkili Respublika rəhbərliyinin daimi qayğı və diqqəti altındadır. 1993-cü ildə xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin yenidən qayıdışı və onun ümumxalq istəyi ilə ölkə Prezidenti seçilməsi respublikamızın həyatında əsaslı dönüş yaratmışdır. Bu dönüş mədəni irsin qorunub saxlanılmasında və gələcək nəsillərə çatdırılmasında da öz əksini tapmışdır.

Mədəniyyət abidələrinin aşkar edilməsi, bərpası, tədqiqi, istifadəsi və mühafizəsi prioritet sahələrin birinə çevrilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabineti 2 avqust 2001-ci il tarixli 132 №-li Qərarı ilə “Azərbaycan Respublikasının ərazisində Dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü” siyahısını təsdiq etmişdir. Bu siyahıya 6308 ədəd dünya, ölkə və yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ-park, monumental və xatirə abidələri və dekorativ-tətbiqi sənət nümunələri daxil edilmişdir. 2002-ci ilin noyabr ayında Azərbaycanın gözəl və möhtəşəm abidələrindən biri “Şəki Xan Sarayı”nın bərpası başa çatdırılmış və bərpadan sonrakı təntənəli açılış mərasimində ulu öndər Heydər Əliyev iştirak etmişdir. 2003-cü ildə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə “Şabran şəhəri” və “Çıraqqala” tarixi qoruqları yaradılmışdır.

2000-ci ildə Azərbaycanın paytaxtı Bakı şəhərinin çoxəsrlik tarixi hissəsi İçərişəhər “Şirvanşahlar Sarayı Kompleksi” Dövlət Tarix-Memarlıq Qoruğu və Qız qalası ilə birgə YUNESKO-nun “Dünya Mədəni İrs” siyahısına daxil edilmişdir. Ölkə başçısı möhtərəm Prezident İlham Əliyev tərəfindən son illər ərzində mədəniyyətin və turizmin inkişafı və xüsusən Azərbaycanın tarixi və mədəni irsin qorunub saxlanması, onun istifadəsi və gələcək nəsillərə çatdırılması sahəsində mühüm qərarlar qəbul edərək ulu öndərin qoyduğu yolu layiqincə davam etdirir. Buna misal olaraq “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” 27 oktyabr 2006-cı il, “Azərbaycan Respublikası ərazisində yerləşən tarix və mədəniyyət qoruqlarının vəziyyəti haqqında” 24 noyabr 2006-cı il, “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən tarix-mədəniyyət qoruqlarının maddi-texniki bazasının təminatı, idarəolunma və kadr potensialının vəziyyəti haqqında” 20 fevral 2009-cu il tarixli, habelə “Yanar dağ” Dövlət tarix-mədəniyyət və təbiət (2 may 2007-ci il), “Xınalıq” Dövlət tarix-memarlıq və etnoqrafiya, “Keşikçidağ” Dövlət tarix-mədəniyyət, “Atəşgah məbədi” Dövlət tarix-memarlıq (19 dekabr 2007-ci il) qoruqlarının elan edilməsi ilə bağlı müvafiq sərəncamları göstərmək olar.

Hazırda Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində 21 tarix və mədəniyyət qoruğu fəaliyyət göstərir. Onlardan Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları əsasında Abşeron rayonunda “Yanar dağ” Dövlət tarix-mədəniyyət və təbiət, Bakı şəhəri, Suraxanı qəsəbəsində “Atəşgah məbədi” Dövlət tarix-memarlıq, Ağstafa rayonunda “Keşikçidağ” Dövlət tarix-mədəniyyət və Quba rayonunda “Xınalıq” Dövlət tarix-memarlıq və etnoqrafiya qoruqları son beş il ərzində yaradılmışdır.

2007-ci ildə “Azərbaycan Respublikası ərazisində yerləşən tarix və mədəniyyət qoruqlarının, mədəniyyət və istirahət parklarının sərhədlərinin dəqiqləşdirilməsi, xəritələrinin yenidən hazırlanması, təsdiq olunması və torpaq sahəsinin ölçüsü və planının alınması haqqında” Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi ilə birgə qərar qəbul edilmişdir. Bu günə kimi “Yanardağ” Dövlət tarix-mədəniyyət, “Atəşgah məbədi” Dövlət tarix-memarlıq, “Xınalıq” Dövlət tarix-memarlıq və etnoqrafiya və “Keşikçidağ” Dövlət tarix-mədəniyyət qoruqlarının xəritələri hazırlanmışdır.

Azərbaycanın tarixi ərazilərinin qorunub saxlanılması və burada yerləşən abidələrin mühafizəsi üçün son illər ərzində cənab Prezident İlham Əliyev tərəfindən 4 yeni tarix-mədəniyyət qoruğu yaradılmışdır. Buraya Bakı şəhəri, Suraxanı qəsəbəsindəki “Atəşgah məbədi” Dövlət tarix-memarlıq, Abşeron rayonundakı “Yanar dağ” Dövlət tarix-mədəniyyət və təbiət, Ağstafa rayonundakı “Keşikçidağ” Dövlət tarix-mədəniyyət və Quba rayonundakı “Xınalıq” Dövlət tarix-memarlıq və etnoqrafiya qoruqları daxildir. Qeyd etmək lazımdır ki, bu gün Azərbaycanda 27 tarix- mədəniyyət qoruğu fəaliyyət göstərir. 2007-ci ilin 29 iyun tarixində Yeni Zelandiyanın Kraystçörç şəhərində keçirilən Ümumdünya İrs Komitəsinin 31-ci sessiyasında Qobustan Tarix-bədii Qoruğu YUNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 noyabr 2007-ci il tarixli Qərarı ilə Qobustan qoruğuna “Milli qoruq” statusu verilmişdir. 2009-cu ildə “Azərbaycan Respublikasının ərazisində yerləşən monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq komplekslərinin ümumi görkəminin qorunub saxlanması və ətrafının abadlaşdırılmasına dair tədbirlər planının təsdiq edilməsi barədə” Sərəncam imzalanıb. Sərəncamın icrası ilə bağlı nazirliyin qarşısına qoyulan bütün tapşırıqlar artıq həyata keçirilmişdir.

Son dövrlər aparılmış axtarış və tədqiqatlar nəticəsində 1518 yeni abidə aşkar edilmişdir. Bu abidələr “Yeni aşkar olunmuş tarix və mədəniyyət abidələrinin siyahısı”na daxil edilmiş və təsdiq olunmaq üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur. Son illər ərzində 40-a qədər abidə üzərində bərpa və konservasiya işləri başa çatdırılmışdır. Onların arasında Bakı şəhərindəki “Şirvanşahlar Sarayı Kompleksi”, Nardaran tarix-mədəniyyət qoruğundakı “Xan bağı”, Şəki şəhərindəki “Şəki Xan Sarayı”, Qala divarları və rayonun Kiş kəndindəki Alban məbədi, eləcə də Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərindəki “Möminə Xatun”, Şərur rayonunun Qarabağlar kəndindəki “Qudi-Xatun” türbələri və Culfa rayonundakı “Xanəgah” memarlıq kompleksi, Qusar rayonunun Həzrə kəndindəki “Şeyx Cüneyd” türbəsi, Qax rayonunun Əmbərçay kəndi ərazisindəki “Kürmük” məbədi, İlisu kəndindəki “Sumuqqala” abidəsi və rayonun Qum kəndindəki bazilika, Gəncə şəhərindəki “Nizami Gəncəvi” məqbərəsi, Hacıqabul rayonunun Qubalı Baloğlan kəndindəki “Pir Hüseyn xanəgahı” və sair kimi tarix və memarlıq baxımından mühüm əhəmiyyətə malik onlarla məşhur abidə var.

Bu mühüm və şərəfli işdə Heydər Əliyev Fondunun və xüsusən onun Prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri, millət vəkili xanım Mehriban Əliyevanın rolu çox böyük və əvəzolunmazdır. Xalqımızın tarix və mədəniyyət irsi daim onun diqqət mərkəzindədir. Məhz onun şəxsi təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Bakının Buzovna kəndindəki Cümə məscidində təmir-bərpa işləri aparılmış, Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaradılmışdır. Burada həyata keçirilən yeni layihə Azərbaycanın tarixi keçmişinin qorunub saxlanılması ilə yanaşı, ölkəmizin turizm mərkəzlərindən birinə çevrilməsinə də xidmət etməkdədir.

Tarix və mədəniyyət abidələri xalqın inkişafının müxtəlif mərhələlərində onun mədəni və mənəvi səviyyəsini göstərir. Abidələrin elmin, təhsilin və mədəniyyətin inkişafına, vətənpərvərlik ruhunun, mənəvi və estetik tərbiyənin formalaşmasına təsiri əvəzolunmazdır.

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2011-ci il Azərbaycanda “Turizm ili” elan olunmuşdur. Turizm ilinin elan olunması və bu sahədə dövlət siyasətinin genişlənməsi yaxın gələcəkdə turizm bölməsinin iqtisadiyyatdakı çəkisinin artmasına böyük təsir edəcəkdir. Bununla bağlı “Turizm ili” çərçivəsində nazirlik tərəfindən tədbirlər planı hazırlanmış və hökumətə təqdim edilmişdir.

“Turizm ili” çərçivəsində turizm sahəsində çalışanların peşə hazırlığı səviyyəsinin artırılması, ölkənin turizm potensialını inkişaf etdirmək, turizmin sistemli şəkildə inkişafına nail olmaq, ölkəmizdə zəngin olan mövcud tarixi, təbii və mənəvi dəyərlərdən daha səmərəli istifadə etmək, turizmin inkişafının yeni mərhələsində mövcud olan problemləri aradan qaldırmaqla turizmi iqtisadiyyatımızın prioritet sahələrindən birinə çevirmək, ölkənin mövcud turizm potensialını daha geniş miqyasda təşviq etmək tədbirlər planının başlıca tələblərindəndir. Tədbirlər planının icrası nəticəsində bu il ölkəmizə iki milyondan çox xarici turistlərin gəlməsi gözlənilir.

Turizm ölkəmizin qeyri-neft sektorunda ən önəmli sahələrdən biridir. Azərbaycanın təbiəti, tarixi, iqlimi, mədəni-tarixi abidələri, mətbəxi, insanlarımızın qonaqpərvərliyi, xalqımızın zəngin mədəniyyəti - bütün bunlar turizmin inkişafına geniş imkanlar yaradır. Ölkənin böyük şəhərlərində xarici qonaqları qəbul edə bilən müasir mehmanxanalar fəaliyyət göstərməkdədir və bütün turizm regionlarını əhatə edən geniş turizm xidmətləri sisteminin formalaşması istiqamətində müəyyən işlər görülməkdədir.

Mövcud maddi və qeyri-maddi mədəni dəyərlərdən səmərəli istifadə səviyyəsi və cəlbedici turizm nümayiş obyektlərinin sayı ilbəil artırılır.

Möhtərəm Prezidentin tapşırığı və şəxsən rəhbərliyi altında yaradılan turizm incilərindən biri - Qusar rayonunda, Şahdağın ətəklərində salınan Qış-Yay Turizm Kompleksi həm təyinatına, həm də nadir layihə strukturuna görə xüsusi önəm daşıyır. Layihə Avstriya, İsveç, İtaliya və Birləşmiş Ərəb Əmirliklərinin ən qabaqcıl şirkətləri tərəfindən icra olunur. Ölkə başçısının “Şahdağ” Qış-Yay Turizm Kompleksinin həm təməlqoyma mərasimində iştirakı, həm də bir neçə dəfə obyektin inşası ilə bağlı apardığı müşavirələr, eyni zamanda fevralın 27-də kompleksin 2 nömrəli kanat və xizək enişinin açılışında iştirakı zamanı verdiyi tapşırıqlar dövlətin turizm sahəsinin inkişafına necə böyük diqqət və qayğı göstərdiyini bir daha əyani şəkildə

nümayiş etdirir. Bu layihənin gerçəkləşdirilməsi respublikamızda ilin bütün fəsillərində turizm fəaliyyətinə və bu növ turizmin inkişafına geniş imkanlar yaradacaqdır.

Kompleksin tikintisindəki əsas iş infrastrukturun yaradılmasından ibarətdir. Artıq 2011-ci ilin sonunadək bu kompleksin fəaliyyətini təmin etməyə qadir olan infrastruktur tamamlanacaqdır. Bu ilin yazında artıq pilot layihəni, avadanlığı sınaqdan keçirəcəyik. Xizək idman növü ilə maraqlananlar növbəti qış mövsümündə kompleksin xidmətindən istifadə edə biləcəklər. Kompleksin tikintisində əsas diqqəti idmanın qış növlərinə, əsasən, dağ xizək idmanının inkişafına yönəltmək nəzərdə tutulub. Bununla yanaşı, respublikada turizmin və idmanın qış növlərinin inkişafı, respublika vətəndaşları və xarici turistlərin mükəmməl istirahəti üçün kompleksin ərazisində tennis, qolf, futbol və basketbol meydançaları, üstüörtülü idman qurğuları, hovuzlar, əyləncə - oyun kompleksləri, istirahət edənlərə piyada və at gəzintisi təklifləri və s. nəzərdə tutulub. Gündəlik beş min turist qəbul etmək iqtidarında olacaq kompleksdə müxtəlif həcmdə üç, dörd, beşulduzlu otellərin, kiçik yaylaq evlərinin və kotteclərin, eləcə də ticarət mərkəzləri, restoranlar, əyləncə xidməti və məişət obyektlərinin tikintisi nəzərdə tutulub.

Hal-hazırda ölkəmizdə səkkiz ekoloji milli park yaradılmışdır. Bu milli parklarda müxtəlif ekoloji turizm marşrutları yaradılıb və turistlərin bu turizm üzrə səfərləri ildən-ilə artır. Respublikamızda mövcud olan mədəni dəyərlər hesabına mədəni turizm növü üzrə turlar təşkil olunur. Qədim mədəni adətimiz Novruz bayramı və Muğam musiqimiz YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına salınmışdır. Ölkəmizin qədim milli tarixi, təbii, mənəvi dəyərlərini tanıtmaq və inkişaf etdirmək məqsədi ilə mütəmadi olaraq hər il bir sıra beynəlxalq səviyyəli festival və digər mədəni tədbirlər keçirilir. Buna misal olaraq Novruz bayramı, Beynəlxalq Muğam festivalı, “Nar bayramı”, “İpək” festivalı və s. qeyd etmək olar.

Hal-hazırda Azərbaycanda əsasən yerli investorlar hesabına 6 beşulduzlu hotel inşa edilir və bu ilin sonuna qədər istifadəyə veriləcəkdir. Bununla yanaşı, mövcud hotel turizmi sahəsində yerli investorlarla yanaşı, xarici investisiya qoyuluşları da var. Onu qeyd etmək lazımdır ki, 2003-cü ildə ölkədə fəaliyyət göstərən mehmanxanaların sayı 96 olduğu halda, ötən dövr ərzində onların sayı 5 dəfə artaraq, 2010-cu ilin altı ayının yekunlarına görə 499-a, yerləşdirmə yerlərinin sayı isə 3 dəfə artaraq, 9569-dan 31996-a çatmışdır. Hal-hazırda respublikada 35-dək yeni mehmanxananın inşası davam edir. Ümumilikdə, 2013-cü ilə qədər ölkədə yerləşdirmə obyektlərində yataq yerlərinin sayının nəzərəçarpacaq dərəcədə artırılması planlaşdırılır.

Azərbaycan xarici investisiya qoyuluşları üçün geniş imkanları olan təhlükəsiz bir ölkədir. Misal üçün, Azərbaycanda 2010-cu il ərzində 15,5 milyard ABŞ dolları investisiya qoyuluşu olub. Bunun 8,2 milyard dolları xarici və 7,3 milyard dolları isə yerli investisiyalar olub. Bu məbləğin 6,2 milyard dolları neft sektoruna, 9,3 milyardı isə qeyri-neft sektoruna cəlb edilib. Ölkədə prioritet istiqamət kimi turizm sektorunun infrastrukturların genişləndirilməsinə səbəb olan amillərdən biri də cəlbedici turizm növlərindən olan MİCE turizmdir. Ölkəmizdə yeni yaradılan müasir və irihəcmli 5 ulduzlu otellərdə geniş konfrans zalları tikilir və bu turizm növünün daha da geniş şəkildə inkişaf etdirilməsinə şərait yaradılır.

Respublikamızda müxtəlif daxili və xarici sərgilərin, beynəlxalq forumlar və konfransların yüksək səviyyədə keçirilməsi ölkəmizdə MİCE turizmi üçün geniş imkanlar olduğunu bir daha sübut edir. Bunlara

misal olaraq, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, İslam Təşkilatı Konfransı və s. beynəlxalq tədbirləri göstərmək olar. Onu da qeyd edək ki, hazırda Mədəniyyət və Turizm Nazirliyi tərəfindən turizmə dair 8 investisiya layihəsi təqdim olunur. Bu məqsədlə nazirlik tərəfindən həmin layihələrin təşviq olunması istiqamətində müvafiq işlər aparılır. Belə ki, xarici ölkələrdə keçirilən, həmçinin, ölkəmizin turizm potensialının tanıdılması məqsədilə təşkil olunan tədbirlərdə İqtisadi İnkişaf Nazirliyi tərəfindən təsis edilmiş Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə həmin investisiya layihələrinə dair təqdimatlar təşkil edir.

Ölkədə turizm xidməti infrastrukturunun genişləndirilməsi və turizm xidməti səviyyəsinin yaxşılaşdırılması istiqamətində görülən əsas işlərdən biri də respublika ərazilərində turizm və rekreasiya zonalarının yaradılmasıdır. Nazirlik tərəfindən turizm və rekreasiya zonalarının yaradılması ilə bağlı ilkin olaraq şimal bölgələrində ərazilərin quruluşu xəritələrini layihələndirmək və investorların cəlb olunması məqsədilə bir neçə xarici maliyyə qurumuna müraciət olunmuşdur. Azərbaycanda turizmin inkişafı ilə bağlı turizm məqsədli coğrafi informasiya və naviqasiya sistemi yaradılmışdır. "GoMap.az onlayn turist portalı: Milli Elektron Turizm Naviqasiya Sistemi" Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə SİN AM şirkəti tərəfindən "Turizm Məqsədli Coğrafi İnformasiya və Naviqasiya Sistemi" layihəsi çərçivəsində yaradılmışdır.

Milli Elektron Turizm Naviqasiya Sisteminin elektron xəritəsinə 60 000 maraq nöqtələri, 70 şəhər, 4530 yaşayış məntəqəsi, 3300 mədəni-tarixi abidə, 670 000 bina və tikililər, 43 000 km yol (hərəkət qaydaları və yol nişanları daxil olmaqla), 23 770 km yaşıllıq sahələri və meşələr və s. məlumatlar daxil edilmişdir. Bütün bunlar bir daha sübut edir ki, mədəniyyət abidələrinin mühafizəsi və turizm infrastrukturunun genişləndirilməsi dövlət siyasətinin prioritetləri sırasındadır.

## GƏNCLƏR VƏ İDMAN NAZİRİNİN MÜAVİNİ İSMAYIL İSMAYILOVUN MƏRUZƏSİ

*6 iyul 2011-ci il*

**Gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik və dünyəvilik prinsipləri əsasında, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması Azərbaycan Respublikasının dövlət gənclərsiyasətinin əsas qayəsidir**

Hörmətli tədbir iştirakçıları!

Bütün görüş iştirakçılarını Azərbaycan gəncləri adından salamlayır, konfransın işinə isə uğurlar arzulayıram. Dünya azərbaycanlılarının III qurultayı çərçivəsində keçirilən bu görüş xüsusi əhəmiyyət daşıyır. Həyatımızın ən mühüm sahələrini əhatə edən məsələlərin müzakirəsinin nəzərdə tutulması isə təqdirəlayiqdir. Bu məsələlər içərisində gənclik və milli-mənəvi dəyərlər mövzusuna da xüsusi əhəmiyyət verilməsi təsadüfi deyildir. Harada inkişaf, yenilik, mübarizlik və qələbə varsa, orada gənclik var. Məhz bu baxımdan, gənclərin hərtərəfli inkişafı elm, təhsil, mədəniyyət, incəsənət, idman və digər sahələrdə əldə edilən uğurlarla səciyyələnir. Bir sözlə, gənclərin əldə etdiyi uğurlar, digər tərəfdən, gənclər siyasətinin konstruktiv, məqsədyönlü və sistemli şəkildə həyata keçirilməsinin göstəricisidir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi və xüsusi diqqəti sayəsində uğurla davam etdirilir. Bu vacib sahəyə ölkənin ümummilli-strateji maraqlarının təmin edilinəsi baxımından da xüsusi önəm verilir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra, ötən dövr ərzində Azərbaycan gəncləri dövlət quruculuğu işində, o cümlədən demokratik islahatların həyata keçirilməsində, ictimai-siyasi həyatımızın bütün sahələrində gedən proseslərdə, vətəndaş cəmiyyəti institutlarının formalaşmasında, milli-mədəni irsimizin qorunub saxlanılmasında aparıcı qüvvə kimi yüksək fəallıq göstərmişdir. Bir çox taleyüklü məsələlərin həllində, dövlətçiliyimizə qarşı həyata keçirilən qeyri- konstruktiv fəaliyyətlə mübarizədə də gənclərimiz sözün əsl mənasında milli birlik, vətəndaş həmrəyliyi nümayiş etdirmişdir. Keçid dövründə gənclərin neqativ təmayüllərə meyilli olmasını müşahidə etmək daha çox gözlənilən bir haldır. Lakin biz proseslərin əksinə, fərqli istiqamətdə inkişaf etdiyinin şahidi olduq.

Yəni, gənclərimiz müstəqil dövlətçiliyimizi, yeniləşməni, inteqrasiyanı, demokratik dəyərləri dəstəklədilər, bu yolda əsl vətəndaşlıq mövqeyi nümayiş etdirdilər.

Dəfələrlə dövlət çevrilişinə edilən cəhdlərin qarşısının alınmasında vətənpərvər Azərbaycan gəncliyi sözün əsl mənasında Vətənin müdafiəsinə qalxdı. Milli, ideoloji təfəkkürün hələ tam formalaşmadığı bir dövrdə gəncləri istiqamətləndirən hansı qüvvə idi? Əlbəttə, birmənalı olaraq qeyd edilməlidir ki, bu ümummilli lider Heydər Əliyevin zəngin təcrübəyə əsaslanan və tarixi faktlarla təsdiqlənən milli dövlətçilik və azərbaycançılıq ideologiyasının cəmiyyət tərəfindən qəbul edilməsi, məhz bu əsaslara söykənən dövlət idarəçiliyi modelinin formalaşmasına olan inam idi. Bu istək zaman-zaman reallaşdıqca, gənclər siyasətinin də yeni bir modelinin

formalaşması məsələsi gündəmə gəldi. Bu reallıq olmaqla yanaşı, eyni zamanda zərurət və Azərbaycan xalqının sosial sifarişi idi. Məhz, xalqın istəyi ilə ölkə rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyev müstəqil dövlət quruculuğu işinin bütün sahələrində olduğu kimi, gənclər siyasətinin də formalaşması istiqamətində mühüm addımlar atdı.

Dövlət gənclər siyasəti - reallıqları, müasir tələbləri, qloballaşmanı, inteqrasiyanı və strateji dövlət maraqlarını ehtiva edən mütərəqqi və konstruktiv inkişaf proqramının tərkib hissəsinə çevrildi. Dövlətin gənclərə olan diqqət və qayğısı, bu fəaliyyət sahəsinin prioritet kimi xüsusi nəzarətdə saxlanılması qeyd olunan sahədə zəruri təsisatların yaranmasına, normativ-hüquqi qanunvericilik bazasının təkmilləşməsinə, gənclərin təşkilatlanmasına, dövlət idarəçiliyində təmsil olunmasına, onların ictimai-siyasi fəallığının artırılması və hərtərəfli inkişafına yardım edən dövlət proqramlarının qəbul edilməsi kimi əhəmiyyətli işlərin reallaşmasına zəmin yaratdı. Bu gün inamla demək olar ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti modeli bir çox parametrlər üzrə dünya təcrübəsinə nümunə kimi təqdim edilə bilər. Məhz konstruktivliyə və reallığa əsaslanan bu siyasətin həyata keçirilməsi Azərbaycan gəncliyinin nəinki ölkədaxili səviyyədə inkişafına, eyni zamanda, onların beynəlxalq əlaqələrinin, təcrübə mübadiləsinin güclənməsinə, birgə layihələrin həyata keçirilməsinə şərait yaratmışdır. Gənclərin milli-mənəvi dəyərlərə hörmət, Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyələndirilməsi Azərbaycan Respublikasında həyata keçirilən gənclər siyasətinin əsas mahiyyətini təşkil edir.

Hörmətli konfrans iştirakçıları!

Dünyada yaşayan bütün millətləri, xalqları biri-birindən fərqləndirən və dəyərləndirən xüsusiyyətlərdən biri də onların tarixən formalaşmış milli-mənəvi dəyərləri, adət-ənənələri, dili, mədəni irsidir. Təbii ki, bu dəyərlərin qorunub saxlanması, deqradasiya olunmaq təhlükəsindən mühafizə edilməsi və gələcək nəsillərə ötürülməsi mərhələli və davamlı bir prosesdir. Bu həmin xalqın milli birliyi, vətəndaş həmrəyliyi və dövlətin strateji məqsədlərinin vəhdətini təşkil edən məqsədyönlü siyasətin əsasıdır. Əks halda, zaman-zaman nəsillərin dəyişməsi və yeniləşmənin tələbləri fonunda bu dəyərlərin forma və ya məzmunca dəyişməsi qaçılmaz olur. Xüsusilə də bu dəyərlərə qarşı təzyiqlər, təhdidlər, mənəvi-psixoloji hücumlar intensiv xarakter aldıqda məsələ daha da təhlükəli mərhələyə qədəm qoyur. Bu baxımdan, yaşadığımız dövrdə sivilizasiyalararası dialoqun, mədəni əlaqələrin sürətli inkişafına baxmayaraq, hər bir xalqın, hər bir dövlətin öz dəyərlərini yaşatmaq ənənələri, mexanizmləri mövcuddur. Bu da təbii qəbul edilməlidir. Çünki hər bir dövlət, hər bir xalq mənsub olduğu tarixi, mədəni, dini və mənəvi dəyərlərlə xarakterizə olunur. Bu, o xalqın mədəni-irsi, milli kodudur. Əlbəttə ki, yaşadığımız dövrdə - qloballaşmanın, beynəlxalq aləmə inteqrasiyanın vüsət aldığı, informasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi, dünyada milli, dini ayrı- seçkiliyin, bir çox hallarda, hətta obyektiv reallıqlara belə ikili yanaşmaların mövcud olduğu bir zamanda milli-mədəni irsin dəyərləndirilməsi, qorunub saxlanılması və dünya ictimaiyyətinə təqdim edilməsi özlüyündə mürəkkəb bir prosesə çevrilmişdir.

Qloballaşmanın qarşıya qoyduğu tələblərin təmin olunması bir tərəfdən rəqabətədavamlı siyasətin reallaşdın İmasına, sürətli inkişaf proseslərinə başlanğıc verirsə, digər tərəfdən cəmiyyətlərə təqdim olunan

ideyaların ehtiyatla mənimsənilməsi reallığını gündəmə gətirir. Həqiqətən də, istənilən cəmiyyətin dövlətçilik modelinin əsasında milli-ideoloji prinsiplər durur. Demokratik dəyərlərin fonunda ayrı-ayrı xalqların milli ideologiyasının formalaşmasını deyil, əksinə, ideologiyasızlaşmış cəmiyyətin varlığına üstünlük verilməsinə baxmayaraq, bu ideoloji prinsiplərin dövlətin strateji maraqlarının təmin edilməsində müstəsna əhəmiyyət daşıdığını hər birimiz dərk edirik. Bu baxımdan, müstəqil, hüquqi, demokratik dövlət quruculuğu yolunu tutmuş Azərbaycan Respublikasında formalaşan milli ideologiya məhz milli dövlətçilik və dünyəvilik prinsipləri, azərbaycançılıq məfkurəsi, milli təəssübkeşlik və vətənpərvərlik tərbiyəsi üzərində qurulmuşdur.

Ümummilli lider Heydər Əliyevin vətənpərvərlik məktəbi isə bu sahədəki strateji xəttin və prinsiplərin əsas mahiyyətidir. Azərbaycan Gənclərinin I Forumunun birinci ildönümü ilə bağlı keçirilən tədbirdə ümummilli lider Heydər Əliyev demişdir: "Gənclər xalqımızın milli ənənələri, milli, mənəvi dəyərləri əsasında tərbiyələnməlidir. Gənclərin tərbiyə edilməsində, təhsillənməsində, eyni zamanda, ümumbəşəri dəyərlərdən geniş istifadə olunmalıdır. Milli, mənəvi, ümumbəşəri dəyərlərin hamısı birlikdə bütün vətəndaşlarımızın və xüsusən gənclərimizin mənəvi kodeksini təşkil etməlidir". Məhz bu əsas üzərində formalaşan gənclər siyasəti dövlətçilik maraqlarımıza xidmət etməklə yanaşı, gənclərin layiqli vətəndaş olaraq, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatımızın bütün sahələrində fəal iştiraka istiqamətləndirilməsinə xidmət etməkdədir.

Əsrlər boyu mövcud olan dövlətçilik ənənələrimizdə milli- mənəvi dəyərlərimizin qorunub saxlanması və dövrümüzədək çatdırılması prosesi özlüyündə xalqımızın bu dəyərlərə olan dərin hörmətinin göstəricisidir. Yaxın tariximizdə bu məsələ ciddi təhlükələrlə üzləşmiş, lakin sınaqlardan da uğurla keçmişdi. Xüsusilə də ötən əsrdə Sovetlər İttifaqının tərkibində müttəfiq respublika kimi yaşadığımız dövr bu baxımdan, daha çətin bir mərhələ kimi qeyd oluna bilər. Hakim Kommunust Partiyasının sərt ideoloji prinsiplərinə baxmayaraq, 70-80-ci illərdə məhz ümummilli lider Heydər Əliyevin göstərdiyi yüksək vətənpərvərlik hissi, Vətən təəssübkeşliyi nəticəsində Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərini, adət-ənənələrini, folklorunu, mədəniyyətini, dilini, dinini, sözün əsl mənasında, məhv olmaq təhlükəsindən xilas etdi.

Əsrin sonunda yenidən dövlət müstəqilliyi əldə etdikdən sonra da bu proseslər davam etdirilmiş və daha yeni təfəkkür formatında - "azərbaycançılıq" anlamında - cəmiyyətə yeni istiqamət vermişdir. Ötən dövr ərzində azərbaycançılıq ideologiyasının cəmiyyətimizdə düzgün dərk edilməsi və mənimsənilməsi sahəsində kifayət qədər zəruri işlər həyata keçirilmişdir. Bu sahədə həyata keçirilən fəaliyyətdə daim mənəvi, ideoloji və psixoloji tərbiyə sisteminə təkan verən və təbii ki, mane olan reallıqlar da nəzarətdə saxlanılmışdır. Doğrudan da ailədə, məktəbdə aparılan tərbiyə işi və cəmiyyətdə gedən ictimai-siyasi və sosial-iqtisadi proseslər, eyni zamanda, güclü informasiya axınının, sosial şəbəkələrin mövcudluğu bu sahədə aparılan işə öz təsirini göstərir. Kütləvi informasiya vasitələrinin bəziləri isə çox vaxt milli-mədəni dəyərlərin təbliğindən çox kommersiya maraqlarına üstünlük verirlər. Bu baxımdan, qeyd olunan məsələlər də milli-mənəvi və ümumbəşəri dəyərlərin təbliği işində nəzərə alınmalıdır.

Ümumiyyətlə, cəmiyyətimizdə dini etiqad, mətbuat və söz azadlığının, plüralizmin dəstəklənməsi, vətəndaş cəmiyyəti institutlarının sərbəst fəaliyyətinə şəraitin yaradılması ölkəmizi tolerantlıq, sülhsevərlik və demokratiklik nümunəsi kimi beynəlxalq aləmə tanıtmışdır. Azərbaycanda mövcud olan bu demokratik şərait

məhz gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik və dünyəvilik prinsipləri əsasında, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmasına əsaslı zəmin yaradır. Xüsusilə də Heydər Əliyev Fondu tərəfindən görülən işlər məhz milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişaf etdirilməsinə xidmət edən dəyərli və məqsədyönlü tədbirlər kimi qiymətləndirilməlidir. Ümumilikdə respublikamızda aparılan bu siyasət nəticəsində əminliklə qeyd etmək olar ki, gənclərimiz həmin proseslərin bilavasitə fəal iştirakçıları kimi milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişaf etdirilməsinə öz töhfələrini verirlər.

Hörmətli tədbir iştirakçıları!

Bu gün respublikamızda gənclərin hərtərəfli inkişafı üçün bütün lazımi imkanlar mövcuddur. 2005-2009-cu illəri əhatə edən Azərbaycan Gəncliyi Dövlət Proqramının icrası göstərdi ki, artıq gənclik qarşısında əsasən problemlər deyil, düzgün seçim, yaradılmış imkanlardan və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə, bazar iqtisadiyyatının tələbləri baxımından zəruri peşəyönümü, keyfiyyətli təhsil, karyera axtarışı, gənclik potensialının ölkənin inkişafına yönəldilməsi və s. kimi mövcud tələb və ehtiyacların təmin olunması durur. Növbəti mərhələdə də fəaliyyətin məhz bu istiqamətdə qurulması nəzərdə tutulur.

Bildiyiniz kimi, yaxın günlərdə ölkə başçısı cənab İlham Əliyev tərəfindən “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı təsdiq edildi. Gənclərlə iş sahəsində çoxsaylı istiqamətlər üzrə geniş fəaliyyəti nəzərdə tutan Proqram inanırıq ki, yaxın dörd il ərzində gənclərin təşəbbüs və ideyalarının dəstəklənməsinə, onların istək və arzularının reallaşdırılmasına hərtərəfli şərait yaradacaqdır. Məhz həmin Proqramda öz əksini tapmış müvafiq bəndlərin icrası nəticəsində Azərbaycan gənclərinin milli- mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə edilməsi məqsədi ilə dövlət qurumları və qeyri-hökumət təşkilatları tərəfindən kompleks tədbirlərin reallaşdırılması da gözlənilir. İctimai müzakirələrdə fəal iştirak edən təşkilatların təkliflərinin nəzərə alınması da reallaşdırılacaq fəaliyyətin demokratik və konstruktiv olacağının göstəricisidir.

Gənclərin beynəlxalq əməkdaşlığı və mübadiləsinə indiki şəraitdə daha çox zərurət yaranmışdır. Bu əlaqələr təkcə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması ilə məhdudlaşmır.

Eyni zamanda, xalqımızın zəngin mədəni irsinin təbliğ olunmasında, dünya mədəniyyəti nümunələrinin öyrənilməsində müstəsna əhəmiyyət kəsb edir. Xüsusilə də bu gün dünyanın bir çox dövlətlərinə səpələnmiş azərbaycanlıların azərbaycançılıq ideologiyası ətrafında birləşməsi, harada yaşamalarından asılı olmayaraq, onların da potensialının doğma Azərbaycanımızın inkişafına yönəldilməsi qarşımızda duran əsas strateji məqsədlərdəndir. Müxtəlif dövlətlərdə fəaliyyət göstərən Azərbaycan diasporunun, xüsusən gənclər təşkilatlarının fəaliyyəti daha da gücləndirilməlidir. Bu gün Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı tərəfindən həyata keçirilən fəaliyyət sayəsində Azərbaycan həqiqətləri, tarixi, mədəniyyəti geniş təbliğ olunur. Bunun nəticəsidir ki, təşkilat öz əhatəsini sürətlə genişləndirir və inkişaf etdirir. Hazırda respublikada fəaliyyət göstərən gənclərin qeyri-hökumət təşkilatları tərəfindən də xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin gücləndirilməsi, əməkdaşlığın yeni, səmərəli yollarının tətbiq edilməsi üçün məqsədyönlü layihələrin həyata keçirilməsinə ehtiyac duyulur.

Dağlıq Qarabağ münaqişəsinin əsas mahiyyətinin və Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, daha çox ictimai fəal olan gənclərin potensialından istifadə etməklə, mövcud psixoloji, ideoloji və informasiya boşluğunun doldurulması və diaspor fəaliyyətinin gücləndirilməsi indiki vəziyyətdə olduqca önəmlidir. Hesab edirik ki, bu istiqamətdə işin gücləndirilməsi üçün rəngarəng, maraqlı, beynəlxalq standartları əks etdirən, faktları müasir texnologiyalardan istifadə etməklə çatdırmaq imkanları yaradan layihələr reallaşdırılmalıdır. Bunun üçün imkanlarımız kifayət edər, sadəcə Azərbaycanın inkişafı naminə vahid məqsəd uğrunda daha mütəşəkkil təşkilatlanmağımız, umummilli məqsədlər naminə milli birlik nümayiş etdirməyimiz yetərlidir. Əminik ki, Heydər Əliyev ideyalarına sədaqətli, vətənpərvər, müasir düşüncəli Azərbaycan gəncliyi məhz bu birliyi, mübarizliyi təmin edəcəkdir.

Diqqətinizə görə təşəkkürümü bildirirəm.